
"Kimyagər" və "Zahir" müəllifindən
PAULO COELHO
"VERONİKA ÖLMƏYƏ QƏRAR VERİR" ÜRƏYİMƏ YATDI VƏ MƏNİ MÜTƏƏSSİR ETDİ
– Umberto Eco
Best THE International Seller
Veronika ölməyə qərar verir
Tərcümə: Sevda Kərim

# Veronika ölməyə qərar verir

Veronika monastırda kirayələdiyi otaqda dörd qutu dərman içərək intihar etmək istəyir. Bu qərarını o, iki cür əsaslandırır. Birincisi, həyatındakı hər şeyin eyni olması və yaşlılıqdan qorxması. İkincisi, Veronika qəzet oxuyan, televiziya izləyən bir xanım olduğu üçün, dünyada baş verənlərdən xəbərdardır. Səhv hesab etdiyi şeylərə müdaxilə etmək üçün gücsüzlüyünü dərk edən Veronika intihardan başqa çıxış yolu görmür. Amma cəhdi uğursuzluqla nəticələnir, onu rahiblərdən biri xəstəxanaya çatdırır.

İçdiyi dərmanlarla ürəyində problemlərin yaranmasına səbəb olan Veronikaya məlum olur ki, cəmi bir həftə ömrü qalıb. Onu ruhi-əsəb xəstəxanasına göndərirlər və Veronika burada Eduarda aşiq olur.

Son günlərini ruhi xəstəxanada keçirmək istəmədiyindən o, Eduardla birgə qaçaraq şəhərin bahalı bir restoranında yeyib-içir, əylənirlər. Səs-küy saldıqları üçün restorandan qovulan cütlük şəhərin kənarındakı təpəyə dırmaşırlar. Təpədə hər ikisini yuxu tutur.

Səhər açılanda isə Veronika...

Bil ki, ilanlar üzərində gəzib onları əzmək üçün
sənə ixtiyar verdim...və qətiyyən
heç nə səni incidə bilməz.
Luka 10:19


e-kitab.org

Fərqinə varmadan mənə kömək etməyə başlayan

S.T. de L. üçün



e-kitab.org

# 1

* * *

11 noyabr 1997-ci ildə Veronika qərara aldı ki, nəhayət, intihar etməyin zamanı gəlib çatmışdır. Monastırda kirayədə qaldığı mənzilini səliqəyə salıb, qızdırıcını söndürdü, dişlərini fırçalayıb yerinə uzandı.

Uzandığı çarpayının yanındakı stolun üstündən dörd qutu yuxu dərmanını əlinə aldı. Həbləri əzib suda həll etməkdənsə, onları bir-bir qəbul etməyə qərar verdi. Niyyətlə əməl arasında həmişə bir məsafə var, buna görə də yarı yoldan istədiyi an geri dönə bilmək üçün özünə şans vermək istədi. Lakin udduğu hər bir həb onun ölməyə əminlik hissini daha da artırırdı. Artıq beş dəqiqədən sonra bütün dərman qutuları boşalmışdı.

Nə zaman huşunu itirəcəyini dəqiq bilmədiyi üçün Veronika işlədiyi kitabxanaya yenicə gəlmiş fransız “Homme” jurnalının həmin ay nəşr olunan bir nüsxəsini çarpayının üstünə qoymuşdu. Kompüter elminə xüsusi bir marağı olmasa da, jurnalı vərəqləməyə başladı. Bu zaman Braziliya yazıçısı Paulo Koelyo tərəfindən yaradılmış kompüter oyunu (CD-ROM-lardan biri) haqqında bir məqaləyə rast gəldi. Koelyo ilə “Grand Union” otelinin kafesindəki bir mühazirə zamanı tanış olmuşdu. Onlar cəmi bir neçə kəlmə kəsmişdilər və nəticədə, yazıçının naşiri Veronikanı onlarla şam etməyə dəvət


e-kitab.org

etmişdi. Lakin orada da çoxlu adam olduğu üçün onlar heç bir mövzu barədə dərindən söhbət edə bilməmişdilər.

Koelyo ilə tanışlıq Veronikanı yazıçının həyatının bir hissəsi olduğunu düşünməyə təhrik etdi və yazıçı haqqında məqalə oxumaqla vaxtın tez keçəcəyini fikirləşdi. Ölümünü gözləyərkən Veronika onun üçün heç də maraqlı olmayan bir sahə – kompüter elmi ilə bağlı oxumağa başladı. Bu da həyatı boyu vərdiş etdiyi bir adətə bənzəyirdi; həmişə ən asan yolu axtarmaq, əl altdakı ən yaxın yolu seçmək. Məsələn, bu jurnal kimi.

Məqalənin ilk sətri onu adət etdiyi təbii passivliyindən təəccüblü şəkildə fərqli reaksiya verməyə məcbur etdi (sakitləşdiricilər hələ mədəsində həll olmamışdı, amma həm də Veronika təbiətcə itaətkar insan idi). O, həyatında ilk dəfə idi ki, dostları arasında dəbdə olan bir deyimin dərinliyinə vardı: "Bu dünyada heç nə təsadüfən baş vermir".

Ölməyə hazırlaşdığı o anda niyə məhz həmin sətrə rast gəlmişdi? Gizli işarələrdən daha çox sadə təsadüflərin mövcud olduğunu fərz etsək, gözləri qarşısındakı bu sirli əlamət nə demək idi?

Kompüter oyununu əks etdirən şəklin altında jurnalist məqaləyə belə bir başlıq vermişdi: "Sloveniya haradadır?"

"Həqiqətən də, – Veronika düşündü, – heç kim Sloveniyanın harada olduğunu bilmir".


e-kitab.org

Buna baxmayaraq, Sloveniya mövcud idi – içəridə, çöldə, ətrafındakı dağlarda və indicə baxdığı meydanda. Sloveniya onun vətəni idi.

Veronika jurnalı bir kənara atdı; sloveniyalılar haqqında qətiyyən heç nə bilməyən dünyaya acıqlanmağın indi heç bir mənası yox idi – ölkəsinin şərəfi artıq onu maraqlandırmırdı. İndi qürur duymaq vaxtı idi. Nəhayət ki, bu dünyanı tərk etməyə cəsarət tapmışdı və bunu qeyd etməyin zamanı idi. Necə bir xoşbəxtlik! Həm də o bunu həmişə arzuladığı kimi edirdi – heç bir iz buraxmayacaq yuxu dərmanı qəbul etməklə.

Artıq altı ay idi ki, Veronika bu dərmanı axtarırdı. Onu heç vaxt tapa bilməyəcəyini zənn edib, hətta bir dəfə biləyini kəsmək fikrinə belə düşmüşdü. Onun üçün artıq fərqi yox idi ki, otaq qana boyanacaq və rahibələr çaşqın vəziyyətə düşüb, məyus olacaqdılar. Çünki intihar – insandan digərlərindən əvvəl özü barədə düşünməyi tələb edir. Veronika ölümünün mümkün qədər az məyusluq doğurması üçün əlindən gələni əsirgəmirdi.

Ancaq əgər biləyini kəsmək yeganə çıxış yolu idisə, onda onun başqa çarəsi qalmayacaqdı. Rahibələr isə otağı təmizləyib, olanları tezliklə unuda bilərdilər. Əks halda, otağı yenidən kirayəyə vermək çətin olacaqdı. İyirminci əsrin sonlarında yaşasaq da, insanlar hələ də kabusların varlığına inanırlar.


e-kitab.org

Aydındır ki, Veronika Lyublyanadakı hündür binaların birindən özünü yerə ata da bilərdi. Amma belə hündürlükdən yerə düşməklə nəticələnəcək ölümün ağrısı onun valideynlərinə nə çilələr çəkdirərdi? Qızının ölüm xəbərinin sarsıntısından əlavə, hələ bir də tikələrə parçalanmış insanın onların övladı olduğunu öyrənməyin əzabına tab gətirmək necə? Yox, bu, qana boyanmaqdan daha pis çıxış yolu idi, çünki bu onun üçün hər şeyin ancaq yaxşısını istəyən iki insanın yaddaşında silinməz izlər qoyardı.

Bir müddət sonra onlar qızlarının ölümünə alışa bilərdilər. Amma tikələrə parçalanmış kəllənin surətini unutmaq qeyri-mümkün olardı.

Özünə atəş açmaq, hündür binadan yerə tullanmaq, özünü asmaq... kimi intihar üsullarının heç biri onun zərif qadın təbiətinə uyğun gəlmirdi. Adətən, qadınlar özlərinə qəsd etmək istərkən daha çox biləyini kəsmək və ya həddən artıq yuxu dərmanı qəbul etmək kimi romantik üsullardan yararlanırlar. Tərk edilmiş şahzadələr və Hollivud aktrisalarının bu kimi çoxlu intihar nümunələri mövcuddur.

Veronika bilirdi ki, həyatda nəsə etmək üçün hər şeyin öz vaxtı var. Və belə də oldu. Gecələr artıq yata bilməməklə bağlı şikayətlərinə cavab olaraq, dostlarından ikisi yerli gecə klublarındakı musiqiçilərin istifadə etdiyi güclü yuxuvericidən iki qutu tapa bildilər. Dörd dərman qutusunu bir


e-kitab.org

həftə boyunca çarpayısının kənarındakı stolun üstündə saxlayaraq əcəlini izləyir, insanların həyat adlandırdığına tamamilə hissiyyatsız şəkildə əlvida deməyi gözləyirdi.

Artıq Veronika son mənzilə çatmışdı və bu həddə gəlib çıxmağından çox məmnun idi. Az qalmış vaxtı necə keçirəcəyini bilmədiyindən ürəyi sıxılırdı.

Bir az öncə oxuduğu bu absurd sual barəsində bir də düşündü. Kompüterlə bağlı yazılmış hansısa bir məqalə "Sloveniya haradadır?" kimi səfeh bir sualla necə başlaya bilərdi?

Başqa heç bir maraqlı məşğuliyyət olmadığı üçün Veronika məqaləni bütünlüklə oxumağa qərar verdi. Məqaləyə əsasən, sözügedən kompüter oyunu Sloveniyada hazırlanmışdı. Sloveniya orada yaşayan sakinlərdən başqa heç kimin tanımadığı qəribə bir ölkə idi, çünki bu ölkə ucuz işçi qüvvəsinin mənbəyi idi.

Kompüter oyunu dövriyyəyə buraxılmazdan bir neçə ay əvvəl fransız istehsalçısı dünyanın müxtəlif ölkələrindən gələn jurnalistlər üçün Vled qalasında ziyafət təşkil etmişdi. Veronika bu ziyafətin şəhərdə səs-küy yaratması haqqında oxuduğunu xatırladı. Ona görə yox ki, qalanın içərisini bəzəyərkən təşkilatçılar CD-ROM-dakı orta əsrlər atmosferini yaratmaq üçün əllərindən gələni əsirgəməmişdilər; ona görə ki, yerli mətbuatda bu hadisə böyük mübahisəyə


e-kitab.org

səbəb olmuşdu. Çünki tədbirə Almaniya, Fransa, Britaniya, İtaliya və İspaniya kimi ölkələrdən jurnalistlər dəvət olunmuşdu, amma onların arasında bircə nəfər belə sloveniyalı jurnalist yox idi.

"Homme" jurnalının müxbiri Sloveniyaya ilk dəfə idi ki, səyahət edirdi və şübhəsiz, onun bütün səfər xərcləri ödənmişdi. Səfər boyu digər jurnalistlərlə söhbətləşərək maraqlı şərhlər verəcəyini zənn edib, havayı yeməklərdən yeyəcək, içkilərdən içəcəkdi. Bu müxbir məqaləsini öz ölkəsinin intellektual təbəqəsi tərəfindən bəyənəcəyi bir zarafatla başlamağı qət etmişdi. Bəlkə də o, jurnalda çalışan öz müxbir həmkarlarına yerli adət-ənənələr və sloveniyalı qadınların nə qədər zövqsüz geyindikləri haqqında çoxlu uydurma nağıllar da danışmışdı.

Lakin bu, müxbirin problemi idi. Veronika ölmək üzrə idi və onu indi narahat edən başqa məsələlər vardı. Məsələn, görəsən, ölümdən sonra həyat vardırını və ya onun cəsədini nə zaman tapacaqdılar? Bütün bunlara baxmayaraq, ya da bəlkə elə məhz belə bir ciddi qərar verdiyindən idi ki, məqalə onu narahat edirdi.

Lyublyananın kiçik meydanlarından birinə açılan monastır pəncərəsindən çölə boylandı. "Əgər onlar Sloveniyanın harada olduğunu bilmirlərsə, o halda, Lyublyana bir mifdir", – deyə Veronika düşündü. Yer üzündən yox olan, insanların yalnız xəyal etdikləri Atlantik, Lemuria və digər


e-kitab.org

materiklər kimi. Dünyanın heç bir yerində, heç bir kəs məqaləni "Everest dağları haradadır?" başlığı ilə başlamazdı, hətta o dağlar mövcud olmasaydılar belə. Buna baxmayaraq, Avropanın düz mərkəzində, əhəmiyyətli jurnallardan birinin müxbiri bu cür sual verməkdən heç də xəcalət çəkmir. Çünki bilir ki, onun oxucuları nəinki Sloveniyanın, hətta paytaxt Lyublyananın harada olduğunu bilmirlər.

Elə həmin andaca Veronika az qalmış vaxtını necə keçirməyin yolunu tapdı. İndi artıq on dəqiqə keçmişdi və o, bədənində heç bir qeyri-adi fiziki dəyişiklik müşahidə etməmişdi. Həyatının son anlarını həmin jurnala məktub yazmağa, Sloveniyanın keçmiş Yuqoslaviyanın bölündüyü beş respublikadan biri olduğunu izah etməyə həsr edəcəkdi.

Bu, Veronikanın intihar məktubu olacaqdı. Beləcə, o, ölümünün əsl səbəbini açıqlamaq məcburiyyətində qalmayacaqdı.

Onun cəsədini tapdıqda bu nəticəyə gələcəkdilər ki, Veronika özünə bir jurnalın onun ölkəsinin harada olduğunu bilmədiyi üçün qəsd etmişdir. Veronika qəzetlərdə ölkəsinin şərəfindən ötrü özünə qəsd etməsinin əleyhinə və lehinə yaranacaq mübahisələr barədə düşünüb güldü. Fikrini bu qədər cəld dəyişməsinə heyrətləndi, zira bir neçə saniyə əvvəl bu fikrin tamamilə əksini – dünya və digər coğrafi problemlərin onu artıq maraqlandırmadığını düşünürdü.

Veronika, nəhayət ki, məktubu yazdı.


e-kitab.org

Xoş yumorun təsiri altında az qala ölmək barədə fikrini dəyişəcəkdi, amma artıq gec idi. O, artıq dərmanları qəbul etmişdi.

Nə isə, əvvəllər də belə anları olmuşdu. Bundan savayı, Veronika qəmgin, acıqlı və ya depressiyada olduğundan özünü öldürmürdü. Dəfələrlə gündüz vaxtlarını Lyublyananın küçələrini fərəhlə gəzməklə və ya otağının pəncərəsindən mərkəzində şairin heykəli olan kiçik meydana yağan qara baxmaqla keçirmişdi. Bir dəfə hətta düz bir ay özünü göydə uçurmuş kimi hesab etmişdi, ona görə ki, həmin meydanın tən ortasında tamamilə yad adam ona çiçək bağışlamışdı.

Veronika özünü tam normal insan hesab edirdi. Özünə qəsd etməsinin iki çox sadə səbəbi var idi və o əmin idi ki, özündən sonra bu səbəbləri izah edəcək bir məktub qoysaydı, çoxları onunla razılaşacaqdı.

Birinci səbəb bu idi ki, onun həyatında hər şey eyni idi və gəncliyi solduqdan sonra hər şey pisləşməyə doğru gedəcəkdi. Qocalıq sarsılmaz izlər buraxmağa başlayacaq, xəstəliklər özünü göstərəcək, dostları onu tərk edəcəkdi. Yaşamağa davam etməklə heç bir şey əldə etməyəcək və əlbəttə ki, getdikcə çəkiləcək əzabların sayı yalnız artacaqdı.

İkinci səbəb isə daha çox fəlsəfi məna kəsb edirdi. Veronika mütəmadi olaraq qəzet oxuyur, televizora baxırdı, dünyada baş verənlərdən xəbərdar idi. Dünya saxtakarlıqla dolu idi və Veronika heç cürə


e-kitab.org

onu qaydasına sala bilməzdi. Bu hiss ona tamamilə gücsüzlük hissi bəxş etmişdi.

Lakin qısa müddət sonra, həyatının ən son macərası – ölüm – gələcəkdi və bu tam fərqli bir hiss olmalı idi. Jurnala ünvanladığı məktubu yazdı, sonra bu mövzunu bir kənara atıb, diqqətini daha vacib olan məsələlərə – həmin an keçirdiyi hisslərə, öz ölümünə cəlb etdi.

Özünü ölümün necə olacağı barədə düşünməyə məcbur etdi, amma heç bir nəticəyə gələ bilmədi. Lakin bu barədə narahat olmağa dəyməzdi, çünki bir neçə dəqiqədən sonra bunun şahidi olacaqdı.

"Görəsən, neçə dəqiqədən sonra?" – Veronika düşündü.

Ağlına yenə heç bir fikir gəlmədi. Lakin hamının özünə verdiyi "Yaradan varını" sualına tezliklə cavab tapacağını düşünmək onu sevindirdi.

Əslində, çoxlarından fərqli olaraq, bu sual Veronikanın daxilində elə böyük mübahisələrə səbəb olmamışdı. Kommunist rejimi dövründə məktəblərdə rəsmi olaraq öyrədilirdi ki, həyat ölümlə bitir və o, bu fikrə artıq alışmışdı. Digər tərəfdən isə valideynləri və nənə-babasının nəslindən olan insanlar hələ də kilsəyə gedir, dua oxuyur, ziyarətgahlara baş çəkir və Yaradanın onların dediklərini diqqətlə dinlədiyinə inanırdılar.

İyirmi dörd yaşında Veronika artıq həyatında baş verə biləcək hər şeyi yaşamışdı – bu, heç də kiçik nailiyyət


e-kitab.org

deyildi – və təxminən əmin idi ki, hər şey ölümlə bitir. Buna görə də intihar etmək qərarına gəlmişdi. Azadlıq – nəhayət ki! Əbədi heçlik!

Amma ürəyinin lap dərinliyində hələ də bir şübhə var idi: bəs Yaradan mövcud olsa necə? Minilliklər boyu bəşəriyyət intiharı tabu, bütün dini prinsiplərə qarşı təhqir hesab etmişdir: insan yaşamaq uğrunda mübarizə aparmalı, təslim olmamalıdır. İnsan nəsli davam etdirilməlidir. Cəmiyyətə işçilər lazımdır. Bir cütlük arasında məhəbbət bitsə belə, birlikdə yaşamaq üçün səbəb olmalıdır. Ölkəyə əsgərlər, siyasətçilər, incəsənət xadimləri gərəkdir.

"Əgər Yaradan mövcuddursa – halbuki mən həqiqətən onun varlığına inanmıram – o halda o, insan idrakının məhdudluğuna bələd olmalıdır. Səfalətin, ədalətsizliyin, tamahkarlığın və tənhalığın mövcud olduğu iğtişaşı o törətmişdir. Şübhəsiz ki, onun yaratmaqda pis niyyəti yox idi, amma nəticə fəlakətli olmuşdur. Əgər Allah varsa, o zaman o bu Yer planetini tez tərk etmək qərarına gələnlərə qarşı mərhəmət göstərəcək və bəlkə hətta bizi burada vaxt keçirməyə vadar etdiyinə görə hələ üzr də istəyəcəkdir".

Tabular və mövhumatlar cəhənnəm olsun bir yana!

Veronikanın mömin anası həmişə deyərdi: "Yaradan keçmişi, indini və gələcəyi biləndir".

"Deməli, o, Veronikanın sonda özünü


e-kitab.org

öldürəcəyini bilməsinə baxmayaraq, onu bu dünyaya gətirmişdir və ona gorə də Veronikanın bu hərəkəti onu heyrətləndirməyəcək", – deyə düşündü.

Birdən Veronika yüngül ürəkbulanma hiss etdi və halı bir az da gərginləşdi.

Bir neçə dəqiqədən sonra o, pəncərəsindən görünən meydana diqqətini cəmləyə bilməyəcəkdi. Qış fəsli olduğunu xatırladı; günorta təxminən saat dörd olardı və günəş sürətlə qüruba enirdi. Ağlından digər insanların yaşamağa davam edəcəyi fikri keçdi. Və həmin andaca cavan bir oğlan Veronikanın tezliklə öləcəyindən tamamilə xəbərsiz halda, pəncərənin önündən keçərkən onu gördü. Elə bu zaman meydanda, xalqının qəlbində dərin iz buraxmış görkəmli Sloveniya şairi Frans Preserenin heykəlinin qarşısında bir qrup boliviyalı (yeri gəlmişkən, Boliviya haradadır? Jurnal məqalələri bəs bu sualı niyə vermirdilər?) musiqiçi nəğmə ifa edirdi.

Meydandan ətrafa yayılan musiqi sədalarını sona qədər eşidə biləcəkdimi? Bu həyatının ən gözəl xatirəsi olardı: axşamüstü, dünyanın o başındakı bir ölkənin röyalarını əks etdirən melodiyanın səsi, isti, rahat otaq, həyat enerjisi ilə dolu gənc bir oğlanın yoldan keçərkən dayanıb pəncərədən ona baxması... Veronika hiss edirdi ki, dərman artıq öz təsirini göstərməyə başlayır və bu gənc oğlan onu görən son insan olacaq.

Gənc oğlan ona gülümsədi. Veronika da


e-kitab.org

ona cavab olaraq gülümsədi – itirməyə ki heç nəyi yox idi! Oğlan əlini yellədi, Veronika isə nəyəsə baxırmış kimi özünü görməməzliyə qoydu; oğlan artıq həddini aşırdı. O da pərt halda və pəncərədəki üzü həmişəlik unudaraq yoluna davam etdi.

Amma sonuncu dəfə kimsə tərəfindən arzulanmaq hissi Veronikaya sevinc bəxş etdi. O özünə həyatında sevgi olmamasından ötrü qəsd etmirdi; onu sevməyən ailəsi, pul problemi və ya müalicəsi olmayan xəstəliyi yox idi.

Veronika o gözəl Lyublyana günündə, Boliviya ifaçılarının meydandakı musiqi sədaları altında, pəncərəsinin önündən gənc bir oğlanın keçdiyi anda ölməyi qət etmişdi. Gözlərinin gördüyü və qulaqlarının eşitdiyi ona xoş hisslər bəxş edirdi. Amma daha çox ona sevinirdi ki, növbəti otuz, qırx və ya əlli il bunları görməyə davam etməyəcəkdi, çünki zaman keçdikcə onlar öz orijinallığını itirəcək, hər bir günü əvvəlkinin eynisi olan, hər şeyin təkrarlandığı faciəvi həyata çevriləcəkdi.

İndi artıq mədəsi köpüklənməyə başlamışdı və təbii ki, özünü pis hiss edirdi. “Qəribədir, – deyə Veronika fikirləşdi, – mənə elə gəlirdi ki, böyük dozada sakitləşdirici qəbul etməklə dərhal yuxuya gedəcəm”. Amma indi hiss etdikləri qulaqlarında cingilti səsi və qaytarmaq istəyindən ibarət idi.

“Əgər həbləri qaytarsam, ölməyəcəm”.

Mədəsindəki sancılar barədə



e-kitab.org

düşünməmək qərarına gəldi və əvəzində diqqətini gecənin sürətlə düşməsinə, boliviyalı musiqiçilərə və dükanlarını bağlayıb evə tərəf üz tutan insanlara cəmləşdirməyə çalışdı. Qulaqlarındakı səs getdickə daha çox kəskinləşirdi və dərmanları qəbul etdiyi andan bəri ilk dəfə idi ki, dəhşətli qorxu hissi keçirirdi: bu, qeyri-müəyyənliyin gətirdiyi qorxu hissi idi.

Bu çox çəkmədi. Az sonra o, huşunu itirdi.


e-kitab.org

# 2

* * *

Veronika gözlərini açdıqda, gördüyü yerin cənnət olduğunu sanmadı: "Cənnətdə otağı işıqlandırmaq üçün heç vaxt fluoresyent lampalardan istifadə etmirlər", – deyə fikirləşdi.

Dərhal sonra hiss etməyə başladığı özünəməxsus və təkrarolunmaz ağrı bu dünyaya xas olan ağrı idi.

Hərəkət etməyə çalışdıqca ağrıları daha da artdı. Gözləri önündə qara nöqtələr yarandı, lakin Veronika başa düşdü ki, bunlar cənnətin ulduzları yox, keçirdiyi şiddətli ağrının əlamətləri idi.

– Özünə gəlir, – deyə qadın səsi eşidildi. – Cəhənnəmin düz ortasına düşmüsən. Yaxşısı budur, bunun tam dadını çıxarasan, – qadın əlavə etdi.

Yox, bu doğru ola bilməzdi, səs onu aldadırdı. Bura cəhənnəm deyildi, çünki ona çox soyuq idi və ağız-burnundan çıxan plastik borucuqları hiss edirdi. Ona elə gəlirdi ki, borucuqlardan biri – boğazına keçiriləni – onu boğur. Borucuğu dartıb çıxarmağa cəhd etsə də, buna nail ola bilmədi.

– Zarafat edirəm, bura əslində cəhənnəm deyil, – qadın sözünə davam etdi. – Cəhənnəmdə heç vaxt olmasam belə, buranın oradan da pis yer olduğunu deyə bilərəm. Bura Viletdir.

Ağrı və boğulmaq hissinə baxmayaraq,


e-kitab.org

Veronika dərhal nə baş verdiyini anladı. Özünü öldürməyə cəhd etmiş və kimsə vaxtında gəlib, onu xilas etmişdi. Bu ya rahibələrdən biri, ya xəbərsiz gələn dostlarından kimsə, ya da ki, sifariş etdiyini unutduğu bir əşyanı çatdırmaq üçün gələn adam ola bilərdi. Fakt budur ki, o sağ qalmışdı və indi Viletdə idi.

Vilet – əsası 1991-ci ildə, ölkə müstəqillik əldə etdikdən sonra qoyulmuş, çoxlarının ehtiyat etdiyi psixi xəstəxana idi. Həmin vaxt keçmiş Yuqoslaviyanın bölünməsinin sülh yolu ilə həll olunacağını düşünən (axı Sloveniya cəmi 11 gün müharibə görmüşdü) bir qrup avropalı biznesmen icazə alıb, qorunub saxlanması baha başa gəldiyindən tərk edilmiş köhnə hərbi kazarmalarda psixi xəstələr üçün xəstəxana tikmişdilər.

Az keçmədi ki, müharibələr başlandı: öncə Xorvatiyada, daha sonra isə Bosniyada. Belə olan halda biznesmenlər təşvişə düşdülər. Xəstəxana üçün sərmayə dünyanın hər yerindən olan naməlum kapitalistlərdən gəlirdi və onlara baş verənləri izah etmək üçün bir neçə bəhanə gətirmək, onlardan bir qədər səbirli olmağı xahiş etmək qeyri-mümkün idi. Məsələni həll etmək üçün onlar psixiatriya xəstəxanasına və mülayim kommunizmdən yenicə çıxmış gənc ölkəyə xas olmayan bir praktikanı tətbiq etməyi qərara aldılar. Beləcə, Vilet kapitalizmin ən pis cəhətlərini əks etdirən xəstəxanaya çevrildi: indi


e-kitab.org

buraya qəbul olunmaq üçün yeganə lazım olan şey pul idi.

Varislik üzərində düşən mübahisələr (və ya utandırıcı hərəkətlər) ucbatından hansısa ailə üzvündən canını qurtarmaq istəyən insanlar az deyildi və onlar valideynlərini və ya övladlarını bu xəstəxanaya salmaq üçün böyük həcmdə pul verib, tibbi sənəd düzəltdirməyə hazır idilər. Digərləri isə borcdan qaçmaq və ya müəyyən şəxsi mövqeyə görə uzun-uzadı həbs cəzası çəkməkdən yayınmaq üçün bu psixi xəstəxanada qısa müddət qaldıqdan sonra heç bir cəza tətbiq olunmadan və ya məhkəmə prosesindən keçmədən oranı tərk edirdilər.

Vilet heç kimin heç zaman qaçıb canını qurtara bilmədiyi bir yer idi və orada məhkəmələrdən və ya digər xəstəxanalardan göndərilmiş həqiqi psixi xəstələr, yüngül dəlilikdə günahlandırılanlar və özlərini dəliliyə vurmuş insanlar bir-birinə qarışırdılar. Nəticədə, əsl qatma-qarışıqlıq yaranırdı və mətbuatda xəstəxanadakı pis müalicə və sui-istifadə barəsində daima məqalələr nəşr olunurdu – baxmayaraq ki, müxbirlər heç vaxt Viletə daxil olub, orada əslində nə baş verdiyini görməyə nail olmamışdılar. Hökumət şikayətləri araşdırmağa çalışır, amma heç bir sübut əldə edə bilmirdi. Belə ki, səhmdarlar hökuməti Sloveniyaya xarici sərmayə qoyuluşunun çətin olmasını yayacaqları ilə hədələyirdilər. Beləcə,


e-kitab.org

xəstəxana fəaliyyətini davam etdirərək, gündən-günə güclənirdi.

– Mənim xalam bir neçə ay bundan öncə intihar edib, – deyə bir qadın dilləndi. – Təqribən səkkiz il ərzində, hətta otağından kənara çıxmağa belə qorxur, yeyir, kökəlir, siqaret çəkir, sakitləşdirici qəbul edir və çox zaman da yatırdı. İki qızı və onu sevən həyat yoldaşı var idi.

Veronika başını səs gələn istiqamətə döndərməyə çalışsa da, cəhdi boşa çıxdı.

– Mən onun yalnız bircə dəfə müqavimət göstərdiyini gördüm, bu da ərinin yeni sevgilisi peyda olduğu zaman baş vermişdi. Bu üzdən xalam hay-küy qaldırdı, bir neçə kilo arıqladı, bir neçə stəkan sındırdı və həftələrlə qışqır-bağır salmaqla bütün məhəlləni oyaq saxladı. Qəribə səslənsə də, mənə elə gəlir ki, həmin dövr xalamın həyatının ən xoşbəxt çağı idi. Çünki o məhz onda nə üçünsə mübarizə aparırdı deyə, özünü diri və üzləşdiyi problemləri həll etməyə qadir hiss edirdi.

"Bütün bunların mənlə nə əlaqəsi var? – Heç nə deyə bilməsə də, Veronika düşündü. – Mən sənin xalan deyiləm və mənim həyat yoldaşım yoxdur".

– Nəhayət ki, xalamın yoldaşı öz sevgilisini tərk etdi və yavaş-yavaş xalam yenə də əvvəlki passivliyinə qayıtdı, – qadın sözünə davam etdi. – Bir gün zəng edib dedi ki, siqaret çəkməyi dayandırıb və həyatını dəyişdirmək istəyir. Elə həmin həftə, siqaret çəkməyi tərgitdiyi üçün sakitləşdiricilərin


e-kitab.org

sayını artırdıqdan sonra hamıya özünü öldürmək istədiyini bəyan etdi. Heç kim ona inanmadı. Sonra bir səhər telefonumda əlvida mesajı qoymuş və qaz udaraq intihar etmişdi. Mən onun mesajını bir neçə dəfə dinlədim. Onu heç vaxt bu qədər sakit, taleyinə təslim olmuş şəkildə danışan eşitməmişdim. Özünü nə xoşbəxt, nə də ki, bədbəxt hiss etdiyini və artıq belə yaşaya bilmədiyini demişdi.

Veronikanın hekayəni danışan qadına yazığı gəldi, çünki görünür, qadın öz xalasının ölümünü dərk etməyə çalışırdı. Hamının, nə olursa olsun, yaşamaq uğrunda mübarizə apardığı bu dünyada bir adam ölməyə qərar vermiş insanları necə mühakimə edə bilər?

Heç kəsin başqalarını mühakimə etməyə haqqı yoxdur. Hər bir insan öz çəkdiyi əzabların dərəcəsini və ya həyatındakı mənasızlığı özü yaxşı bilir. Veronika bunu qadına izah etmək istədi, lakin ağzındakı borucuğa görə təngnəfəs oldu. Otaqdakı qadın dərhal onun köməyinə yetişdi.

İstəyinin əksinə olaraq bütün bədənini sarmış borucuqlar üstündən qadının onun üzərinə əyilməsini gördü. Veronika açıq şəkildə onları məhv etmək istəyini ifadə etdi. Başını bir tərəfdən digər tərəfə yelləyib, borucuqların onun üstündən götürülməsi və rahatca ölməyə imkan verilməsi üçün gözləri ilə yalvar-yaxar etdi.

– Sən məyus olmusan, – qadın dilləndi.


e-kitab.org

– Bilmirəm, etdiklərinə peşmansan, yoxsa hələ də ölmək istəyirsən, amma bu məni heç də maraqlandırmır. Məni maraqlandıran işimi görməkdir. Əgər xəstə həyəcanlanırsa, qaydalara əsasən, mən ona sakitləşdirici verməliyəm.

Veronika müqavimət göstərməsə də, tibb bacısı artıq onun qoluna nəsə yeridirdi. Az sonra o, yenə də özünü qəribə və yuxusuz bir aləmdə hiss etdi. Xatırladıqları yalnız indicə gördüyü qadının yaşıl gözləri, qəhvəyi saçları və uzaqdan hiss olunan bir hava idi – qaydaların mövcudluğunu sorğulamadan, kiminsə nəyisə məhz etməli olduğuna görə etdiyi hava.


e-kitab.org

# 3

* * *

Üç ay sonra Paulo Koelyo Veronikanın hekayəsini Parisdə, Əlcəzair restoranında sloveniyalı bir dostu ilə şam yeməyi yeyərkən eşitdi. Dostunun da adı Veronika idi və təsadüf elə gətirmişdi ki, o, Vileti idarə edən həkimin qızı idi.

Bir müddət sonra, yazıçı Veronika haqqında kitab yazmaq qərarına gələndə oxucularını çaşdırmamaq üçün dostunun adını dəyişmək barədə düşündü. Ona gah Blaska, gah Edvina, gah Marietzja, gah da ki, hər hansı bir Sloveniya qız adını qoymaq istədi, amma sonda bu fikrindən daşınaraq, elə əsl adları saxlamaqda qərarlaşdı. Dostu Veronika haqqında danışarkən, ona elə "dostu Veronika" deyə müraciət edəcəkdi. Digər Veronika barədə yazanda isə onu təsvir etməyə ehtiyac olmayacaqdı, çünki o, əsərin baş qəhrəmanı olacaqdı. Həm də oxucular hər dəfə "dəli Veronika" və ya "intihara cəhd edən Veronika" oxuyarkən qıcıqlana bilərdilər. Bundan savayı, onsuz da Koelyo və dostu Veronika bu kitabda çox qısa yer alacaqdılar.

Dostu Veronika atasının etdiklərindən dəhşətə gəlmişdi, xüsusilə nəzərə alsaq ki, o, hörmət qazanmağa çalışan bir institutun direktoru idi və ənənəvi akademik cəmiyyət tərəfindən mühakimə olunacaq dissertasiya üzərində işləyirdi.

– Sən "sığınacaq" sözünün haradan



e-kitab.org

gəldiyini bilirsən? – Veronika soruşdu. –Sözün kökü orta əsrlərdə insanların kilsə və digər müqəddəs yerlərdə sığınacaq axtarmaq hüququna gedib çıxır. Sığınacaq hüququ hər bir sivil insanın anlaya biləcəyi məfhumdur. Belə olan halda sığınacağın direktoru olan mənim doğmaca atam bir insana qarşı bunu axı necə edə bilərdi?

Paulo Koelyo baş verənləri bütün detalları ilə bilmək istəyirdi, çünki Veronikanın hekayəsini öyrənməyə səmimi səbəbi var idi. Səbəb isə bundan ibarət idi ki, o özü də bir vaxtlar sığınacağa və ya o zaman psixi xəstəxana kimi tanınan müəssisəyə yerləşdirilmişdi. Və bu bir dəfə yox, düz üç dəfə – 1965, 1966 və 1967-ci illərdə baş vermişdi. Həmin yer Rio de Janeyroda yerləşən Dr. Eiras Sanatoriyası idi.

Xəstəxanaya yerləşdirilməsinin səbəbi bu günə qədər ona qəribə gəlirdi. Ola bilər ki, onun hərəkətləri valideynlərini çaşdırırdı. Belə ki, yarıutancaq, yarıekstrovert olan Paulo incəsənət ustası olmaq istəyirdi və bu da onun ailəsində cəmiyyətdən kənar düşməyə və ya səfalət içərisində ölməyə aparan ən qısa yol hesab olunurdu.

Paulo Koelyo hər dəfə bu haqda düşünəndə – qeyd olunmalıdır ki, bu çox nadir hallarda baş verirdi – onu həmin xəstəxanaya tutarsız səbəblə qəbul edən həkimin əsl dəli olduğu qənaətinə gəlirdi. Belə ki, hər bir ailədə günah həmişə


e-kitab.org

başqalarında axtarılır və valideynlər sonradan israr edirlər ki, hansısa qərarı qəti şəkildə qəbul etdikləri zaman nə düşündüklərini bilmirdilər.

Paulo Veronikanın tanınmış fransız jurnalının Sloveniyanın harada olduğunu bilməməsi ilə bağlı qəzetlərə yazdığı şikayət məktubu haqqında eşidəndə, onu gülmək tutdu.

– Heç kim bu səbəbə görə özünə qəsd etməz, – Koelyo dedi.

– Elə ona görə də məktubun heç bir effekti olmayıb, – dostu Veronika utancaq şəkildə fikrini bildirdi. – Dünən mən otelə çatanda, otel işçisindən Sloveniyanın harada olduğunu soruşdum və o, Sloveniyanın Almaniyada bir şəhər olduğunu zənn etdiyini dedi.

Bu hiss Koelyoya tanış idi. Çünki xaricilərin çoxu Argentina şəhərlərindən biri olan Buenos Ayresi onun doğma vətəni olan Braziliyanın paytaxtı hesab edirdilər. Ölkəsinin paytaxt şəhərinin (əslində qonşu Argentinada yerləşirdi) gözəlliyinə tərif yağdıran əcnəbilərdən əlavə Paulo Koelyo ilə Veronikanı bir az əvvəl qeyd edilən, lakin bir daha deyilməsi gərəkən bir xüsusiyyət də birləşdirirdi: Koelyo da psixi xəstəxanaya yerləşdirilmişdi və birinci arvadının fikrincə, "oradan kənara gərək heç vaxt buraxılmayaydı".

Lakin Koelyo xəstəxanadan çıxmağa nail olmuşdu. Son dəfə sanatoriyadan çıxanda bir daha heç vaxt oraya geri


e-kitab.org

dönməyəcəyini qətiyyətlə qərara almış və özünə iki şey etməyi söz vermişdi: a) bir gün bu mövzu barədə mütləq yazacaq və b) yalnız valideynləri dünyadan köçdükdən sonra bu məsələni ictimaiyyətə çıxaracaqdı. Koelyo onların qəlbini qırmaq istəmirdi, ona görə ki, valideynləri onsuz da ömürlərinin çox illərini Koelyoya etdiklərinə görə özlərini təqsirləndirməyə və peşmançılıq hissləri keçirməyə sərf etmişdilər.

Anası 1993-cü ildə dünyadan köçmüşdü. Atası isə uzun müddət ağciyər xəstəliyindən əziyyət çəkməsinə (ömründə bircə dəfə belə siqaret çəkməsə də) və onun qəribəliklərindən baş aça bilən aşpaz tapa bilmədiyi üçün əvvəlcədən hazırlanıb dondurulmuş yeməklər yeməklə dolanmasına baxmayaraq, 1997-ci ildə 84 yaşına keçmişdi və hələ də sağ və sağlam, ağlı da tamamən yerində idi.

Beləliklə, Koelyo Veronikanın həyat hekayəsini eşitdikdə, öz vədlərinə sadiq qalmaqla, bu məsələ barədə söhbət açmağın yolunu tapdı. Düzdür, özü heç vaxt intihar etmək barəsində düşünməmişdi, lakin psixi xəstəxanalarda hökm sürən atmosferə – müalicələrə, həkimlərlə xəstələr arasındakı münasibətlərə, o cür yerlərdə yaşamağın gətirdiyi narahatlıq və iztirablara dərindən bələd idi.

İndi isə gəlin, Paulo Koelyo və dostu Veronikaya əlvida deyib, hekayəmizə qaldığımız yerdən davam edək.


e-kitab.org

# 4

* * *

Veronika nə qədər yatdığının fərqinə varmadı. Bir ara oyanıb, hələ də ağız-burnunda həyatını qoruyan borucuqların olduğunu və səs eşitdiyini xatırladı.

– Sənə toxunmağımı istəyirsən? – kimsə soruşdu.

Oyanıb otağa göz gəzdirdikdə, eşitdiyinin real və ya xəyal olduğunu yəqin edə bilmədi. Bircə o xatirədən başqa, tamamilə heç nəyi yadına sala bilmədi.

Borucuqlar üstündən götürülmüş, amma hələ də bədəninin hər bir yerinə iynə keçirilmiş, ürək və başına yaxın hissələrdə tellər yerləşdirilmiş və qolları kəmərlə yatağa bağlanmışdı. Birdən Veronika yalnız döşəkağı ilə örtülmüş çılpaq bədənində soyuq hiss etdi, lakin şikayət etməmək qərarına gəldi. Uzandığı kiçik reanimasiya palatası yaşıl pərdə ilə əhatəyə alınmışdı, çarpayı və tibb bacısının oturduğu ağ rəngli kreslodan ibarət idi.

Budəfəki qadının tünd rəngli gözləri və qəhvəyi saçları var idi. Lakin Veronika saatlarla – bəlkə də günlərlə – danışdığı insanın həmin qadın olduğundan əmin deyildi.

– Qollarımı aça bilərsən?

Tibb bacısı başını qaldırıb ona baxdı, sərt şəkildə “yox” deyib kitabını oxumağa davam etdi.

“Mən sağ qalmışam, – Veronika



e-kitab.org

öz-özünə düşündü. – Bəli, indi hər şey yenidən başlayacaq. Bir müddət burada qaldıqdan sonra onlar başa düşəcəklər ki, mən tamamilə normal insanam. Məni buradan buraxacaqlar və mən Lyublyananı, onun əsas meydanını, körpülərini, işə gedib-gələn insanlarını yenidən görəcəyəm.

İnsanlar özlərinin başqalarından daha yaxşı olduqlarını hiss etmək üçün həmişə digərlərinə kömək edirlər deyə, kitabxanadakı köhnə işimi mənə qaytaracaqlar. Vaxt gələcək və mən yenə də həminki barlara və gecə klublarına getməyə başlayacaq, dostlarımla dünyadakı ədalətsizliklər və problemlər barədə söhbət edəcək, kinoteatrlara gedəcək, göl ətrafında gəzişəcəyəm.

Sadəcə, yuxu dərmanı qəbul etdiyim üçün bədənim yəqin ki, tanınmaz hala düşməyib. Mən hələ də gənc, gözəl, ağıllıyam və sevgililərimin sayı həmişəki kimi heç vaxt qıt olmayacaq. Onların evində və ya meşədə biz məhəbbətlə məşğul olacağıq, mən bir qədər həzz aldıqdan sonra orqazma çatacam və sonra boşluq hissi yenə də əvvəlki yerinə qayıdacaq. Danışmağa söhbət olmayacaq və hər ikimiz bunu anlayacağıq. Getmək üçün “Gecdir” və ya “Səhər tezdən oyanmalıyam” kimi bəhanələr gətirib, bir-birimizin gözlərinə baxmadan, tez bir zamanda sağollaşmağa tələsəcəyik.

Mən monastırda kirayədə qaldığım



e-kitab.org

otağa gedəcəyəm. Kitab oxumağa çalışacaq, daha sonra televizorda köhnə proqramlara baxacaq, saatı dünənki vaxtda oyanmaq üçün quracaq və səhərisi gün təkrarən, mexaniki olaraq, kitabxanadakı işlərimi yerinə yetirəcəm. Nahar vaxtı kinoteatrla üzbəüz yerləşən parkda, həmişə oturduğum skamyada oturub, buterbrod yeyəcəyəm. Mənlə bərabər həmişə eyni skamyalarda oturmağı üstün tutan və özlərini mühüm məsələlər barədə düşünür kimi göstərən, lakin əslində gözlərindən boşluq yağan insanlar da nahar edəcəklər.

Sonra işə geri qayıdacaq, kimin kimlə gəzdiyi, kimin hansı xəstəlikdən əziyyət çəkdiyi, kiminsə də əri üçün ağlayıb göz yaşı tökməsi barədə dedi-qodular dinləyəcək və bütün bunları eşitdikdə özümün digərlərindən üstün olduğumu hiss edəcəyəm. Çünki axı mən gözələm, işim var, özümə istədiyim sevgilini seçmək şansım var. İş gününün sonunda isə barlara gedəcəyəm və beləcə hər şey yenidən başlayacaq.

Mənim intihar cəhdimə görə az qala ağlını itirmiş anam xəbərin sarsıntısından yenicə özünə gəlmiş olacaq, həyatımla nə edəcəyimi, niyə görə hamı kimi olmadığımı hər gün sorğu-suala tutacaq və həyatın əslində düşündüyüm qədər mürəkkəb olmadığını xatırladıb deyəcək: “Məsələn, mənə bax, atanla artıq neçə illərdir ki, evliyəm, sənə mümkün olan ən yaxşı tərbiyəni vermişəm və sənin üçün mümkün


e-kitab.org

qədər yaxşı nümunə olmağa çalışmışam".

Bir gün anamın daima eyni şeyləri təkrarən deməsindən bezəcək və onu razı salmaq üçün birinə ərə gedib, onu sevməyə özümü məcbur edəcəyəm. Həyat yoldaşımla birgə gələcək qurmaq üçün bir yol tapacağıq: kənddə bir evimiz, övladlarımız olacaq və biz onların gələcəyi barədə planlar quracağıq. Evliliyimizin birinci ilində tez-tez məhəbbətlə məşğul olacağıq, ikinci ilində bunun sayı nisbətən azalacaq. Üçüncü ildən sonra isə insanlar, yəqin ki, seks haqqında iki həftədən bir düşünür və bu fikri yalnız ayda bir dəfə həyata keçirirlər. Ən pisi isə bu olacaq ki, biz nadir hallarda söhbət edəcəyik. Mən vəziyyəti qəbul etməyə məcbur olacağam, sonra mənə nə olduğu barədə düşünəcəyəm, çünki yoldaşım artıq mənə qarşı maraq göstərməyəcək, məni saymayacaq və mənə dostlarından sanki onlar onun əsl həyatıdır kimi danışacaq.

Evliliyimizin dağılması ərəfəsində mən hamilə qalacağam. Övladımız dünyaya gələcək və yoldaşımla bir müddət bir-birimizə yaxın olacağıq, sonra isə vəziyyət yenə də əvvəlki yerinə qayıdacaq.

Dünən və ya bəlkə də bir neçə gün bundan qabaq – tibb bacısının haqqında danışdığı xalası kimi mənim də çəkim artacaq. Mən pəhriz saxlamağa başlayacağam və hər gün, hər həftə davamlı olaraq məğlubiyyətə düçar olacağam. Nə qədər nəzarət altında saxlasam belə, çəkim getdikcə artmağa davam edəcək. Belə olan


e-kitab.org

halda depressiyaya düşməyin qarşısını alan möcüzəvi dərmanlar qəbul edəcəyəm. Daha sonra məhəbbətlə məşğul olarkən sürətlə keçən gecələr zamanı bizim bir neçə övladımız dünyaya gələcək. Hamıya yaşamaq səbəbimin övladlarım olduğunu deyəcəyəm, amma əslində mənim həyatım onların yaşamaq səbəbi olacaq.

Ətrafımızdakılar bizi xoşbəxt cütlük hesab edəcəklər, lakin heç kəs xoşbəxtlik fasadının altında nə qədər tənhalıq, kin-küdurət və vəziyyətlə barışıq hissinin olduğunu bilməyəcək.

Bu görüntü yoldaşım özünə yeni sevgili tapanadək çəkəcək və mən tibb bacısının xalası kimi hay-küy qaldıracaq və ya yenə də intihar etmək barədə düşünməyə başlayacağam. O zaman artıq mən yaşlanmış və qorxaq olacağam, köməyimə ehtiyacı olan iki və ya üç övladım olacaq və mən hər şeyi tərk edib getməzdən əvvəl, onlara bu dünyada özlərinə yer tapmaqda yardım etməyə məcbur olacağam. Yox, intihar etməyəcəyəm; əvəzində hay-küy salıb, yoldaşımı onu tərk etmək və uşaqları da özümlə aparmaqla hədələyəcəm. Bütün kişilər kimi, o da geri çəkiləcək, məni sevdiyini deyəcək və bunun bir daha baş verməyəcəyinə dair and içəcək. Amma o heç bilməyəcək ki, mən onu həqiqətən tərk etsəydim belə, gedəcək yerim yalnız valideynlərimin evi olacaqdı. Ömrümün sonunadək orada qalıb, hər gün xoşbəxt olmaq üçün yeganə şansımı əldən


e-kitab.org

verməyim, ərimin bir neçə təqsiri olsa da, əslində çox gözəl həyat yoldaşı olduğu və uşaqlarımın bu ayrılığa görə bir ömür boyu sarsıntıya məruz qalacaqları barədə anaının danışıqlarını dinləməyə məcbur olacaqdım.

İki və ya üç ildən sonra ərimin həyatında yeni bir qadın peyda olacaq. Mən bu haqda necəsə öyrənəcəyəm (ya onları birlikdə görəcəm, ya da kimsə mənə deyəcək), lakin bu dəfə bundan xəbərsiz kimi davranacağam. O biri sevgilisi üstündə bütün enerjiıni sərf etmişdim, indi artıq o enerjim qalmayacaq; həyatı xəyal etdiyim kimi yox, olduğu kimi qəbul etmək daha yaxşıdır. Anaının haqlı olduğunu düşünəcəyəm.

Yoldaşım qayğıkeş olmaqda, mən də kitabxanada işləməkdə davam edəcəm, kinoteatrla üzbəüz parkda buterbrod yeyəcək, heç vaxt bitirə bilmədiyim kitabları oxuyacaq, on, iyirmi, əlli il sonra belə dəyişməyəcək televiziya verilişlərinə baxacağam.

Ancaq bu dəfə buterbrod yeyərkən özümü kökəldiyimə görə günahkar hiss edəcəyəm. Barlara daha getməyəcəm, çünki məndən evə gəlib uşaqlara baxmağı gözləyən yoldaşım olacaq.

Bütün bunlardan sonra qalan yeganə məsələ uşaqların böyüməsi və intihar etmək barədə bütün günü düşünmək olacaq, lakin bunu etmək üçün cəsarətimin çatmadığını anlayacağam. Və günlərin birində belə nəticəyə gələcəyəm ki, həyat belədir:


e-kitab.org

narahat olmağa dəyməz, onsuz da heç bir şey dəyişməyəcək. Və mən də bunları qəbul edəcəyəm".

Veronika daxili monoloqunu sona çatdırıb, Viletdən evə sağ getməyəcəyinə dair özünə söz verdi. Hər şeyə elə indicə, ölümdən qorxmaz və sağlam olarkən son qoymaq lazım idi.

Bir neçə dəfə yuxuya gedib oyandı. Getdikcə ətrafındakı aparatların azaldığını, bədəninin hərarətinin artdığını, tibb bacılarının sifətlərinin dəyişdiyini, lakin yanında həmişə kiminsə olduğunu hiss edirdi. Yaşıl pərdənin arasından ağlaşma, inilti və ya sakit və texniki tonda pıçıltı səsləri eşidilirdi. Arabir, uzaqda hansısa bir aparat vızıldayan kimi, Veronika dəhliz boyunca tələsik qaçan ayaq səsləri eşidirdi. Sonra səslər öz sakit, texniki tonunu itirir, sərt və sərəncam verən səslərlə əvəz olunurdu.

Oyaq olduğu dəqiqələrin birində bir tibb bacısı ondan soruşdu:

– Bəs necə olduğunu bilmək istəmirsən?

– Necə olduğumu artıq bilirəm, – Veronika cavab verdi. – Və bunun zahirən bədənimdə nə baş verməsilə heç bir əlaqəsi yoxdur; əsas olan daxili aləmimdə baş verənlərdir.

Tibb bacısı söhbəti davam etdirmək istədi, lakin Veronika özünü yuxululuğa vurdu.


e-kitab.org

# 5

* * *

Veronika yenidən gözlərini açdıqda yerinin dəyişdirildiyini gördü; bu dəfə böyük bir palataya köçürülmüşdü. Qoluna qoşulmuş venadaxili damcı hələ də dururdu, digər tellər və iynələr isə artıq götürülmüşdü.

Saç və saqqalı qara rəngə boyanmış, ənənəvi ağ xalat geyinmiş uca boylu bir həkim Veronikanın uzandığı çarpayının ayağında dayanmışdı. Onun yanında duran cavan həkim əlində tutduğu lövhəcikdə nəsə qeydlər aparırdı.

– Mən nə qədər vaxtdır buradayam? – sözləri qeyri-dəqiq şəkildə tələffüz edən Veronika çətinliklə danışdığını hiss edərək soruşdu.

– Reanimasiyada beş gün yatdıqdan sonra iki həftədir ki, bu palataya köçürülmüsünüz, – nisbətən yaşlı həkim cavab verdi. – Hələ də burada olduğunuza şükür edin.

Həkimin sonuncu sözləri, sanki faktlara uyğunlaşmır kimi, cavan həkimi təəccübləndirdi. Veronika da onun bu reaksiyasını dərhal hiss etdi və bu onun instinktlərinin oyanmasına səbəb oldu. Burada düşündüyündən də çox olmuşdur? Onu hansısa bir təhlükəmi gözləyirdi? Veronika bu iki həkimin hər bir jestinə, hər hərəkətinə diqqətlə fikir verməyə başladı. O, başa düşürdü ki, özü barədə həkimlərə sual


e-kitab.org

verməyin heç bir mənası yoxdur, çünki onlar onsuz da həqiqəti deməyəcəklər. Amma əgər o tədbirli olsa, nə baş verdiyini təxmin edə bilərdi.

– Mənə adınızı, yaşadığınız ünvanı, ailə vəziyyətinizi və doğulduğunuz tarixi deyin, – yaşlı həkim dedi.

Veronika adını, ailə vəziyyətini və doğulduğu tarixi deyə bilsə də, yaddaşında bəzi boşluqların olduğunu hiss etdi: yaşadığı ünvanı heç cürə xatırlaya bilmədi.

Həkim onun gözlərinə işıq tutaraq, uzun müddət sakitcə müayinə etdi. Cavan həkim də eyni şeyi təkrarladı. Sonra onlar heç bir məna ifadə etməyən nəzərlərlə bir-birlərinə baxdılar.

– Gecə növbəsində olan tibb bacısına daxili aləminizi görə bilməməyimizlə bağlı nəsə demisiniz? – cavan həkim soruşdu.

Veronika heç nə xatırlaya bilmədi. Kim olduğunu və orada nə etdiyini müəyyənləşdirməkdə çətinlik çəkirdi.

– Sakitləşdiricilər və süni induksiya vasitəsilə yatızdırılmışdınız və bu sizin yaddaşınıza bir qədər təsir edə bilər, amma xahiş edirik, bacardıqca bütün suallarımıza cavab verməyə cəhd edin.

Beləliklə, həkimlər gülünc sorğu-suala başladılar. Onlar Lyublyananın əsas qəzetlərinin baş direktorlarının adlarını, baş meydanda heykəli ucaldılmış şairin kim olduğunu (ah, Veronika onu heç vaxt unuda bilməzdi, axı Preserenin surəti hər bir sloveniyalının qəlbində həkk olunub),


e-kitab.org

anasının saçlarının nə rəngdə olduğunu, iş yoldaşlarının adlarını, kitabxanada ən məşhur kitabların titullarını soruşdular.

Əvvəlcə Veronika suallara cavab vermək istəmədi, belə ki, yaddaşı hələ də qarışıq vəziyyətdə idi. Lakin sorğu-sual davam etdikcə, o, unutduqlarını bərpa etməyə başlayırdı. Bir an psixi xəstəxanada olduğunu və psixi xəstələrin rabitəli danışmaq məcburiyyətində olmadıqlarını xatırladı. Lakin öz xeyri üçün, həkimlərdən daha çox məlumat toplamaqdan ötrü onları yanında saxlamaq üçün suallara cavab verməyə səy göstərdi. Adları və faktları sadaladıqca təkcə yaddaşını deyil, həm də öz kimliyini, istəklərini və həyata baxışını bərpa edirdi.

– Yaxşı, – sorğunun sonunda yaşlı həkim dedi.

– Burada nə vaxtacan qalmalıyam?

Bu zaman, elə bil hər şey havadan asılıbmış kimi, cavan həkim gözlərini aşağı dikdi: sanki suala cavab verən an Veronikanın həyatında tamamilə yeni bir səhifə yazılacaqdı və bunu heç kim dəyişə bilməyəcəkdi.

– Ona cavab verə bilərsiniz, – deyə yaşlı həkim göstəriş verdi. – Xəstələrin çoxu artıq şayiələri eşidiblər və bir gün onsuz da o özü bu barədə öyrənəcək; buralarda sirr saxlamaq qeyri-mümkündür.

– Vəziyyət budur ki, siz öz taleyinizi özünüz həll etmişdiniz, – cavan həkim dərindən ah çəkib, hər bir sözü ölçüb-


e-kitab.org

biçərək danışmağa başladı. – Buna görə də yəqin ki, hərəkətlərinizin nə ilə nəticələnəcəyini yaxşı bilirdiniz. Qəbul etdiyiniz dərmanlar üzündən komaya düşdüyünüz zaman ürəyiniz bərpaolunmaz dərəcədə zərər çəkmişdir. Nəticədə, ürəyinizin hər iki mədəciyi öz funksiyasını itirmişdir.

– Sadə dildə izah edin, – yaşlı həkim təklif etdi. – Birbaşa mətləbə keçin.

– Ürəyinizə bərpaolunmaz dərəcədə zərər dəymişdir və tezliklə o, birdəfəlik dayanacaqdır, – cavan həkim sözünü bitirdi.

– Başa düşmədim, – Veronika ürkək halda soruşdu.

– Ürək döyüntünüzün dayanması yalnız bir şey deməkdir: ölüm. Dini inanclarınızın nə olduğunu bilmirəm, amma...

– Ürəyim nə zaman dayanacaq? – Veronika həkimin sözünü kəsərək soruşdu.

– Beş gün, ən uzağı bir həftə ərzində.

Veronika həkimin peşəkar görünüşü və tərzi, narahat görünən davranışı arxasında əslində dediklərindən daxilən həzz aldığını hiss etdi; sanki o bu cəzaya layiq idi və onun aqibəti hamıya bir nümunə olacaqdı.

Veronika həyatı boyu tanıdıqları ilə ünsiyyəti zamanı fikir vermişdi ki, insanlar başqalarının həyatlarında baş verən dəhşətlər haqqında sanki onlara səmimi qəlbdən yardım etmək istəyirlərmiş kimi danışırlar. Amma əslində həqiqət bu idi ki,


e-kitab.org

onlar digərlərinin acı çəkmələrindən zövq alırlar, çünki elə hesab edirlər ki, əzab çəkənlərə nisbətdə onlar xoşbəxtdirlər və həyat onlara qarşı daha mərhəmətli davranmışdır. O bu cür düşünən insanlara nifrət edirdi. Ona görə də cavan həkimə onun vəziyyətindən istifadə edib, öz çatışmazlıqlarına sipər çəkməsinə imkan verməyəcəkdi.

Veronika nəzərlərini həkimin gözlərinə dikib, gülümsəyərək dedi:

– Deməli, mən qalib gəldim.

– Bəli, – deyə cavab gəldi. Lakin faciəvi xəbəri verərkən aldığı zövq hissi indi həkimin üzündən tamamilə yox olmuşdu.



e-kitab.org

# 6

* * *

Gecə düşəndə Veronika qorxmağa başladı. Bir neçə yuxu dərmanı qəbul edib, tezliklə ölmək bir şey idi, bu qədər olanlardan sonra günlərlə və ya bir həftə boyu ölümü gözləmək tamamilə başqa şey idi.

Bütün ömrünü nəyisə gözləməklə keçirmişdi: atasının işdən evə qayıtmasını, sevgilisindən heç vaxt gəlməyən məktubu, yekun imtahanları, qatarın, avtobusun gəlməsini, telefon zəngini, tətili, tətillərin bitməsini. Bu dəfə isə onunla görüşməyə vaxt təyin etmiş ölümü gözləməli olacaqdı.

"Bu ancaq mənim başıma gələ bilərdi. İnsanlar adətən məhz gözləmədikləri gündə ölürlər".

O, buradan necəsə çıxıb dərman tapmalı idi. Əgər bu alınmasaydı və yeganə çıxış yolu Lyublyananın hündür binasından tullanmaq olacaqdısa, onu edəcəkdi. Valideynlərini lazımsız yerə əzab çəkməkdən xilas etməyə cəhd göstərmişdi, amma bu dəfə başqa çıxış yolu qalmayacaqdı.

Ətrafına göz gəzdirdi. Bütün çarpayıları yatan insanlar tutmuşdu və bəziləri hətta ucadan xoruldayırdı. Pəncərələrə barmaqlıqlar vurulmuşdu.

Palatanın axırında kiçik parlaq işıq yanaraq hər yeri qəribə kölgələrə bürümüşdü. Bu, o demək idi ki, palata daimi


e-kitab.org

nəzarət altında saxlanıla bilərdi. İşıq yanan tərəfdə bir qadın kitab oxuyurdu.

“Bu tibb bacıları gərək ki, çox yüksək mədəniyyətə sahibdirlər; bütün həyatlarını oxumaqla keçirirlər”.

Veronikanın çarpayısı qapıdan ən uzaqda olanı idi; onunla qadın arasında təqribən iyirmi çarpayı vardı. Çətinliklə ayağa qalxdı, çünki əgər həkimin dediklərinə inansaydı, demək olar ki, üç həftə ərzində gəzməmişdi. Tibb bacısı başını qaldırıb gördü ki, qolundakı venadaxili damlanı özü ilə dartan Veronika ona tərəf yaxınlaşır.

– Ayaqyoluna getmək istəyirəm, – dəli qadınları oyatmamaq üçün Veronika pıçıldadı.

Qadın qeyri-aydın şəkildə qapını göstərdi. Veronika sürətlə düşünməyə çalışır, qaçıb xilas olmaq üçün bir yol, dəlik-deşik axtarırdı.

“Nə qədər ki mənim hələ zəif olduğumu və qaçmaq iqtidarında olmadığımı sanırlar, cəld bir şey etməliyəm”.

Qadın gözlərini qıyıb, onu nəzərdən keçirdi. Tualet qapısız kabinədən ibarət idi. Veronikanın oradan qaçmaq üçün tək yolu qadından açarı zorla almaq idi. Lakin bunu etməyə taqəti yox idi.

– Bura həbsxanadır? – Veronika kitab oxumağı saxlayıb onun bütün hərəkətlərini izləyən tibb bacısından soruşdu.

– Yox, bura psixi xəstəxanadır.

– Bəs axı mən dəli deyiləm.



e-kitab.org

Qadın qəhqəhə çəkib güldü:

– Buradakıların hamısı elə düşünür.

– Yaxşı, deyək ki, mən dəliyəm. Bəs bu nə anlama gəlir?

Qadın Veronikaya ayaq üstə çox qalmamağı tövsiyə edib, onu yatmağa göndərdi.

– Axı dəli olmaq nə deməkdir? –Veronika israrla soruşdu.

– Onu sabah həkimdən soruşarsan. İndi isə, get yat. Yoxsa istəsən də, istəməsən də, sakitləşdirici verib səni yatızdırmalı olacağam.

Veronika itaətlə yerinə qayıtdı. Və bu zaman çarpayıların birindən pıçıltı səsi eşidildi:

– Doğrudan bilmirsən dəli olmaq nə deməkdir?

Veronika bir anlıq əhəmiyyət verınəməyə çalışdı: kimləsə dost olmaq, əhatə dairəsi yaratmaq və kütləvi qiyam etmək üçün tərəfdaşlar tapmaq fikri yox idi. Onun yalnız bir niyyəti vardı, bu da ölmək idi. Əgər oradan qaçıb canını qurtara bilməsəydi, onda tez bir zamanda, elə oradaca özünü öldürməyin bir yolunu tapacaqdı.

Veronikanın tibb bacısına verdiyi sualı qadın bir də ona verdi.

– Doğrudanını bilmirsən dəli olmaq nədir?

– Sən kimsən?

– Mənim adım Zedkadır. Yerinə qayıt. Tibb bacısı sənin yatdığını görən kimi



e-kitab.org

sakitcə sürünüb buraya gələrsən.

Veronika yerinə qayıdıb tibb bacısının kitab oxumağa davam etməsini gözlədi. Dəliliyin nə demək olduğu haqda bir daha düşündü. Amma ağlına heç bir şey gəlmədi, çünki söz tamamilə anarxist şəkildə istifadə olunurdu. Məsələn, insanlar bəzən deyirlər, filan idmançılar dəli olublar, çünki onlar rekord qırmaq istəyirlər. Və ya incəsənət ustaları dəlidirlər, çünki onlar qəribə, təminatsız şəkildə və normal insanlardan fərqli həyat sürürlər. Başqa bir misal: Veronika Lyublyananın küçələrində bir neçə dəfə qışın ortasında supermarket arabalarını plastik torbalarla və cır-cındırla doldurub ətrafa sürükləyən və dünyanın sona çatdığını aləmə car çəkən nazik paltar geyinmiş insanlar görmüşdü.

Gözlərinə yuxu getmədi. Həkimin dediklərinə görə, o bir həftə yatmışdı. Bu da böyük emosiyalarla yaşamağa deyil, dəyişməz cədvəllərə əsasən istirahət etməyə öyrəşmiş adam üçün çox uzun bir müddət idi.

"Dəli olmaq nə deməkdir? Bəlkə psixi xəstələrin birindən soruşsun?"

Veronika aşağı əyilib, qolundan iynəni çıxartdı və ürəkbulanmasına əhəmiyyət vermədən Zedkanın çarpayısına doğru irəlilədi. Ürəkbulanmasının – ürəyinin zəifliyindənmi, yoxsa hərəkət etməyə cəhd etməsindənmi irəli gəldiyini ayırd edə bilmədi.

– Dəliliyin nə demək olduğunu başa


e-kitab.org

düşə bilmirəm, – Veronika pıçıldadı. – Amma onu bilirəm ki, mən dəli deyiləm. Mən, sadəcə, intihar cəhdi boşa çıxmış biriyəm.

– Öz aləmində yaşayan hər bir kəs dəlidir. Şizofrenik, psixopat və ya manyaklar kimi. Yəni digər insanlardan fərqli olanları nəzərdə tuturam.

– Sənin kimi?

Zedka onun sualını qulaqardına vurub, sözünə davam etdi:

– Digər tərəfdən də Eynşteyn demişdir ki, zaman və məkan anlayışları ayrılıqda yoxdur, onlar yalnız birlikdə mövcuddurlar. Və ya Kolumb israr edirdi ki, dünyanın o başında boşluq yox, bütöv bir materik vardır. Və ya Edmund Hillarini götürək: o inanırdı ki, insan Everest dağlarının zirvəsini fəth edə bilər. Və yaxud Bitlz qrupuna baxaq: onlar tamamilə fərqli bir janrda musiqi yaradıb, fərqli dövrdən olan insanlar kimi geyinirdilər. Bu insanların hamısı – onlar kimi minlərlə digər insanlar – öz aləmlərində yaşayırdılar.

Veronika bu dəli qadının maraqlı şeylərdən danışdığını düşündü. O anda İsa peyğəmbər və Müqəddəs Məryəmlə danışdıqlarına and içən müqəddəs adamlar barədə anasının söylədiyi hekayələr yadına düşdü. "Onlardamı ayrı aləmdə yaşayırdılar?"

– Bir dəfə mən çöldə qısa don geyinmiş bir qadın görmüşdüm. Onun dalğın baxışları var idi və mənfi beş dərəcə soyuqda


e-kitab.org

Lyublyananın küçələrini gəzirdi. Sərxoş olduğunu düşünüb, yardım etmək üçün ona yaxınlaşdım və pencəyimi ona təklif etdim. Lakin o, imtina etdi. Bəlkə də onun aləmində yay fəsli idi və bədənini onu gözləyən insanın arzusu qızdırırdı. Həmin insan ancaq o qadının xəyallarında mövcud idisə də, istədiyi kimi yaşamağa və ölməyə onun haqqı vardı, elə deyilmi?

Veronika nə deyəcəyini bilmədi, amma qadının sözlərində həqiqət olduğunu fikirləşdi. Kim bilir, bəlkə Lyublyananın küçələrində yarıçılpaq gəzən qadın elə onun özü idi?

– Sənə bir nağıl danışacağam, – Zedka sözünə davam etdi. – Bütöv bir krallığı məhv etmək istəyən qüdrətli bir cadugər varmış. Bir gün o, bütün ölkə əhalisinin istifadə etdiyi su quyusuna zəhər tökür və nəticədə, həmin quyudan su içən hər kəs ağlını itirir. Beləliklə, kral və onun ailəsindən başqa, hamı həmin quyudan su içib, dəli olur. Kral ailəsinin ayrıca quyusu olduğu üçün cadugər o quyunu zəhərləyə bilməmişdi. Bu zaman kral narahat olmağa başlayır və əhalini idarə etmək üçün onların sağlamlıq və təhlükəsizliyini təmin edən bir neçə fərman verir. Polis işçiləri və müfəttişlər də zəhərli quyudan su içmişdilər deyə, kralın verdiyi qərarları cəfəng hesab edib, onlara əhəmiyyət verməmək qərarına gəlirlər. Ölkə əhalisi kralın verdiyi əmrlər barədə eşitdikdə, kralın dəli olduğunu hesab edib, onun boş-


e-kitab.org

mənasız qərarlar verdiyinə inanırlar. Daha sonra onlar krallığın yerləşdiyi qalaya yürüş edib, kralın istefa verməsini tələb edirlər. Çarəsiz qalmış kral taxtından düşməyə hazırlaşarkən, kraliça onu saxlayıb deyir: – “Gəl, gedib həmin zəhərli quyudan su içək. O zaman biz də hamı kimi olacağıq”.

Və onlar belə də edirlər. Kral və kraliça zəhərli quyudan su içib, həmin dəqiqə hamı kimi cəfəngiyat danışmağa başlayırlar. Elə bu zaman, əhali tövbə edib əfv olunmalarını diləyirlər. “İndi ki kral bu cür müdriklik nümayiş etdirir, niyə də onun ölkəni idarə etməsinə icazə verməsinlər”, – deyə düşünürlər.

Beləcə, ölkə sülh içində yaşamağa davam edir, baxmayaraq ki, davranışlarında onlar öz qonşularından çox fərqlənirlər. Kral da ömrünün sonunadək ölkəni idarə etməyə nail olur.

Veronika gülərək dedi:

– Sən heç də dəliyə oxşamırsan.

– Amma xəstəyəm; orqanizmimdə hansısa xüsusi bir kimyəvi maddə çatışmadığı üşün müalicə olunuram. Bu kimyəvi maddənin xroniki depressiyadan azad olmağıma təsir edəcəyinə ümidliyəm. Lakin sağaldıqdan sonra çılğın olmağa, həyatımı başqalarının istədiyi kimi yox, istədiyim kimi yaşamağa davam etmək istəyirəm. Vilet divarlarından kənarda nələrin mövcud olduğunu bilirsən?

– Eyni quyudan su içmiş insanlar.

– Tamamilə doğrudur, – Zedka cavab


e-kitab.org

verdi. – Onların hamısı elə eyni şeyi edirlər deyə, normal olduqlarını sanırlar. Özümü elə aparacağam, guya mən də onların içdiyi quyudan su içmişəm.

– Mən artıq elə etmişəm və mənim problemim də budur. Heç vaxt depressiyaya düşməmişəm, heç vaxt uzun sürən böyük sevinc və ya kədər hissi keçirməmişəm. Məndə hamıda olan problemlər var.

Zedka bir müddət heç nə demədi, sonra davam etdi:

– Bizə dedilər ki, sən öləcəksən.

Veronika bir an cavab verməyə tərəddüd etdi. O bu qadına etibar edə bilərdimi? Risk etməli idi.

– Elədir, təqribən beş, ya altı gün ərzində. Maraqlıdır, görəsən, ondan daha tez ölməyin yolu varını? Sən və ya başqa kimsə mənimçün bir az daha dərman tapa bilsəniz, əminəm ki, bu dəfə artıq ürəyim tab gətirməyəcək. Ölümü gözləməyin necə dəhşətli bir şey olduğunu yəqin ki, başa düşürsən; sən mənə kömək etməlisən.

Zedka cavab verməyə macal tapmamış, tibb bacısı əlində şpris ilə peyda oldu.

– Sənə bu şprisi özüm vura və ya sənin buna münasibətindən asılı olaraq, çöldəki keşikçiləri köməyə çağıra bilərəm.

– Enerjini boş yerə sərf etmə, – Zedka Veronikaya dedi. – Məndən istədiyini əldə etmək istəyirsənsə, enerjinə qənaət elə.

Veronika ayağa qalxıb, yerinə getdi və tibb bacısına işini görməyə imkan verdi.



e-kitab.org

# 7

* * *

Bu gün psixi xəstəxanada keçirdiyi ilk normal gün idi. Palatadan çıxıb, qadın və kişilərin birlikdə yemək yediyi böyük yeməkxanada nahar etdi. Buranın, adətən kinolarda təsvir olunduğundan necə fərqli bir yer olduğu nəzərinə çarpdı; isterik səhnələr, qışqırıqlar, ağılsız hərəkət edən adamlardan əsər-əlamət yox idi. Hər şey əzici sükuta bürünmüş auraya malik idi və hər kəs daxili aləmini yad insanlarla bölüşmək istəmirmiş kimi görünürdü.

Nahardan sonra (heç də pis keçmədi; heç kim Viletin pis reputasiyasının səbəbini onun yeməklərində görə bilməzdi) onların hamısı günəş qəbul etmək üçün çölə çıxdılar. Əslində hava günəşli deyildi – temperatur sıfır dərəcədən aşağı düşmüş, bağça qarla örtülmüşdü.

– Mən həyatımı qorumaq üçün deyil, itirmək üçün buradayam, – Veronika tibb bacısına söylədi.

– Fərqi yoxdur, çölə çıxıb gün qəbul etmək məcburiyyətindəsiniz.

– Dəli olan sizsiniz, çöldə axı günəş yoxdur.

– Gün işığı var və işıq xəstələri sakitləşdirməyə kömək edir.

Mübahisə etməyin faydası yox idi; o, çölə çıxıb, bir az gəzişdi, ətrafına göz gəzdirib, qaçmaq üçün xəlvətcə yol axtarmağa başladı.


e-kitab.org

Divar köhnə tipli kazarmalara uyğun olaraq hündür idi, lakin keşikçilər üçün nəzərdə tutulmuş qüllələr boş qalmışdı. Bağça ordu tipli binalarla əhatə olunmuşdu. Hazırda bu binalarda qadın və kişi palataları, inzibati idarələr və xəstəxana işçilərinin otaqları yerləşirdi.

Ətrafa ilkin və cəld baxışdan sonra Veronika əslində yalnız əsas darvazanın qorunduğunu və içəri girib-çıxan hər kəsin sənədlərinin iki gözətçi tərəfindən yoxlanıldığını gördü.

Ağlında hər şey yenidən öz yerini tutmağa başlayırdı. Yaddaşını möhkəmləndirmək üçün xırda şeyləri – məsələn, otağının açarını həmişə harada qoyduğunu, ən son aldığı musiqi valını, kitabxanada ondan soruşulan ən son kitabı – xatırlamağa çalışdı.

– Mən Zedkayam, – bir qadın yaxınlaşaraq dedi.

Əvvəlki gecə Veronika bütün vaxtı əyilərək danışdığı üçün onun üzünü tam görə bilməmişdi. Zedka təqribən otuz beş yaşlarında olardı və tamamilə normal insan təsiri bağışlayırdı.

– Ümid edirəm, iynə səni çox narahat etməyib. Bir müddətdən sonra bədən öyrəşir və sakitləşdiricilər öz effektini itirir.

– Mən özümü yaxşı hiss edirəm.

– Dünən söhbət etdiyimiz zaman məndən nə soruşduğun yadındadır?

– Əlbəttə.

Zedka Veronikanın qoluna girdi və


e-kitab.org

onlar birlikdə çoxlu yarpaqsız ağacları olan həyətdə gəzməyə başladılar. Divarlardan o biri tərəfdə buludlar arasında itən dağlar görünürdü.

– Hava sərin olsa da, gözəl səhərdir, – Zedka dedi. – Qəribədir ki, sərin, boz və buludlu günlərdə mən heç vaxt depressiyaya düşmürdüm. Sanki təbiət mənimlə harmoniya təşkil edir, daxili aləmimi əks etdirirdi. Digər tərəfdən də hava günəşli olanda, uşaqlar oynamaq üçün küçələrə çıxanda və hamı günəşin belə gözəl parlamasına sevinəndə, mən özümü son dərəcədə pis hiss edirdim. Elə bil ki, bu şənlikdə iştirak edə bilməməyim mənə qarşı ədalətsizlik idi.

Veronika ehmalca özünü qadından ayırdı. Fiziki təmas onun xoşuna gəlmirdi.

– Bayaq deməyə başladığın sözü sona çatdırmadın. Dünən gecə səndən soruşduğum bir şey haqqında danışırdın.

– Burada bir qrup qadın və kişi var ki, onlar buranı tərk edib evlərinə gedə bilərdilər, amma getməkdən imtina ediblər. Bunun bir neçə səbəbi vardır. Əvvəla, Vilet beşulduzlu otel olmasa da, heç də hamının danışdığı qədər pis yer deyil. Buranın içərisində insanlar nə istəyirlərsə deyə və ya edə bilərlər və buna görə heç kim onları tənqid edə bilməz. Axı bura psixi xəstəxanadır. Bundan əlavə, hökumət nümayəndələri yoxlamaya gələndə buradakı qadın və kişilər özlərini təhlükəli manyaklar kimi aparırlar, çünki bəziləri dövlətin


e-kitab.org

hesabına buradadırlar. Həkimlər bunu yaxşı bilirlər, amma çox yəqin ki, buranın sahibləri vəziyyətin belə davam etməsinə göstəriş veribdir. Çünki burada xəstələrdən çox vakansiya var.

– Onlar mənə dərman tapa bilərlər?

– Onlarla əlaqə qurmağa çalış; onların qrupu "Qardaşlıq" adlanır.

Zedka ağsaçlı və cavan qızlarla nəşəli şəkildə söhbət edən qadını göstərərək dedi:

– Onun adı Maridir. O, "Qardaşlığ"ın üzvüdür. Ondan soruş.

Veronika Mariyə doğru irəliləmək istərkən, Zedka onu saxlayıb dedi:

– Yox, yox, indi olmaz, onun kefi kökdür. Tamamilə yad bir adama qarşı lütfkarlıq etmək üçün onu əyləndirən söhbətdən asanlıqla imtina etməyəcək. Əgər sənə qarşı pis reaksiya versə, ona yaxınlaşmaq üçün bir daha heç vaxt şansın olmayacaq. "Dəlilər" ilk təəssürata həmişə əhəmiyyət verirlər.

Veronika Zedkanın "dəlilər" sözünü demək tərzinə güldü, lakin o da narahat idi, çünki burada hər şey o qədər normal, hamı necə də mehriban görünürdü.

İşdən birbaşa bara, o bardan hansısa sevgilisinin yatağına, oradan öz otağına, oradan da anasının evinə getdiyi bu qədər illərdən sonra Veronika heç vaxt xəyal etmədiyi şeyləri yaşayırdı: psixi xəstəxana, çılğınlıq, dəlixana: harada ki, insanlar dəli olduqlarını deməkdən utanmır və heç kim kiminsə xətrinə dəyməmək üçün


e-kitab.org

əyləndikləri bir şeydən imtina etmir.

O, Zedkanın ciddi olduğuna şübhə etməyə başladı; kim bilir, bəlkə də psixi xəstələr biləkdən elə davranırdılar ki, guya onların dünyaları başqalarınkından daha yaxşıdır. Amma nə olsun ki? Veronika maraqlı, fərqli və tamamilə gözlənilməz bir şey yaşayırdı. İnsanların məhz istədikləri şeyləri etmək üçün özlərini dəliliyə vurduqları bir aləmi təsəvvürünüzə gətirin.

Elə həmin dəqiqə Veronikanın ürəyi çırpındı. Birdən həkimlərin dedikləri yadına düşdü və qorxu hissi onu bürüdü.

– Bir az tək gəzişmək istəyirəm, – o, Zedkaya dedi. Sonunda, Veronika da "dəli" idi və artıq başqalarının xətrinə dəyməməyə çalışmaq məcburiyyətində deyildi.

Qadın ondan aralandı və Veronika Viletin divarlarından kənardakı dağları ayaq üstə seyr etməyə davam etdi. Az qala içində xəfif bir yaşamaq arzusu baş qaldırdı, amma Veronika qətiyyətlə bu hissi boğdu. Tezliklə dərman tapmalı olduğunu özünə xatırlatdı.

Veronika hazırkı vəziyyətini bir daha nəzərdən keçirdi; idealdan uzaq bir şəraitdə idi. İstədiyi bütün çılğın şeyləri həyata keçirmək üçün ona imkan versəydilər belə, haradan başlayacağını bilməyəcəkdi. Həyatında bircə dəfə də olsun, çılğın bir şey etməmişdi.

Bağçada bir qədər gəzişdikdən sonra, hamı nahar etmək üçün yeməkxanaya getdi. Dərhal sonra tibb bacıları həm qadın, həm


e-kitab.org

də kişiləri çoxlu fərqli hissələrə bölünmüş böyük bir zala apardılar. Zal stullar, stollar, divanlar, piano, televizor və çöldən boz səmanın və alçaq buludların göründüyü böyük pəncərələrdən ibarət idi. Pəncərələrin heç birində barmaqlıq yox idi, çünki zal bağçaya açılırdı. Hava soyuq olduğu üçün qapılar örtülmüşdü, lakin çölə çıxıb bir daha ağaclar arasında gəzişməkdən ötrü, sadəcə, qapının dəstəyini fırlatmaq lazım idi.

Adamların çoxu gedib televizorun qarşısında əyləşdi. Kimisi gözlərini boşluğa zilləmiş, kimisi də astadan öz-özünə danışırdı. Axı kim bütün bunları həyatının hansısa çağında etməmişdi ki?

Bu an Veronika böyük zalın künclərindən birində yaşlı qadın olan Marinin indi daha böyük qrupla bir yerdə olduğunu gördü. Xəstələrin bəziləri onların yanından keçəndə Veronika da onlara qoşuldu ki, qrup üzvlərinin nə barədə danışdıqlarını xəlvətcə dinləyə bilsin. Öz niyyətini bacardıqca gizlətməyə çalışsa da, o, hər dəfə qrupa yaxınlaşanda onların hamısı birdən susur və dönüb bir nəfər kimi Veronikaya tamaşa edirdilər.

– Sənə nə lazımdır? – deyə Qardaşlığın (əgər həqiqətən də belə bir qrup mövcud idisə və Zedka göründüyü kimi dəli deyildisə) lideri təsiri bağışlayan qoca kişi soruşdu.

– Heç bir şey, mən, sadəcə, buradan keçirdim.



e-kitab.org

Onlar bir-birinə baxıb, başlarını yırğaladılar. Biri digərinə: “O, sadəcə, buradan keçirdi”, – dedi, başqa biri eyni atmacanı bu dəfə ucadan təkrar etdi. Az keçmədi ki, hamı bu sözləri qışqıraraq təkrarladı.

Veronika nə edəcəyini bilmədi, qorxudan iflic vəziyyətə düşüb, yerindəcə donub qaldı. Bu zaman yekəpər və hiyləgər görünən bir tibb qardaşı nə baş verdiyini öyrənmək üçün onlara yaxınlaşdı.

– Heç nə olmayıb, – qrup üzvlərindən biri dilləndi. – O, sadəcə, buradan keçirdi. O orada dayanıb, amma hələ də buradan keçir.

Bütün qrup qəhqəhə ilə gülməyə başladı. Veronika istehza ilə gülümsədi, gözlərinin yaşarmasını nəzərə çarpdırmamaq üçün çevrilib getdi. Gödəkcə və ya pencək geyinmədən birbaşa çölə çıxıb bağçaya doğru irəlilədi. Tibb bacısı onu içəri girmək üçün yola gətirməyə çalışdı, amma birdən başqa bir tibb bacısı peyda olub digərinin qulağına nə isə pıçıldadı. Sonra hər ikisi Veronikanı çöldə buraxıb içəri girdilər. Ölümə məhkum olunmuş bir kimsənin qeydinə qalmağın mənası yox idi.

Veronika çaşqın, gərgin və özünə qarşı acıqlı idi. Heç vaxt kiminsə onu qıcıqlandırmasına imkan verməmişdi; lap erkəndən öyrənmişdi ki, hər hansı situasiya ilə üzləşəndə soyuqqanlı olmaq lazımdır. O dəlilər isə onda xəcalət, qorxu, qəzəb, onların hamısını öldürmək istəyi və dilinə


e-kitab.org

gətirməyə cəsarət etmədiyi sözlərlə onları yaralamaq hisslərinin yaranmasına səbəb olmuşdular.

Bəlkə də qəbul etdiyi dərmanlar və komadan çıxarmaq üçün tətbiq olunan müalicə onu bu cür zəif və özünü hücumlardan qorumaq qabiliyyətini itirmiş insana çevirmişdi. Yeniyetməlik çağlarında bundan da pis vəziyyətlərə düşdüyü vaxtlar olmuşdu, lakin indi birinci dəfə idi ki, göz yaşlarını saxlaya bilmirdi. Hamıdan daha yaxşı olduğunu düşünən Veronikanı geri qaytarmaq məcburiyyətində idi: ona qarşı göstərilən təhqiramiz hərəkətləri eyninə almırmış kimi davranınağa və istehza ilə reaksiya verməyə qadir olan Veronikanı. Qrup üzvləri arasında kimin ölüm arzulamağa cəsarəti çatardı? Viletin divarları arasında toplaşmışkən, onlardan hansı biri ona həyat barədə nəsə öyrədə bilərdi? Heç bir şey üçün onların köməyinə arxalanmaq istəməzdi, ölmək üçün beş-altı gün gözləməli olsaydı belə.

“Artıq bir gün keçib, cəmi dörd və ya beş gün qalıb”.

Buz kimi soyuq hava onun bərk qızmış bədənini sakitləşdirsin deyə bir qədər çöldə gəzişdi. Ürəyi sürətlə döyünürdü.

“Mənə bir bax, ölməyə cəmi bir neçə günüm qalıb, heç vaxt görmədiyim və tezliklə bir daha heç vaxt görməyəcəyim insanların atmacalarına əhəmiyyət verirəm. Bununla bərabər, əzab çəkir və məyus oluram; içimdən hücuma keçib özümü


e-kitab.org

müdafiə etmək gəlir. Axı mən vaxtımı niyə boş yerə israf edirəm?"

Lakin o, az qalmış vaxtını səmərəsiz keçirirdi: başqalarının qaydalarının əsiri olmamaq üçün insanı savaşmağa məcbur edən bu qəribə kollektivdə öz kiçicik yerini tapmaq üçün mübarizə aparırdı.

"İnana bilmirəm, mən heç vaxt belə olmamışam. Səfeh şeylərdən ötrü heç vaxt dalaşmamışam".

Veronika buzla örtülmüş bağçanın ortasında ayaq saxladı. Məhz hər şeyin mənasız olduğunu düşündüyü üçün taleyin təbii olaraq onun qarşısına çıxardıqları ilə barışmalı olmuşdu. Yeniyetmə çağında seçim etməyin hələ çox tez, indi isə, bu yetkin yaşında nəyisə dəyişməyin çox gec olduğuna özünü inandırmışdı.

Bəs o vaxtadək enerjisini nəyə sərf etmişdi? Həyatını eynən olduğu kimi davam etdirməyə. Valideynləri onu uşaqlıqda olduğu kimi sevməyə davam etsinlər deyə, arzularının çoxundan vaz keçmişdi – baxmayaraq ki, o, əsl sevginin zaman keçdikcə dəyişib böyüdüyünü və özünü ifadə etmək üçün yeni yollar tapdığını bilirdi. Bir gün anası ona göz yaşı içərisində demişdi ki, evliliyi bitmək üzrədir və o zaman Veronika atasını axtarıb tapmış, ağlamış, onu hədələmiş və nəhayət ki, atasının evi tərk etməyəcəyinə dair söz verməsinə nail olmuşdu. Lakin o vaxt bunun gələcəkdə valideynlərinə baha başa gələcəyini təsəvvür belə etməmişdi.


e-kitab.org

İşləmək qərarına gələndə təzəlikcə bərqərar edilmiş ölkəsində yenicə yaradılmış bir şirkət tərəfindən edilən cəlbedici iş təklifini rədd etmiş, əvəzində dövlət kitabxanasında az maaşı, lakin zəmanəti olan işə başlamışdı. Hər gün eyni cədvələ uyğun işə gedir, hər zaman müdirlərinin onu hədə kimi qəbul etməməsinə çalışırdı. Hər şeydən razı idi, mübarizə aparmırdı və buna görə də inkişaf etmirdi. İstədiyi yeganə şey ayın sonunda məvacibini almaq idi.

Monastırda ona görə otaq kirayələmişdi ki, rahibələr bütün kirayəçilərin müəyyən saatda geri qayıtmalarını tələb edirdilər. Həmin saatdan sonra qapılar bağlanır və gecikən hər kəs küçədə gecələməli olurdu. Beləcə, otellərdə və ya yad yataqlarda gecəni keçirməli olmasın deyə, sevgililərinə verməyə həmişə səmimi bəhanəsi olurdu.

Evlilik barədə xəyal edəndə, özünü Lyublyanadan kənarda yerləşən bir evdə, atasından tamamilə fərqlənən – ailəsini saxlaya bilmək üçün kifayət qədər pul qazanan, buxarısı olan evdə onunla yaşamağa və qarla örtülmüş dağları seyr etməyə razı olan – kişi ilə evli təsəvvür edirdi.

Veronika özünü kişilərə lazım olan qədər həzz verməyə alışdırmışdı. Nə çox, nə az, düz lazım olan qədər.

Heç kimə qəzəblənməzdi, çünki qəzəblənmək reaksiya göstərməyə, düşmənlə savaşmağa və bu da gözlənilməz


e-kitab.org

nəticələrə, məsələn, intiqam almaq istəyinə səbəb olardı.

Həyatda istədiyi hər şeyi əldə etdikdən sonra belə nəticəyə gəlmişdi ki, artıq yaşamağının heç bir mənası yoxdur, çünki hər gün eynidir. Buna görə də ölümü seçmişdi...

Veronika içəri keçdi və zalın bir küncündə toplanmış qrupa tərəf irəlilədi. Atəşli şəkildə söhbət edən qrup üzvləri onun yaxınlaşdığını görən kimi susdular. Veronika birbaşa qrupun liderinə oxşayan ən yaşlı kişiyə doğru getdi. Kiminsə ona mane olmasına macal tapmamış, kişinin sifətinə uğultulu bir şillə çəkdi.

– Hə, cavab verməyəcəksən? –hamı onu eşitsin deyə ucadan qışqıraraq soruşdu. – Heç nə etməyəcəksən?

– Yox, – kişi cavab verdi və əlini üzünə apardı. Burnundan bir azca qan damcılanırdı. – Sən onsuz da bizi çox narahat etməyəcəksən.

Veronika zəfər çalmış kimi zalı tərk edib, öz palatasına getdi. Bütün həyatı boyu etmədiyi bir şeyi etmişdi...

Zedkanın "Qardaşlıq" adlandırdığı qrupla toqquşduğu hadisədən üç gün keçmişdi. Kişinin reaksiyasından qorxduğu üçün deyil, fərqli bir şey etdiyi – kişiyə şillə vurduğu üçün – peşman olmuşdu. Əgər ehtiyatlı olmasa idi, həyatın yaşamağa layiq olduğuna inanınağa başlayacaq və bu da ona lazımsız əzab verəcəkdi. Çünki onsuz da tezliklə bu dünyanı tərk edəcəkdi.


e-kitab.org

Yeganə çıxış yolu hamıdan və hər şeydən uzaq durmaq, əvvəllər necə idisə, indi də eynilə o cür olmağa çalışmaq və Viletin qayda-qanunlarına itaət etmək idi. Xəstəxana tərəfindən müəyyənləşdirilmiş rejimə özünü uyğunlaşdırdı: tezdən oyanmaq, səhər yeməyi yemək, bağçada gəzişmək, nahar etmək, ümumi zala getmək, bir dəfə də bağçada gəzişmək, daha sonra şam yeməyi yemək, televizora baxmaq və yatmaq.

Veronika yatmazdan əvvəl bir tibb bacısı dava-dərmanla həmişə onun otağında peyda olurdu. Digər xəstə qadınların hamısı həb qəbul edirdi. Veronika yeganə adam idi ki, ona iynə vurulurdu. O, heç zaman bundan şikayət etmirdi; sadəcə, bilmək istəyirdi ki, yuxusuzluqdan əziyyət çəkmədiyi halda, niyə ona bu qədər sakitləşdiricilər verilir? Ona izah etdilər ki, iynələr onu sakitləşdirmək üçün yox, ürəyini müalicə etmək üçün nəzərdə tutulmuşdur.

Bu rejimlə davam etdikcə, xəstəxanadakı bütün günləri bir-birinə bənzəməyə başladı. Günlər bir-birinə bənzədikdə, vaxt daha da tez keçirdi. İki-üç gündən sonra artıq dişlərini fırçalamalı və ya saçlarını daramalı olmayacaqdı. Veronika ürəyinin getdikcə daha sürətlə zəiflədiyini hiss edirdi: asanlıqla nəfəsi dayanır, sinəsində ağrılar hiss edir, iştahasını itirir və hər bir hərəkət başını gicəlləndirirdi.


e-kitab.org

Qardaşlıqla baş verən hadisədən sonra o, bəzən düşünürdü: "Əgər seçim imkanım olsaydı, əgər anlasaydım ki, günlərim ona görə eynidir ki, mən onların elə olmasını istəyirdim, bəlkə də..."

Lakin cavab həmişə eyni olurdu: "bəlkə" mövcud deyil, çünki seçim yoxdur. Və beləcə, "hər şey artıq müəyyən edilib" deyə fikirləşərək, onun daxili hüzuru yerinə qayıdırdı.

Bu müddət ərzində Zedka ilə münasibət qurmuşdular (bu dostluq münasibəti deyildi, çünki dostluq birlikdə keçirməyə çoxlu vaxt tələb edir və bu da mümkün olmayacaqdı). Birlikdə kart oyunu oynayır – bu, vaxtın tez keçməsinə kömək edir – və bəzən də bağçada sükut içərisində gəzişirdilər.

Səhərlərin birində, səhər yeməyindən dərhal sonra, qaydalara əsasən, hamı günəş qəbul etməyə çıxdı. Ancaq bir tibb bacısı Zedkadan onun müalicə günü olduğu üçün palatasına getməsini xahiş etdi.

Onunla birgə səhər yeməyi yeyən Veronika deyiləni eşitdi.

– Bu nə müalicədir ki?

– Altınışıncı illərdən qalmış, köhnə bir müalicə üsuludur, amma həkimlər elə düşünürlər ki, bu mənim tezliklə sağalmağımı sürətləndirə bilər. Gəlib baxmaq istəyirsən?

– Axı sən depressiyada olduğunu demişdin. Səndə çatışmayan kimyəvi maddəni əvəz etmək üçün dərman qəbul


e-kitab.org

etmək məgər kifayət etmir?

– Baxmaq istəyirsən? – Zedka israr etdi.

“Bunu etmək rejimdən kənara çıxmaq olacaqdı, – Veronika düşündü. Təzə heç bir şey öyrənmək istəmədiyi halda, yeni şeylər kəşf edəcəkdi. Halbuki ona ancaq bir qədər səbirli olmaq gərək idi”.

Lakin maraq ona güc gəldi və razılıq əlaməti olaraq, başını əydi.

– Bu, şou deyil, – tibb bacısı dedi.

– O öləcək. Demək olar ki, heç nə görməyib. Qoy bizimlə gəlsin.



e-kitab.org

# 8

* * *

Veronika hələ də gülümsəyən qadının çarpayıya kəmərlə bağlandığına tamaşa etdi.

– Ona nə baş verdiyini izah et, – Zedka tibb qardaşına dedi. – Yoxsa qorxacaq.

Tibb qardaşı dönüb, şprisi Veronikaya göstərdi. O, düzgün proseduranı və lazımi müalicəni cavan həkimə izah edən həkim kimi ona münasibət göstərilməsindən məmnun göründü.

– Bu şprisin tərkibində insulin var, – o sakit və texniki tonda dedi. – Diabetiklər bundan qanda şəkərin yüksək miqdarı ilə mübarizə aparmaq üçün istifadə edirlər. Lakin dozanın normadan yuxarı olması qanda şəkərin miqdarının aşağı düşməsinə səbəb olur ki, bu da koma vəziyyətinə düşməklə nəticələnir...

Şprisdəki havanı buraxmaq üçün iynəni yüngülcə çırtmaladı və sonra onu Zedkanın ayağındakı venaya yeritdi.

– İndi bu baş verəcək. O, süni şəkildə komaya düşürüləcək. Onun gözlərinin axmasından qorxma və dərmanların təsiri altında səni tanıyacağını da gözləmə.

– Bu, dəhşətdir, qeyri-insanidir, – Veronika dedi. – İnsanlar komadan çıxmaq üçün mübarizə aparırlar, komaya düşmək üçün yox.

– İnsanlar yaşamaq uğrunda mübarizə aparırlar, intihar etmək üçün yox, – deyə


e-kitab.org

tibb qardaşı cavab verdi, amma Veronika onun sözlərini qulaqardına vurdu. – Komada olarkən insan orqanizmi istirahət edir; bədən funksiyalarının fəaliyyəti əsaslı surətdə aşağı düşür və bədəndəki gərginlik yox olur.

Tibb qardaşı danışa-danışa mayeni yeritdikcə Zedkanın gözləri parlaqlığını itirirdi.

– Narahat olma, – Veronika Zedkaya dedi. – Sən tamamilə normalsan. Kral haqqında mənə danışdığın hekayə...

– Boş yerə vaxtını itirmə. O artıq səni eşitmir.

Çarpayıda uzanmış qadın bir neçə dəqiqə əvvəl necə ayıq və həyat enerjisi ilə dolu idisə, indi o qədər süst idi: nəzərləri uzaqdakı nöqtədə cəmlənmişdi, ağzının küncündə maye köpüklənirdi.

– Sən nə etdin? – Veronika tibb qardaşının üstünə qışqırdı.

– Öz işimi.

O, Zedkanı çağırınağa başladı, qışqır-bağır saldı, polisə, mətbuata və insan hüquqları təşkilatlarına gedəcəyi ilə hədələdi.

– Sakit ol. Psixi xəstəxanada ola bilərsən, amma müəyyən qaydalara riayət etməlisən.

Tibb qardaşının tam ciddi olduğunu görən Veronika qorxuya düşdü. Lakin itirməyə heç bir şeyi olmadığı üçün qışqırmağa davam etdi.


e-kitab.org

* * *

Zedka palatanı və bədəninin kəmərlə bağlandığı çarpayıdan başqa, digər bütün boş çarpayıları və yanında durub dəhşət içərisində ona tamaşa edən qızı görürdü. Qız bütün bioloji funksiyaları mükəmməl fəaliyyət göstərən, çarpayıda uzanmış bu adamın sağ olduğunu, lakin ruhunun uçaraq az qala tavana dəydiyindən və dərin bir hüzur içində olduğundan xəbərsiz idi.

Zedka astral səyahətdə idi: bu, keçirdiyi ilk insulin şoku zamanı ona təəccüblü gəlmişdi. Bu haqda heç kimə danışmamışdı; Viletə yalnız depressiyadan müalicə olunmaq üçün gəlmiş və sağalan kimi oranı həmişəlik tərk etmək ümidində idi. Əgər ruhunun bədənini tərk etməsi barədə desəydi, onlar onun Viletə gəldiyindən daha çox dəli olduğunu düşünəcəkdilər. Ruhu bədəninə qayıdan kimi, o hər iki mövzu – insulin şoku və fəzada uçmaq barədə oxumağa başladı.

Müalicə haqqında çoxlu ədəbiyyat mövcud deyildi. Bu müalicə metodundan ilk dəfə təqribən 1930-cu ildə istifadə olunmuşdu, amma xəstəyə vura biləcəyi bərpaolunmaz zərərə görə istifadəsi psixiatriya xəstəxanalarında tamamilə qadağan olunmuşdu. Seansların birində Zedka astral vəziyyətdə Dr. İqorun iş otağına getmiş və həkimin onun barəsində xəstəxana sahiblərindən biri ilə danışdığını


e-kitab.org

eşitmişdi. "Bu cinayətdir, – Dr. İqor demişdi. Hə, amma bu, ucuz və tez başa gələndir, – deyə kişi cavab vermişdi. – Kimdir bir dəlinin hüquqları ilə maraqlanan? Heç kim bundan şikayət etməyəcək".

Heç nəyə baxmayaraq, bəzi həkimlər bu metodu depressiyanı müalicə etməyin ən asan yolu hesab edirdilər. Zedka insulin şoku barədə mövcud olan bütün ədəbiyyatı axtarıb tapmış, xüsusilə də bu müalicəni keçmiş xəstələrin hesabatlarında oxumuşdu. Bütün hekayələrdə eyni dəhşətlərdən bəhs edilirdi; heç bir kəs onun yaşadıqlarına bənzər bir şeyin şahidi olmamışdı.

Bu zaman Zedka tamamilə haqlı olaraq belə bir nəticəyə gəlmişdi ki, insulin ilə ruhunun bədənini tərk etməsi arasında heç bir əlaqə yoxdur. Əksinə, o cür müalicə xəstənin əqli qabiliyyətinin zəifləməsinə gətirib çıxarırdı.

Zedka ruhun varlığı ilə bağlı tədqiqat aparmağa başladı, gizli qüvvələr barədə bir neçə kitab oxudu və günlərin birində onun yaşadıqlarını eynilə təsvir edən böyük həcmdə ədəbiyyata rast gəldi: bu, "astral səyahət" adlanırdı və bir çox insan artıq eyni hadisənin şahidi olmuşdu. Bəziləri, sadəcə, yaşadıqlarını izah etməyə çalışmış, digərləri isə bunu törətmək üçün müxtəlif metodlar kəşf etmişdi. Zedka bu metodları əzbərdən bilirdi və hər gecə onlardan istədiyi yerə getmək üçün istifadə edirdi.

Hadisələrin və öngörülərin təsviri bir-


e-kitab.org

birindən fərqlənirdi, lakin onların hamısının bir neçə ortaq cəhəti var idi: ruhun bədəndən ayrılmasından öncə qəribə və qıcıqlandırıcı səsin gəlməsi, sonra şok keçirmə, dərhal huşun itirilməsi, sonda isə havada uçmağın gətirdiyi hüzur və sevinc hissi. Astral səyahət zamanı ruh bədənə gümüşü tel ilə bağlı olur və istənilən qədər uzadıla bilir. Lakin bəzi rəvayətlərdə (təbii ki, kitablarda) deyilirdi ki, gümüşü telin qırılmasına imkan vermək ölümlə nəticələnə bilər.

Zedkanın təcrübəsinə əsasən, o istədiyi qədər uzağa gedə bilir və tel heç vaxt qırılmırdı. Amma, ümumiyyətlə, desək, kitablar ona astral səyahətdən mümkün olduğu qədər çox yararlanmağa kömək etmişdi. Məsələn, o öyrənmişdi ki, bir yerdən digər yerə getmək istədikdə özünü fəzada, getmək istədiyi yerdə təsəvvür etməli idi. Müəyyən marşrut üzrə uçan təyyarələrdən fərqli olaraq – hansı ki, bir yerdən başqasına çatmaq üçün lazım olan məsafəni qət edirlər – astral səyahət zamanı ruh sirli tunellərdən keçir. Özünü olmaq istədiyin bir yerdə təsəvvür edib, dəhşətli sürətlə müvafiq tunelə daxil olduqdan sonra həmin yer peyda olurdu.

Kitablar vasitəsilə o həm də fəzada mövcud varlıqlara qarşı olan qorxusunu tərgitmişdi. Bu gün palatada heç kim yox idi. Ancaq ilk dəfə bədənini tərk edəndə onun təəccübünə təbəssümlə tamaşa edən çoxlu insana rast gəlmişdi.


e-kitab.org

Zedkanın ilk reaksiyası bu insanların ölü və xəstəxanada məskunlaşmış kabuslar olduğunu düşünmək olmuşdu. Sonra isə oxuduğu kitablar və öz təcrübəsi ona öyrətmişdi ki, bu varlıqlar arasında, o tərəflərdə sərgərdan dolaşan bəzi bədənsiz ruhlardan əlavə, onun kimi sağ olub, ya öz bədənlərini tərk etmək üsullarını öyrənmiş, ya da dünyanın bir tərəfində dərin yuxuya dalmış, digər tərəfdə isə ruhlarının azadə gəzib-dolaşdıqlarından xəbəri belə olmayan insanlar var idi.

Bu gün insulin vasitəsilə son dəfə astral səyahət edəcəyini bilirdi, çünki Dr. İqorun ofisində olarkən onun Zedkanı buraxmağa hazır olduğunu eşitmişdi və buna görə də bu dəfə Viletin daxilində qalmaq qərarına gəldi. Həmin andaca, hətta ruhən belə heç vaxt qayıtmayacağı əsas darvazadan keçib əlvida demək istədi.

Əlvida demək işin ən çətin hissəsi idi. Psixi xəstəxanada bir dəfə olduqdan sonra insan dəlilik dünyasında olan azadlığa öyrəşib, ona aludə olur. Orada olarkən, insan daha hər hansı məsuliyyət daşımaq, gündəlik çörəkpulu qazanmaq üçün əlləşmək və təkrar, sıradan işlər görmək məcburiyyətində qalmır. Saatlarla bir şəklə baxa və ya mənasız cızma-qaralar edə bilir. Orada hər şeyə yol verilir, çünki axı orada olan insanlar əqli cəhətdən xəstədirlər. Zedka özü müşahidə etmişdi ki, xəstəxanaya qəbul olduqdan sonra xəstələrin əksəriyyəti özlərini əhəmiyyətli


e-kitab.org

dərəcədə yaxşı hiss edir. Onlar daha simptomlarını gizlətmək məcburiyyətində qalmır, xəstəxanada hökm sürən "ailə" atmosferi onlara nevroz və psixoz olduqlarını qəbul etməyə kömək edir.

Əvvəlcə Zedka Viletə valeh olmuşdu və sağaldıqdan sonra hətta Qardaşlığa qoşulmaq barədə belə düşünmüşdü. Lakin bir qədər düşündükdən sonra qərara gəldi ki, əgər tədbirli olub, gündəlik həyatdakı çətinliklərin öhdəsindən gəlməyi bacarsa, istədiklərini çöldə də davam etdirə bilər. Kimsə bir dəfə demişdi ki, etməli olduğu yeganə şey çılğınlığını nəzarət altında saxlamaqdır. Hər bir insan kimi ağlaya, narahat ola və ya acıqlana bilərsən, bir şərtlə ki, ruhunun yuxarıdan bütün bu incə məsələlərə necə güldüyünü yadında saxlayasan.

Tezliklə uşaqlarının və həyat yoldaşının yanına qayıdacaqdı; həyatının o hissəsinin də öz gözəllikləri vardı. Əlbəttə, iş tapmaq çətin olacaqdı, necə olsa, Lyublyana kimi kiçik bir şəhərdə xəbər sürətlə yayılır və onun Viletdə olması çox adama məlum idi. Amma yoldaşı ailəni saxlamaq üçün kifayət qədər pul qazanırdı və o, vaxtını insulinin təhlükəli təsiri altında olmayan astral səyahətlər etməyə sərf edə bilərdi.

Bir daha yaşamaq istəmədiyi yeganə şey vardı, bu da onu Viletə gətirən səbəb idi: Depressiya.

Həkimlər deyirdilər ki, yaxınlarda kəşf olunmuş və serotonin adlanan maddə


e-kitab.org

insanların özlərini necə hiss etmələrinə cavabdeh olan birləşmələrdən biridir. Orqanizmdə serotonin çatışmazlığı insanın işdə diqqətini cəmləmək, yatmaq, yemək və həyatdan zövq ala bilmək bacarıqlarını zəiflədir. Bu birləşmənin tamamilə yoxluğu insanda ümidsizlik, pessimizm, lazımsızlıq duyğusu, dəhşətli yorğunluq, nigaranlıq, qərar qəbul etməkdə çətinlik hissi keçirməyə səbəb olur və apatiya və ya intihara aparan uzunmüddətli qəmginliyə batmaqla nəticələnir.

Digər daha konservativ həkimlərsə deyirdilər ki, həyatda baş verən istənilən köklü dəyişiklik, məsələn, xarici ölkəyə köçmək, doğma insanı itirmək, boşanmaq, işdə və ya ailədə məsuliyyətin artması depressiyaya səbəb ola bilər. Bəzi müasir araşdırmalar, yay və qış aylarında keçirilən təcrübələrə əsaslanaraq, kifayət qədər günəş işığı qəbul etməməyi depressiyanın səbəblərindən biri kimi göstərirdilər.

Lakin Zedkanın bu bəlaya düçar olmasının səbəbi hamının fikirləşdiyindən daha sadə idi: onun keçmişində gizlənmiş, daha doğrusu, çoxdan tanıdığı bir kişi barədə özündə yaratdığı fantaziya onun depressiyaya düşməsinə səbəb olmuşdu.

Hər bir normal gənc qız kimi, Zedka da "Əlçatmaz Məhəbbət" yaşamalı idi, amma cavanlığında naümidcəsinə aşiq olub, hazırda isə mövcudluğundan belə xəbəri olmayan bir kişiyə görə depressiyaya düşmək və dəliliyə giriftar olmaq səfehlik


e-kitab.org

idi.

Əlçatmaz Məhəbbəti yalnız arzulamaqla kifayətlənən rəfiqələrindən fərqli olaraq, Zedka bir qədər irəli gedərək, bu arzunu reallaşdırmaq qərarına gəldi. Sevdiyi insan okeanın o tayında yaşayırdı və gedib ona qoşulmaq üçün hər şeyini satdı. Oğlan ailəli idi, amma Zedka onun məşuqəsi olmağa hazır idi və sonra onunla evlənmək üçün gizli planlar qurmuşdu. Oğlanın heç özünə sərf etməyə, demək olar ki, vaxtı yox idi, lakin Zedka gecə-gündüz ucuz otellərdə qalıb, onun nadir hallarda etdiyi telefon zənglərini gözləməyə razılaşmışdı.

Sevgi adına hər əzaba tab gətirmək əzminə baxmayaraq, Zedkanın oğlanla eşq macərası baş tutmadı. Oğlan birbaşa heç nə demədi, ancaq bir gün Zedka artıq istənmədiyini başa düşüb, Sloveniyaya geri qayıtdı.

Növbəti bir neçə ay ərzində Zedka az qala heç nə yemir, onunla birlikdə olduğu hər bir anı xatırlayır, yataqda olarkən keçirdikləri hər bir sevinc və həzz hissini fikrən təkrar-təkrar incələyir və diqqətini bu münasibətlərin gələcəyinin olmasına dair ümidverici şeylər üzərində cəmləşdirirdi. Dostları düşdüyü bu vəziyyətə görə ondan ötrü narahatlıq keçirirdilər, amma Zedkanın daxilində bir səs bunun keçici bir dövr olduğunu deyirdi: necə olsa, şəxsi inkişafın bir qiyməti vardır və şikayət etmədən buna görə öz haqqını


e-kitab.org

ödəyirdi. Belə də oldu. Bir gün böyük həyat eşqi ilə yuxudan oyandı, uzun zamandan bəri ilk dəfə iştahayla yemək yedi, evdən kənara çıxıb özünə iş tapdı. Təkcə iş tapmaqla kifayətlənməyib, hətta gənc, yaraşıqlı, zəkalı və digər qadınların arzuladığı bir oğlanın da diqqətini özünə cəlb etdi. Və bir il sonra onlar evlənib, ailə qurdular.

Buna görə rəfiqələri ona həm qibtə edir, həm də alqışlayırdılar.

Cütlük bağçası Lyublyanadan axıb gedən çaya baxan rahat bir evdə məskunlaşdı. Bir az sonra onların övladları dünyaya gəldi və onlar hər yay istirahət etmək üçün Avstriya və İtaliyaya səyahət edirdilər.

Sloveniya Yuqoslaviyadan ayrıldıqdan sonra yoldaşı orduya çağırıldı. Zedka serb, yəni düşmən olduğu üçün onun həyatı dağılmaq üzrə idi. Ordunun qarşıdurmaya hazır olduğu, azadlıq bəyannaməsinin nə ilə nəticələnəcəyini və buna görə nə qədər qan töküləcəyini heç kimin bilmədiyi növbəti gərgin on gün ərzində Zedka həyat yoldaşını nə qədər sevdiyini anladı. Bütün vaxtını bu anadək ona uzaq görünən, indi isə yeganə ümid yeri olan Yaradana dua etməklə keçirdi. Müqəddəslərin və mələklərin hamısına əhd edib, yoldaşının geri dönməsi üçün onlara yalvardı.

Beləcə, Zedka diləyinə çatdı. Yoldaşı geri qayıtdı, uşaqları Sloveniya dilində dərs keçilən məktəbə getməyə başladılar və



e-kitab.org

müharibənin baş verməsi qorxusu qonşu respublika olan Xorvatiyaya keçdi.

Aradan üç il ötdü. Yuqoslaviyanın Xorvatiya ilə müharibəsi Bosniyaya keçdi və serblərin törətdikləri cinayətlər barədə xəbərlər yayıldı. Zedka bir neçə səfehin axmaqlığına görə bütün bir xalqı cinayətkar adlandırmağın ədalətsizlik olduğunu düşündü. Həyatı heç vaxt gözləmədiyi məna kəsb etməyə başladı. Öz xalqını qürur və cəsarətlə müdafiə etmək üçün qəzetlərdə yazır, televiziyada çıxışlar edir və konfranslar təşkil edirdi. Lakin bütün bunların heç bir faydası olmadı və hətta bugünədək xaricilər baş verən vəhşiliklərin günahını serblərdə görsələr də, Zedka bilirdi ki, o öz vəzifəsini yerinə yetirmişdi və belə çətin bir vaxtda, bacı-qardaşlarını tərk edib gedə bilməzdi. O öz sloveniyalı ərinin, övladlarının və hər iki tərəfin apardığı təbliğatın təsiri altına düşməyən insanların dəstəyinə arxalanırdı.

Gecələrin birində, Zedka böyük sloveniyalı şair Preserenin heykəli qarşısından keçərkən, onun həyatı barədə düşünməyə başladı. Otuz dörd yaşlı şair bir gün kilsəyə gedir və orada Culiya Primik adlı gənc bir qız görüb, bir könüldən min könülə ona aşiq olur. Qədim müğənnilər kimi, bir gün onunla evlənmək ümidilə, ona şeirlər qoşmağa başlayır.

Məlum olur ki, Culiya orta sinfin yuxarı təbəqəsinə məxsus bir ailənin qızıdır və kilsədəki təsadüfi görüşdən sonra Preseren


e-kitab.org

bir daha ona yaxın düşə bilmir. Lakin bu təsadüfi görüş şairi mükəmməl poeziya nümunələri yaratmağa ruhlandırır və əfsanəvi məşhurluğa qovuşdurur.

Lyublyananın kiçik mərkəzi meydanında yerləşən heykəl sanki diqqətlə nəzərlərini bir yerə cəmləmişdir. Əgər onun baxışlarını izləsəniz, görəcəksiniz ki, meydanın o biri tərəfində yerləşən binalardan birinin daşı üzərində qadın surəti həkk olunmuşdur. Ora Culiyanın yaşadığı ev idi. Hətta ölümündən sonra belə Preseren əbədi olaraq öz Əlçatmaz Məhəbbətinə tamaşa edirdi.

Bəs, o, məhəbbəti uğrunda daha möhkəm mübarizə aparsaydı necə?

Zedkanın ürəyi bərkdən döyünməyə başlamışdı. Bəlkə də intuisiyası uşaqlarının başına gəlmiş bədbəxt hadisədən ona xəbər verirdi. Tələsik şütüyərək evə çatdıqdan sonra uşaqlarının televizora baxa-baxa qarğıdalı partdağı yediklərini görmüşdü.

Ancaq qəmginlik hissi keçməmişdi. Zedka yerinə uzanıb on iki saatadək yatmış, yuxudan oyandıqda isə yerindən qalxmaq istəməmişdi. Preserenin həyat hekayəsi ona öz itirdiyi məhəbbətini xatırlatmışdı.

Və Zedka özünə sual vermişdi: bəs mən kifayət qədər mübarizə apardımmı? Hər şeyin gözlədiyim kimi olmasını tələb etməkdənsə, onun məşuqəsi olmağa qane olsaydım necə? Öz xalqım uğrunda mübarizə apardığım kimi, ilk məhəbbətim uğrunda da vuruşdummu?



e-kitab.org

Zedka özünü məhəbbəti uğrunda çalışdığına inandırsa da, pərişanlığı onu tərk etmədi. Bir vaxtlar ona cənnət kimi görünənlər – çay kənarında ev, sevdiyi həyat yoldaşı, televizor qabağında qarğıdalı partdağı yeyən uşaqlar – tədricən cəhənnəmə çevrildi.

Bu gün çoxlu astral səyahətlərdən və yüksək ruhlu varlıqlarla rastlaşdıqdan sonra Zedka anladı ki, olanların hamısı boş şeylər imiş. O öz Əlçatmaz Məhəbbətindən – təsəvvür belə etmədiyi indiki həyatından olduqca fərqlənən keçmiş həyatı ilə əlaqəsini kəsmək üçün bir bəhanə kimi istifadə etmişdi.

On iki ay bundan öncə isə vəziyyət tamamilə fərqli idi. Zedka təlaş içində uzaq sevgilisini axtarmağa başlamış, beynəlxalq zənglərə bir ətək pul xərcləmiş, amma onun həmin şəhərdə artıq yaşamadığını öyrənmişdi. Sevgilisini tapmaq qeyri-mümkün bir işə çevrilmişdi. Sürətli poçtla məktublar göndərsə də, onların hamısı geri qayıtmışdı. Sevgilisinin bütün dostlarına zəng etmişdi, lakin heç kimin ondan xəbəri yox idi.

Zedkanın həyat yoldaşı baş verənlərdən tamamilə xəbərsiz idi və bu da onu əsəbiləşdirirdi, çünki o, ən azından nədənsə şübhələnə, hay-küy qaldıra, şikayət edə, onu küçəyə atmaqla hədələyə bilərdi. O özünü inandırmışdı ki, yalandan özünü biganə göstərmək üçün həyat yoldaşı beynəlxalq telefon operatorlarını,


e-kitab.org

poçtalyonu və onun bütün rəfiqələrini rüşvətlə ələ alıb. Evlənərkən ona verilən cavahiratını satıb, okeanın o tayına getmək üçün təyyarə bileti alarkən bir nəfər onu fikrindən döndərdi ki, Amerika həddindən artıq böyükdür və nə axtardığını bilmədiyin halda ora getməyin mənası yoxdur.

Günlərin bir günü yerində uzanıb, Lyublyananın gündəlik həyatına qayıdandan sonra belə, heç vaxt olmayan qədər məhəbbəti üçün əzab çəkirdi. Həmin gecəni və növbəti iki günü otağında keçirdi. Üçüncü gün isə xeyirxah və onun üçün narahat olan həyat yoldaşı evə həkim çağırdı. Onun Zedkanın başqa bir kişi ilə ünsiyyətə girməyə, evliliklərinə xəyanət etməyə, hörmət edilən həyat yoldaşı olmağı kiminsə məşuqəsi olmağa dəyişməyə, Lyublyananı, evini və uşaqlarını həmişəlik tərk etməyə çalışmasından xəbəri var idimi?

Həkim gəlib çıxdıqda Zedka isterik hərəkətlər edib, otağının qapısını açarladı və yalnız həkim getdikdən sonra qapını açdı. Bir həftə sonra artıq onun yataqdan qalxmağa kifayət qədər taqəti olmadığı üçün çarpayıdan ayaqyolu kimi istifadə etməyə başladı. O, artıq düşünmürdü; sevdiyi kişinin qırıq-qırıq xatirələri onun ağlını tamamilə zəbt etmişdi və sevgilisinin də onu uğursuzcasına axtardığına özünü inandırmışdı.

Onun dəhşətli dərəcədə comərd həyat yoldaşı döşəkağlarını dəyişdi, saçlarını hamarladı və hər şeyin düzələcəyini dedi.


e-kitab.org

Uşaqlar isə artıq onun otağına gəlmirdilər, çünki bir dəfə heç bir səbəb olmadan oğluna şillə çəkmiş, sonra diz çökərək onun ayağını öpmüş, bağışlanmasını diləmiş, ümidsizlik və peşmançılığını göstərmək üçün xalatını xırda-xırda doğramışdı.

Növbəti bir həftə ərzində ona verilən bütün yeməklərə tüpürmüş, bir neçə dəfə reallıqla əlaqəsini itirmiş, gecələri oyaq qalıb, gündüzləri yatmaqla keçirmişdi. Sonra qapını döymədən iki kişi otağına daxil olmuşdu. Onlardan biri onun əl-qolunu tutub saxlamış, digəri isə ona iynə vurmuş və beləcə, Zedka Viletdə oyanmışdı.

– Depressiyadır,– deyə həkim yoldaşına bildirmişdi. – Bəzən çox banal şeylər buna səbəb olur, məsələn, orqanizmdə kimyəvi maddə olan serotonin çatışmazlığı...


e-kitab.org

# 10

* * *

Palatanın tavanından Zedka əlində şprislə tibb bacısının yaxınlaşdığını gördü. Qız hələ də orada durub, onun ifadəsiz baxışından dəhşətə gəlmiş halda uzanmış bədənlə danışmağa çalışırdı. Bəzi anlarda Zedka bütün baş verənləri açıb ona danışmaq barədə düşünmüş, lakin fikrini dəyişmişdi; insanlar heç vaxt onlara deməklə nəyisə öyrənmirlər, onlar özləri öyrənməlidirlər.

Tibb bacısı Zedkanın qoluna iynə ilə qlükoza yeritdi. Sanki nəhəng bir qol onu qəflətən zəbt etmiş kimi ruhu tavanı tərk etdi, qaranlıq tuneldən keçərək bədəninə daxil oldu.

– Salam, Veronika.

Qız diksindi.

– Yaxşısan?

– Hə, yaxşıyam. Şükür ki, bu təhlükəli müalicədən sağ-salamat çıxdım, amma bu bir daha təkrar olunmayacaq.

– Necə bilirsən! Burada heç kim xəstələrin diləklərinə hörmət etmir.

Zedka bilirdi, çünki astral səyahəti zamanı Dr. İqorun iş otağına getmişdi.

– İzah edə bilmərəm, sadəcə, bilirəm. Sənə verdiyim ilk sualı xatırlayırsan?

– Hə, məndən dəliliyin nə olduğunu soruşmuşdun.

– Elədir. Bu dəfə isə sənə nağıl danışmayacağam. Sadəcə, onu deyəcəm ki,


e-kitab.org

dəlilik – ideyalarını çatdıra bilməyi bacarmamaqdır. Sanki əcnəbi bir ölkədəsən və ətrafında baş verən hər şeyi görür və dərk edirsən, amma nəyi bilmək istədiyini və ya köməyə ehtiyacın olduğunu insanlara anlada bilmirsən, çünki onların dilində danışmağı bacarmırsan.

– Hamımız o hissləri keçirmişik.

– Onda bu və ya digər şəkildə, hamımız bir cür dəliyik.


e-kitab.org

# 11

* * *

Pəncərənin barmaqlıqlarından görünən səma ulduzlarla dolu idi, yeddi günlük ay dağların arxasından çıxmışdı. Şairlər adətən bədirlənmiş aya aşiq olmuş, ona minlərlə şeirlər həsr etmişlər. Amma Veronika təzə ayı daha çox sevirdi, çünki ay bütov olmazdan əvvəl, onun böyüməsinə, genişlənməsinə və bütün səthinin işıqla örtülməsinə hələ bir qədər zaman qalmış olurdu.

Veronika zaldakı pianonun yanına gedib, məktəbdə öyrəndiyi gözəl bir sonatanı çalmaqla həmin gecəni qeyd etmək istədi. Səmaya baxarkən izaholunmaz bir xoşbəxtlik duyğusu onu bürüdü; sanki hədd-hüdudu olmayan kainat öz əbədiliyini açıb ona göstərirdi. Lakin arzusuna çatmaqdan onu polad qapı və ardı-arası kəsilmədən kitab oxuyan qadın ayırırdı. Bundan əlavə, gecənin o vaxtında heç kim piano çalmırdı; əgər o çalsaydı, bütün məhəlləni oyatmış olacaqdı.

Veronika öz-özünə güldü. "Məhəllə" dediyi dəli insanlarla dolu olan palatalardan ibarət idi və həmin dəli insanları yatızdırmaqdan ötrü onlara bir ətək dərman içizdirmişdilər.

Amma xoşbəxtlik hissi onu bürüməyə davam edirdi. Ayağa qalxıb, Zedkanın çarpayısına doğru getdi, amma o da bərk yuxuya getmişdi, bəlkə də yaşadıqları



e-kitab.org

dəhşətlərdən özünə gəlməyə çalışırdı.

Veronikanın tərpəndiyini görən tibb bacısı dilləndi:

– Get, yat. Yaxşı qızlar yatıb yuxuda mələkləri və ya sevgililərini görürlər.

– Mənimlə uşaq kimi rəftar etməyin. Mən hər şeydən qorxan, əhliləşdirilmiş dəli deyiləm; mən çılğınam, əsəbiyəm. Nə özümün, nə də ki digərlərinin həyatına hörmətim var. Ancaq bu gün özümü ayıq hiss edirəm. Aya baxırdım və kiminləsə söhbət etməyə ehtiyac duydum.

Tibb bacısı onun bu reaksiyasından təəccübləndi.

– Məndən qorxursunuz? – Veronika soruşdu. – Bir neçə gündən sonra mən onsuz da öləcəyəm. İtirməyə nəyim var ki?

– Əzizim, bəlkə sən çöldə gəzməyə gedib, mənə bu kitabı oxuyub bitirməyə imkan verəsən?

– Axı bura həbsxanadır və burada həbsxana gözətçisi var ki, hamı onu zəkalı hesab etsin deyə özünü elə göstərir, guya kitab oxuyur. Amma əslində, o, palatada baş verən hər bir hərəkəti izləyir və sanki xəzinənin keşiyini çəkirmiş kimi, qapının açarlarını qoruyur. Burada qayda-qanun belədir və o, onlara riayət etməlidir. Bu da ona gündəlik həyatında uşaqları və əri üzərində sahib ola bilmədiyi hakimiyyətə malik olması təsirini bağışlayır.

Veronika səbəbini bilmədən titrəyirdi.

– Açarlar? – tibb bacısı dedi. – Qapı həmişə açıqdır. Doğrudan elə düşünürsən



e-kitab.org

ki, psixi xəstələrin dolu olduğu bir yerin qapısını bağlayıb, içəridə oturacağam?

“Qapı açıqdır” nə deməkdir? Bir neçə gün qabaq mən buradan çıxmaq istəyəndə bu qadın hətta tualetə belə mənimlə getmişdi. O nə danışır belə?”

– Məni çox ciddi qəbul etmə, – tibb bacısı dedi. – İş orasındadır ki, burada biz sakitləşdiriciləri sədəqə kimi paylayırıq deyə, bizə elə də çox mühafizə lazım olmur. Sən titrəyirsən, sənə soyuqdur?”

– Bilmirəm, məncə, bu mənim ürəyimə görə belədir.

– İstəyirsənsə, gedib gəzişə bilərsən.

– Əslində piano çalmaq istəyirdim.

– Zal tamamilə ayrıdır, ona görə də piano çalmağın heç kimi narahat etməyəcək. Nə istəyirsənsə, onu da et.

Veronikanın titrəməsi sakit, utancaq və boğuq hıçqırıqla əvəz olundu. O, aşağı əyilib, başını qadının dizləri üstə qoydu və hönkür-hönkür ağladı.

Qadın əlindəki kitabı yerə qoyub, Veronikanın saçlarını sığallayaraq, onun kədər və göz yaşlarının özünü ifadə etməsinə imkan verdi. Onlar yarım saat ərzində eləcə oturdular. Biri ağlayır, digəri isə ona təskinlik verir, lakin heç biri nə üçün belə etdiyini bilmirdi.

Hönkürtü, nəhayət ki, kəsildi. Tibb bacısı ona ayağa qalxmaqda kömək etdi, sonra qoluna girib onu qapıya sarı apardı.

– Sən yaşda bir qızım var. İlk dəfə sən bura damcı və borucuqlarla sarılmış


e-kitab.org

vəziyyətdə qəbul olunanda mən gələcəyi hələ irəlidə olan sənin kimi belə gənc qızın özünə niyə qəsd etməsi barədə durmadan düşünürdüm. Sonra hər cürə şayiələr yayılmağa başladı: sənin yazdığın intihar məktubu haqqında eşitdim, amma əsl motivin məktubda yazılan olduğuna inanmadım və müalicəsi olmayan ürək çatışmazlığına görə tezliklə öləcəyini duydum. Onda öz qızımın surəti ağlımdan çıxmırdı: o, belə bir şey etməyə qərar versə necə? Müəyyən insanlar niyə hadisələrin təbii axınına – nə olursa olsun, yaşamaq uğrunda mübarizə aparmağa qarşı getməyə çalışırlar?

– Mən ona görə ağlayırdım, – Veronika dedi. – Mən o həbləri qəbul edəndə nifrət etdiyim insanı öldürmək istəyirdim. Bilmirdim ki, içimdə digər Veronikalar mövcuddur, o Veronikalar ki, mən onları sevə bilərdim.

– İnsan özünə nəyə görə nifrət edə bilər?

– Qorxaqlığa görə – bəlkə də. Səhv etməyin, başqalarının səndən gözlədiyini edə bilməməyin əbədi qorxusu. Bir neçə dəqiqə bundan əvvəl özümü xoşbəxt hiss edirdim, ölüm hökmünə məhkum olduğumu unutmuşdum. Sonra olduğum vəziyyəti xatırladıqda məni vahimə bürüdü.

Tibb bacısı qapını açdı və Veronika çölə çıxdı.

"O məndən bunu niyə soruşdu? Nə üçün mənim ağladığımı bilmək istəyir? Başa



e-kitab.org

düşmür ki, tamamilə normal insanam, hamı kimi eyni arzu və qorxularım var və elə sual vermək artıq gec olsa da, məni təşvişə sala bilərdi?"

Palatadakı kimi tutqun lampalarla işıqlandırılmış koridor boyu irəlilədikcə Veronika başa düşdü ki, həqiqətən də gecdir: o, indi artıq öz qorxusunu idarə edə bilmirdi.

"Özümü ələ almalıyam. Mən verdiyi qərara sadiq qalıb, işləri həmişə sona çatdıran insanlardanam".

Bu bir həqiqətdir ki, Veronika çox şeyin – çox vaxt da əhəmiyyətsiz məsələlərin – sonuna qədər gedərdi. Məsələn, üzrxahlıq edib asanlıqla bitirə biləcəyi bir mübahisəni boş yerə çürüdər, ya da ki, münasibətlərin çox davam etməyəcəyini sanıb aşiq olduğu insana zəng etməzdi. O, əsasən asan məsələlərdə fikrindən dönməzdi, sanki özünə sübut etməyə çalışırdı ki, o güclü və soyuqqanlıdır. Amma əslində isə Veronika heç vaxt əlaçı olmayan, məktəbdəki idman növlərində fərqlənməyən və evdəki əmin-amanlığı qoruyub saxlaya bilməyən zəif bir qız idi.

Öz kiçik çatışmazlıqlarının öhdəsindən gəlsə də, fundamental əhəmiyyətə malik məsələlərdə uduzmuşdu. Əslində naümidcəsinə ünsiyyətə ehtiyacı olduğu vaxtlarda belə müstəqil olduğunu göstərməyə müvəffəq olmuşdu. İçəri daxil olanda hamı dönüb ona tərəf baxsa da, gecə evə demək olar həmişə tək qayıdar və


e-kitab.org

vaxtını monastırdakı otağında düz-əməlli köklənməmiş televiziya kanallarına baxmaqla keçirərdi. Bütün dostlarının ona həsəd aparmasına səbəb olmuş və enerjisinin çoxunu özü üçün yaratdığı bu süni obraza uyğun tərzdə davranınağa sərf edirdi.

Buna görə də heç vaxt məhz özü olmağa və xoşbəxtlik üçün başqalarına ehtiyac duyan digər insanlar kimi olmağa enerjisi qalmırdı. Axı insanlar çox mürəkkəbdirlər. Onlar bəlli olmayan şəkildə reaksiya verir, özlərini müdafiə etmək üçün ətraflarına sədlər çəkir, elə onun kimi, özlərinin hər şeyə biganə olduqlarını göstərirdilər. Və bir gün, həyat sevgisi ilə dolu bir adam peyda olduqda, onlar ya həmin dəqiqə o adamı rədd edir, ya ona əzab verib incidir, ya da ki, ona zəif və sadəlövh damğasını vururdular.

Çoxlarında güclü və mətanətli olması təəssüratını yaratsa da, bütün bunlar Veronikanı haraya gətirib çıxarmışdı? Boşluğa. Tənhalığa. Viletə. Ölümün gözləmə otağına.

İntihara cəhd etdiyi üçün keçirdiyi peşmançılıq hissi yenə də üzə çıxdı, amma Veronika bu hissi möhkəmcə ört-basdır etdi. İndi isə Veronika heç vaxt özünə imkan verınədiyi bir hiss keçirirdi: nifrət.

Nifrət. Bu hiss az qala divarlar, pianolar və tibb bacıları kimi cismani idi. Sanki bədənindən çıxan o dağıdıcı enerjiyə toxuna bilərdi. Bu hissin pis və ya yaxşı olmasından asılı olmayaraq, onun üzə çıxmasına imkan



e-kitab.org

verdi; özünü idarə etməkdən, maskalardan, ədəbli davranışlardan bezmişdi. Veronika həyatının son iki-üç gününü ürəyinin istədiyi kimi keçirmək niyyətindəydi.

Buna qoca kişiyə şillə vurmaqla başlamış, tibb bacısının qarşısında hönkürtü ilə ağlamaq və yalnız qalmaq istədiyi üçün digərlərinə qarşı nəzakətsiz olub, onlarla danışmaqdan imtina etmək daxil idi. İndi isə özünü nifrət etmək üçün kifayət qədər azad, amma ətrafında olan hər şeyi sındırıb, qalan həyatını sakitləşdiricilərin təsiri altında palatada yatmaqla keçirməyə risk etməyəcək qədər ağıllı hiss edirdi.

Həmin an Veronika hər şeyə nifrət edirdi: özünə, dünyaya, qarşısındakı stula, dəhlizlərdəki sınmış radiatorlara, mükəmməl insanlara, cinayətkarlara. O, indi psixi xəstəxanada idi və buna görə də insanların adətən gizlətdikləri hissləri keçirməyə özünə icazə verirdi.

Bizi adətən elə tərbiyə edirlər ki, hamını sevək, qəbul edək, hər şeyi qaydasına qoymaq yollarını axtaraq və konfliktlərdən uzaq olaq. Veronika hər nəyə nifrət bəsləsə də, hər şeydən çox öz sürdüyü həyata, bu qədər vaxtı içində yaşayan maraqlı, çılğın, hər şeylə maraqlanan, qorxmaz və cəsur Veronikaları kəşf etməyə cəhd göstərmədiyinə təəssüflənirdi.

Daha sonra o, həyatda ən çox sevdiyi insana – anasına qarşı nifrət hissi keçirməyə başladı. O qadına ki, bütün


e-kitab.org

gününü işləməklə, gecələri isə qabları yumaqla keçirib, qızının yaxşı təhsil alması, piano və skripkada çalınağı öyrənməsi, özü illərlə eyni paltarı geyinib, qızının şahzadə kimi geyinməsi və ona ən son dəbdə olan cins şalvarları və tennis ayaqqabılarını alması üçün həyatını fəda etmişdi.

“Mənə yalnız və yalnız sevgi bəxş edən bir insana qarşı mən necə nifrət bəsləyə bilərəm?”– Veronika çaşqın halda hisslərini yoxlayaraq, özünə sual verdi. Amma artıq gec idi: onun nifrəti sanki zəncirləri qırıb azadlığa çıxmışdı; Veronika öz şəxsi cəhənnəminin qapısını açmışdı.

Ona verilən məntiqsiz, qeyri-real və təbiətin qanunlarına zidd olan təmənnasız sevgiyə nifrət edirdi.

Əvəzində ondan heç bir şey tələb etməyən o məhəbbət onu özünü günahkar saymağa vadar etmiş, arzuladıqlarına çatmaqdan imtinaya səbəb olsa da, onu başqalarının gözləntilərinə uyğun yaşamağa məcbur etmişdi. Bu həmin o sevgi idi ki, dünyada mövcud olan korrupsiya və çətinlikləri illərcə ondan gizlətmişdi – bir gün onlar barədə öyrənəcəyini və onlara qarşı tamamilə müdafiəsiz qalacağını unudaraq...

Bəs atası? Atasına da nifrət edirdi, çünki hər zaman işləyən anasından fərqli olaraq, o, necə yaşamağı yaxşı bilirdi. Qızını barlara və teatra aparır və birlikdə vaxtlarını şən keçirirdilər. Atası hələ cavan olanda Veronika ona atası kimi yox, bir kişi


e-kitab.org

kimi gizlincə aşiq olmuşdu. Ona nifrət edirdi, ona görə ki, xoş münasibətə layiq yeganə insan Veronikanın anası olduğu halda, ondan başqa hamı ilə məlahətli və açıq davranırdı.

O, hər şeyə – həyatı izah edən kitablarla dolu kitabxanaya; müəllimləri və riyaziyyatçılardan başqa, riyaziyyatı bilməklə xoşbəxt olan bir nəfər də tanımasa belə, bütün gecələrini cəbr öyrənməklə keçirməyə onu məcbur edən məktəbə – nifrət edirdi. Niyə görə onları cəbr, həndəsə və digər faydasız şeyləri öyrənməyə vadar edirdilər?

Veronika zalın qapısını itələyib açdı, pianoya doğru gedib, onun qapağını qaldırdı və bütün gücünü toplayaraq, pianonun dillərinə güclü zərbə endirdi. Çılğın, ahəngsiz, cingiltili akkord bomboş zalda əks-səda verib, divarlardan sıçradı və şiddətli səs cildində sanki onun ruhunu dəlib keçdi. Amma bu onun ruhunun indiki portretini düzgün əks etdirirdi.

O, bir daha pianonun dillərinə zərbə endirdi və yenə də ahəngsiz səs ətrafına yayılaraq onu sardı.

– Mən dəliyəm. Bunu etməyə mənə icazə veriblər. Mən nifrət edə və pianoya zərbə endirə bilərəm. Haçandan bəri psixi xəstələr pianoda düzgün notlarla çala biliblər?

O, pianoya yenə də – bir, iki, on, iyirmi dəfə şiddətlə zərbə endirdi və hər dəfə onun nifrəti kiçilib, sonda tamamilə yox oldu.



e-kitab.org

Sonra bir daha dərin bir hüzur hissi Veronikanı bürüdü və o, yenə də otağı incə şəfəqlə işıqlandırmış ulduzlu səmaya və onun sevimlisi olan təzə aya baxdı. Kainatın Hüdudsuzluğu və Əbədiliyinin əl-ələ tutub getməsi təəssüratı yenə qayıtdı; onlardan yalnız birini – məsələn, ucsuz-bucaqsız Kainatı – axtarıb tapmalı idin ki, heç vaxt bitib-tükənməyən Zamanın mövcudluğunu hiss edəsən və həyatın sirlərinin gizləndiyi İndiki Anın varlığının fərqinə varasan.

Veronika palatadan zala tərəf gələrkən xalis nifrət hissi keçirirdi, amma indi ürəyində o kin-küdurətdən heç bir əsər-əlamət qalmamışdı. O, nəhayət ki, illərdir qəlbinin dərinliyində məhbus kimi qalmış mənfi hisslərin üzə çıxmasına icazə verdi. İndi o, həqiqətən də bu hissləri keçirdi və gərəksiz olduqları üçün artıq onlar onu tərk edib gedə bilərdilər.

Veronika sükut içərisində oturub, indiki anın varlığından həzz almağa çalışır və nifrət hissinin boş qoyub getdiyi yeri sevginin doldurmasına imkan verirdi. Vaxtı gələn kimi üzünü Aya tutub ona hörmətini izhar etmək üçün pianoda bir sonata ifa etdi, bilərək ki, ay onu dinləyir, onunla fəxr edir və bu da ulduzların onu qısqanmasına səbəb olur. Daha sonra isə o, ulduzlar, bağça və qaranlıqda görünməyən, amma orada olduğunu bildiyi dağlar üçün melodiyalar çaldı.

Bağça üçün musiqi çalarkən xəstəxanada yaşayan digər bir psixi xəstə


e-kitab.org

peyda oldu: bu, çarəsi tapılmayan şizofreniya xəstəsi Eduard idi. Onun orada olması Veronikanı qorxutmadı; əksinə, o gülümsədi və Eduardın da geri gülümsəməsi onu heyrətləndirdi.

Musiqi Eduardın hətta Aydan da uzaq olan daxili aləminə belə yol tapa bilmişdi; musiqi möcüzələr yaratmağa qadir idi.



e-kitab.org

# 12

* * *

“Gərək, təzə açar zənciri alım”, – Dr. İqor Viletdəki kiçik məsləhətxana otağına girərkən düşündü. Köhnəsi artıq parçalanmışdı və onun kiçik dekorativ metal qalxanı indicə əlindən yerə düşdü.

Dr. İqor aşağı əyilib onu yerdən götürdü. Üzərində Lyublyananın gerbi əks olunan bu qalxanla nə etməli? Onu ya ata, ya ustaya verib düzəltdirə və yeni dəri qayış vurdura, ya da ki oynamaq üçün qardaşı oğluna verə bilərdi. Lakin heç bir variant ağlına batmadı. Əvvəla, yeni açar zənciri elə də baha deyildi, bundan əlavə, qardaşı oğlu açar qalxanı ilə oynamazdı: o bütün vaxtını televizora baxmaqla və İtaliyadan idxal olunmuş elektronik oyuncaqlarla oynamaqla keçirirdi. Amma Dr. İqorun qalxanı atmağa ürəyi gəlmədi və onu cibinə qoydu: onunla nə etmək qərarını sonra da verə bilərdi.

Elə ona görə də o, işlədiyi xəstəxananın xəstəsi yox, oranın direktoru idi, çünki istənilən bir qərarı verməzdən əvvəl min ölçüb, bir biçirdi.

Qışda dan yeri getdikcə gec sökülür deyə, otağın işığını yandırdı. Yerdəyişmələr, boşanmalar və işığın azlığı depressiyaya düşənlərin sayının artmasına səbəb olan əsas amillərdən idi. Dr. İqor ümid edirdi ki, yaz tezliklə gəlib, onun problemlərinin yarısını həll edəcək.


e-kitab.org

Öz gündəliyini nəzərdən keçirdi. Eduardın aclıqdan ölməməsi üçün bir yol tapmalı idi. Şizofreniya onu gözlənilməz hərəkətlər etməyə məcbur edirdi, indi də iştahasının küsməsinə səbəb olmuşdu. Dr. İqor ona venadaxili qidalanma təyin etmişdi, amma bu, çox davam edə bilməzdi. Eduard iyirmi səkkiz yaşında gənc və güclü bir oğlan idi, amma hətta venadaxili damcıyla belə tədricən solub skeletə dönəcəkdi.

Onda Eduardın atası nə düşünəcəkdi? Atası gənc Sloveniya respublikasının ən tanınmış səfirlərindən, 1990-cı illərin əvvəlində Yuqoslaviya ilə gedən danışıqları aparanlardan biri idi. Düşmənlərə işləməkdə onu günahlandırıb hörmətdən salmağa çalışan əleyhdarlarının öhdəsindən gələrək, uzun illər Belqrad hökuməti üçün işləmişdi və hələ də diplomatik korpusda xidmət edirdi. Ancaq bu dəfə başqa ölkəni təmsil edirdi. O, hamı tərəfindən ehtiyat edilən qüdrətli və nüfuzlu bir şəxs sayılırdı.

Açar zəncirinin qalxanı üçün narahat olduğu kimi, Dr. İqor bir anlıq nigaran göründü, lakin tez fikrini yayındırdı. Səfirə gəldikdə isə, onun vecinə deyildi ki, oğlu yaxşı görsənəcək, ya yox. Onsuz da rəsmi tədbirlərə və hökumət təmsilçisi kimi göndərildiyi ölkələrə oğlunun onu müşayiət etməsi kimi bir niyyəti yox idi. Eduard Viletdə idi və həmişəlik olaraq və ya atası yağlı əməkhaqqı qazanmağa davam edənədək orada qalacaqdı.


e-kitab.org

Dr. İqor Eduarda verilən venadaxili qidalanmanı dayandırıb, onun bir az daha zəifləməsinə və bəlkə acıb iştahaya gəlməsinə imkan verdi. Vəziyyətin pisləşdiyi halda o bu haqda hesabat yazıb, məsuliyyəti Vileti idarə edən həkimlər şurasına ötürəcəkdi. Atası ona öyrətmişdi ki: "Bəladan qurtulmağın ən yaxşı yolu məsuliyyəti bölüşməkdir". O da həkim olmuşdu və əlində çox adam ölməsinə baxmayaraq, onun hakimiyyət sahibləri ilə heç vaxt problemləri olmamışdı.

Dr. İqor Eduardın müalicəsinin dayandırılması əmrini verdikdən dərhal sonra növbəti məsələyə keçdi. Hesabata əsasən, Zedka Mendel müalicəsini bitirmişdi və evə buraxıla bilərdi. Dr. İqor onu özü görmək istəyirdi. Bir həkimin ən çox qorxduğu hal Viletdə olmuş xəstələrin ailələrindən şikayət eşitmək idi. Bu da, demək olar ki, həmişə baş verirdi. Çünki bir müddət psixi xəstəxanada müalicə olunmuş xəstələr çox nadir hallarda yenidən normal həyata uyğunlaşa bilirdilər.

Bu, o xəstəxananın və ya dünyanın hər yerinə səpələnmiş digər xəstəxanaların günahı deyildi; normal həyata yenidən alışma problemi hər yerdə eyni idi. Necə ki həbsxana heç vaxt məhbusu düzəltmir – əksinə, ona daha çox cinayət törətməyi öyrədir – eləcə də xəstəxanalar xəstələri hər şeyə icazə verildiyi və heç kimin öz hərəkətləri üçün məsuliyyət daşımalı olmadığı tamamilə qeyri-real bir aləmdə


e-kitab.org

yaşamağa alışdırırdılar.

Yalnız bir çıxış yolu var idi: dəliliyin çarəsini tapmaq. Və Dr. İqor ağlını və ürəyini bu işə həsr etmiş və psixiatriya dünyasında inqilaba səbəb olacaq dissertasiya üzərində işləyirdi. Psixi xəstəxanalara müvəqqəti olaraq təyin edilmiş xəstələr müalicəsi olmayan xəstələrlə yanbayan yaşayanda, onlarda ictimai degenerasiya prosesi başlayır ki, bu da başladısa, dayanmaq bilmir. Məsələn, Zedka Mendel bu dəfə öz iradəsi ilə və mövcud olmayan xəstəlikdən şikayət edərək yenidən xəstəxanaya qayıdacaqdı. Çünki xəstəxanada olan insanlar onu kənar dünyadakı insanlardan daha yaxşı başa düşürdülər və ona görə də o, onlara yaxın olmaq istəyirdi.

Dr. İqor inanırdı ki, dəliliyin səbəbi "vitriol" adlanan zəhərdir və əgər onunla mübarizə aparmaq yolunu tapsaydı, adı tarixə düşər və hamı da, nəhayət ki, Sloveniyanın harada olduğunu öyrənərdi.

Həmin həftə intihar etmək arzusunda olan insan şəklində ona göydəndüşmə bir şans verilmişdi ki, dünyanın heç bir puluna bu imkanı dəyişməzdi.

Dr. İqor özünü məsud hiss etdi. Baxmayaraq ki, tibb peşəsi tərəfindən çoxdan mühakimə edilən insulin şoku kimi müalicələri iqtisadi səbəblərdən ötrü qəbul etməyə məcbur olmuşdu, elə eyni iqtisadi səbəblər də Vileti yeni psixiatriya müalicəsi tətbiq etməyə təhrik etmişdi. "Vitriol"


e-kitab.org

üzərində tədqiqat aparmağa həm vaxtı, həm də işçiləri var idi və eyni zamanda, özünü "Qardaşlıq" adlandıran qrupun xəstəxanada qalması üçün xəstəxana sahiblərindən icazə də almışdı. İnstitutun səhmdarları xəstələrin lazım olan vaxtdan daha çox müddətə xəstəxanada qalmasına dözürdülər – burada "dözürdülər" sözünü xüsusi qeyd etmək lazımdır. Onların arqumenti bundan ibarət idi ki, humanitar səbəblərə görə yenicə sağalmış xəstələrə imkan verilməli idi ki, onlar nə zaman xəstəxananı tərk etmək qərarını özləri versinlər. Bu da bir qrup insanın Viletdə qalmasına gətirib çıxarmışdı və sanki onlar oxşar maraqları və baxışları olan seçmə otelin və ya klubun üzvləri idilər. Beləliklə, Dr. İqor xəstələrlə qeyri-xəstələri bir yerdə saxlamağa nail olmuş, ikincilərin birincilərə müsbət təsir etməsinə imkan yaratmışdı. İşin korlanmasının qarşısını almaq və hələ müalicə keçənlərin artıq sağalmışlara mənfi təsir göstərməsinə mane olmaq üçün "Qardaşlığ"ın hər bir üzvü gündə ən azı bir dəfə xəstəxananı tərk etməli idi.

Dr. İqor yaxşı başa düşürdü ki, sağlam insanların xəstəxanada qalmasına icazə vermək üçün səhmdarların gətirdiyi səbəblər – onları "humanitar səbəblər" adlandırırdılar – sadəcə, bəhanələr idi. Əslində isə Sloveniyanın kiçik, lakin cazibəli paytaxtı olan Lyublyanada kifayət qədər varlı dəli yox idi ki, bu müasir və bahalı binanı saxlaya bilsin. Bundan savayı, dövlət


e-kitab.org

səhiyyə sisteminin bir neçə birinci dərəcəli psixi xəstəxanaları var idi və bu da Vileti əqli sağlamlıq bazarında əlverişsiz mövqedə qoyurdu.

O vaxtı, səhmdarlar köhnə kazarmaları xəstəxanaya çevirəndə, onların hədəfi Yuqoslaviya ilə müharibədə zərər alacaqlarını təxmin etdikləri qadın və kişilər idi. Lakin müharibə çox uzun sürmədi. Onlar müharibənin yenə də baş verəcəyini düşünsələr də, bunun əksi oldu.

Aparılmış son tədqiqatlar göstərirdi ki, müharibələrin öz psixi qurbanları olmasına rəğmən, onların sayı stresin, hədsiz yorğunluğun, anadangəlmə xəstəliyin, tənhalığın və rədd edilmənin qurbanlarının sayından qat-qat azdır. Cəmiyyət böyük bir problemlə, məsələn, müharibə, inflyasiya, yoluxucu xəstəliklə üzləşdikdə intiharların sayı çox az miqdarda qalxsa da, depressiya, paranoya və psixoz xəstələrinin sayı əhəmiyyətli dərəcədə azalırdı. Problem həll olunan kimi bunlar öz əvvəlki səviyyələrinə qayıdırdı. Dr. İqorun fikrincə, bu onu göstərirdi ki, insanlar yalnız mümkün olduğu halda özlərinə dəli olmaq imkanı verirlər.

Onun qarşısında bu dəfə Kanadadan olan və yenicə aparılmış daha bir sorğu var idi – o ölkədən ki, bir Amerika qəzeti orada ən yüksək həyat şəraitinin olmasına səs vermişdi. Dr. İqor oxudu:

Kanada statistikasına əsasən, 15-34 yaşları arasında olan insanların 40%-i, 35-



e-kitab.org

54 yaşları arasında olan insanların 33%-i və 55-64 yaşları arasında olan insanların 20%-i artıq hansısa əqli problemlərlə üzləşmişdir. Təxmin olunur ki, hər beş şəxsdən biri psixoloji xəstəliklərdən bu və ya digər formada əziyyət çəkir və hər səkkiz kanadalıdan biri həyatı boyu ən azı bir dəfə ruhi pozğunluğa görə psixi xəstəxanaya yerləşdiriləcək.

"Onların bazarı bizimkindən böyükdür, – o düşündü. – İnsanların rifahı artdıqca, özlərini daha az xoşbəxt hiss edirlər".

Dr. İqor daha bir neçə xəstənin işinə baxıb, hansıların şura ilə bölüşəcəyi, hansıların isə özü tək həll edəcəyi barədə ehtiyatla düşündü. İşləri bitirdikdə artıq dan yeri sökülmüşdü. O, otağın işığını söndürdü.

Elə həmin dəqiqə də görüşə gəlmiş şəxsi qəbul etmək əmrini verdi: bu, intihara cəhd etmiş xəstənin anası idi.

– Mən Veronikanın anasıyam. Qızım necədir?

Dr. İqor bir anlıq düşündü ki, həqiqəti deyib, qadını hər hansısa xoşagəlməz sürprizdən xilas etsin – ən azından ona görə ki, onun da eyni adlı qızı var idi. Lakin sonra heç nə deməməyin ən yaxşı yol olduğunu qət etdi.

– Hələ bilmirik, – o yalandan söylədi. – Bizə daha bir həftə lazımdır.

– Heç başa düşmürəm Veronika niyə belə edib, – qadın göz yaşları içində dedi. – Biz onu sevən valideynlər olmuşuq, ona


e-kitab.org

mümkün olan ən yaxşı tərbiyəni vermək üçün özümüzü fəda etmişik. Həyat yoldaşımla münasibətlərimizdə eniş-yoxuşlar olsa da, ailəmizi dağıtmamışıq ki, ona bədbəxtlik baş verəndə dözümlü olmaq nümunəsi göstərək. Yaxşı işi var, yaraşıqlıdır, ancaq...

– ...Ancaq o özünü öldürməyə cəhd edib, – deyə Dr. İqor qadının sözünü tamamladı. – Təəccüblənməyə heç bir əsas yoxdur; bu belədir. İnsanlar, sadəcə, xoşbəxtliklə bacara bilmirlər. İstəyirsinizsə, Kanadanın statistikası ilə sizi tanış edə bilərəm.

– Kanada?

Qadın heyrətləndi. Dr. İqor gördü ki, onun diqqətini yayındıra bilib və sözünə davam etdi.

– Baxın, siz buraya qızınızın necə olduğunu öyrənmək üçün deyil, intihara cəhd etdiyi üçün üzrxahlığa gəlmisiniz. Onun neçə yaşı var?

– İyirmi dörd.

– Demək, o, nə istədiyini bilən, yetkin və təcrübəli qızdır və müstəqil şəkildə seçimlər etməyə tamamilə qadirdir. Sizin evliliyinizin və ya yoldaşınızla birgə hansısa fədakarlıqlarınızın ona nə dəxli var? Tək yaşadığı nə qədər müddətdir?

– Altı ildir.

– Görürsünüz? Fundamental olaraq, o müstəqildir. Lakin bir avstriyalı həkimin – yəqin ki, Dr. Ziqmund Freyd haqqında eşitmisiniz – valideynlərlə onların övladları arasında qeyri-sağlam


e-kitab.org

münasibətlər barədə yazdıqlarına əsasən, insanlar bu günə qədər hər şeydə özlərini təqsirkar bilirlər. Mümkündürmü ki, hindistanlılar cinayətkara dönmüş oğullarının valideynlərin verdiyi tərbiyənin qurbanı olduğuna inansınlar? Necə fikirləşirsiniz?

– Heç bir fikrim yoxdur, – həkimin davranışından çaşıb qalan qadın cavab verdi. Bəlkə də xəstələri ona təsir etmişdilər.

– İcazə verin, sizə danışım, – Dr. İqor dedi. – Hindistanlılar bir cinayətə görə cəmiyyəti, cinayətkarın valideynlərini və ya onun əsil-nəcabətini günahlandırmırlar; onlar günahı məhz cinayətkarın özündə görürlər. Ya da ki, yaponları götürək. Oğul narkotika qəbul edib adamları güllələyəndə onun valideynləri intihar edirlərmi? Cavab eynidir: yox! Hamımıza yaxşı məlumdur ki, yaponlar bir göz qırpımında intihar edərlər. O gün oxuyurdum ki, cavan bir yapon oğlan universitetə qəbul imtahanlarından keçmədiyi üçün həyatına son qoymuşdur.

– Sizcə, qızımla danışa bilərəm? – yapon, hindistanlı və kanadalılarla maraqlanmayan qadın soruşdu.

– Hə, hə, bu dəqiqə, – sözü kəsildiyinə görə bir qədər qıcıqlanan Dr. İqor cavab verdi. – Amma öncə bir şeyi başa düşmənizi istəyirəm: bəzi patoloji hallardan savayı insanlar yalnız vərdiş etdikləri həyat tərzindən qaçmağa cəhd etdikləri zaman



e-kitab.org

dəli olurlar. Başa düşürsünüz?

– Bəli, – deyə qadın cavab verdi. – Və əgər düşünürsünüzsə ki, qızımın qeydinə qala bilməyəcəyəm, sizi əmin edirəm, mən heç vaxt həyatımı dəyişməyə cəhd etməmişəm.

– Çox yaxşı. – Dr. İqor rahatlaşdı. – Məsələn, hər gün eyni şeyləri təkrar etməyə məcbur olmadığımız bir dünyanı xəyalınıza gətirə bilərsiniz? Və ya, məsələn, əgər istədiyimiz vaxt nahar etmək qərarına gəlsəydik, onda evdar qadınlar və restoranlar nə edərdilər?

"Haçan acsaq, onda yemək yeməyimiz daha normal olardı", – deyə qadın düşündü, lakin həkimin ona Veronika ilə danışmağa icazə verməməsindən qorxub dillənmədi.

– Bu, böyük çaşqınlığa səbəb olardı, – qadın, nəhayət, ki, dedi. – Mən özüm evdar qadınam və nə danışdığımı yaxşı bilirəm.

– Demək, biz səhər, günorta və axşam yemək yeyirik. Hər gün müəyyən saatda oyanmalı və həftənin bir günü istirahət etməliyik. Milad bayramı bir-birimizə hədiyyə vermək üçün, Pasxa bayramı isə göldə bir neçə gün vaxt keçirmək üçün mövcuddur. Əgər yoldaşınız birdən ehtirasdan coşub, qonaq otağında sizinlə məhəbbətlə məşğul olmaq istəsəydi, xoşunuza gələrdi?

Qadın öz-özünə düşündü: "Bu kişi nə danışır? Mən buraya öz qızımı görməyə gəlmişəm".

– Məncə, bu çox ürəkağrıdan hal olardı,


e-kitab.org

– düzgün cavaba ümid edən qadın ehtiyatla cavab verdi.

– Əla! – deyə Dr. İqor bağırdı. – Məhəbbətlə yataq otağında məşğul olmaq lazımdır. Digər yerdə məhəbbətlə məşğul olmaq pis nümunəyə və özbaşınalığın yayılmasına səbəb ola bilər.

– Qızımı görə bilərəm? – qadın yenə də soruşdu.

Dr. İqor qadından əlini üzdü. Bu kəndli onun nə danışdığını heç vaxt anlaya bilməzdi; qızının intihara cəhd etdiyini və komada yatdığını bilsə belə, dəliliyin fəlsəfi tərəfini müzakirə etməkdə onun heç bir marağı yox idi.

O, zəngi çaldı və katibəsi peyda oldu.

– İntihara cəhd edən gənc qızı çağırın, – dedi. – Sloveniyanın adını xəritədə yerləşdirmək üçün özünə qəsd etdiyini qəzetlərə yazan qızı.


e-kitab.org

# 13

* * *

“Onu görmək istəmirəm. Kənar aləmlə bütün əlaqələrimi kəsmişəm”.

İstirahət otağında, hamının yanında bunu demək çətin idi. Amma heç tibb bacısı da ehtiyatla davranmamış və sanki hamıya aid bir məsələymiş kimi, anasının onu gözlədiyini ucadan elan etmişdi.

Veronika anasını görmək istəmirdi; görüşmək hər ikisini məyus edəcəkdi. Yaxşı olardı ki, anası qızının ölmüş olduğunu düşünsün. Veronika əlvida deməyi heç vaxt sevməmişdi.

Oğlan haradan gəlmişdisə, oraya da getdi və Veronika dağları seyr etməyə davam etdi. Bir həftə sonra günəş, nəhayət ki, çıxmışdı və o bunun baş verəcəyini keçən axşam öyrənmişdi; piano çalarkən Ay özü bunu ona demişdi.

“Yox, bu, dəlilikdir, mən ağlımı itirirəm. Planetlər danışmırlar və ya ancaq özlərini astroloq adlandıran kəslərlə danışırlar. Əgər Ay kiminləsə danışırsa, demək, həmin kimsə şizofrenikdir”.

Bu barədə düşünən kimi sinəsində sərt bir ağrı hiss etdi və dərhal qolu keyidi. Veronikanın başı gicəllənməyə başladı. Bu, ürəktutması idi!

Veronika bir növ eyforiyaya qapıldı, sanki ölüm onu ölmək qorxusundan xilas etmişdi. Demək ki, hər şey bitmişdi. Hələ bir az ağrı çəkə bilərdi, amma əbədi hüzurla



e-kitab.org

müqayisədə beş dəqiqəlik ölüm əzabı nə idi ki? Verə biləcəyi yeganə reaksiya gözlərini yummaq idi; baxdığı filmlərdə ən çox zəhləsi getdiyi şey gözləri bərəlmiş ölüləri görmək idi.

Lakin keçirdiyi ürəktutması təsəvvür etdiyindən fərqli idi; nəfəs alması ağırlaşdı və Veronika dəhşət içərisində anladı ki, indi ən çox qorxduğu şey – boğulma baş verəcəkdir. Sanki diri-diri basdırılmış və ya dənizin ortasına atılıbmış kimi öləcəkdi.

Ayağı dolaşdı, kəskin zərblə üzü üstə yerə yıxıldı və nəfəs ala bilmək üçün var gücü ilə səy göstərdi, lakin hava içəri daxil olmadı. Ən pisi isə bu idi ki, ölüm gəlmirdi. Ətrafında baş verənləri tamamilə anlayırdı. Hərçənd başqalarının nə dediklərini eşitməkdə çətinlik çəkirdi, amma rəngləri və ölçüləri seçə bilirdi. Sanki başqa aləmdən gəlirmiş kimi qışqırıq və haray səsləri uzaqdan eşidilirdi. Bundan başqa isə hər şey çox real idi: ciyərləri və əzələləri əmrinə itaət etmir, hava ciyərlərinə daxil olmurdu ki, olmurdu və o, hələ də huşunu itirməmişdi.

Kiminsə qoluna toxunub onu çevirdiyini hiss etdi, amma indi gözlərinin hərəkəti üzərindəki nəzarəti itirmişdi. Gözləri durmadan dəlicəsinə hər istiqamətdə hərəkət edir, beyninə yüzlərlə fərqli surət göndərərək, boğulma və vizual çaşqınlıq hisslərini bir-birinə qarışdırırdı.

Bir az sonra surətlər də uzaqlaşmağa başladı və nəhayət, çəkdiyi əzab öz


e-kitab.org

zirvəsinə çatanda hava sürətli şəkildə ciyərlərini doldurmağa başladı. Çıxardığı dəhşətli səs otaqda olan hər kəsi qorxudan iflic vəziyyətinə salmışdı.

Veronika bolluca qusmağa başladı. Faciəvi an keçdikdən sonra orada olan bəzi xəstələr qəhqəhə çəkib gülməyə başladılar və o özünü alçalmış, itkin və iflic hiss etdi.

Tibb qardaşı qaçaraq gəlib, onun qoluna iynə yeritdi.

– Hər şey qaydasındadır, sakitləş, hər şey keçib getdi.

– Mən ölmədim! – deyə sürünə-sürünə digər xəstələrə doğru gedən və hər yeri qusuntu ilə batıran Veronika bağırdı. – Hələ də bu lənətə gəlmiş xəstəxanada sizinlə yaşamağa məcburam. Hər gün, hər gecə min dəfə ölüb-dirilirəm, amma heç birinizin bir qram belə mənə yazığı gəlmir.

Sonra o, tibb qardaşına sarı dönüb, şprisi onun əlindən aldı və bağçaya tərəf tulladı.

– Bəs sən nə istəyirsən? Ölümə məhkum olduğum halda, niyə mənə zəhərli iynə vurmursan? Necə belə daşürəkli ola bilərsən?

Veronika iradəsini tamamən itirib, yenidən döşəmədə oturdu, qışqıra-qışqıra, ucadan hıçqırmaqla, dayanmadan hönkür-hönkür ağlamağa başladı. Bu zaman başqa xəstələr ona gülüb, bulaşmış paltarlarına söz atdılar.

– Ona sakitləşdirici verin, – ora tələsik çatan bir həkim dedi. – Vəziyyəti nəzarət



e-kitab.org

altına alın.

Tibb qardaşı isə yerindəcə donub qalmışdı. Həkim çölə çıxıb, daha iki tibb qardaşı və başqa şprislə geri qayıtdı. Tibb qardaşları otağın ortasında mücadilə edən qızı tutdular və həkim qızın qusuntu ilə kirlənmiş qolundakı damarına sakitləşdiricinin son damcısını yeritdi.



e-kitab.org

# 14

* * *

Veronika Dr. İqorun məsləhətxana otağında, üzərində təmiz döşəkağı olan səliqəli çarpayıda uzanmışdı.

Dr. İqor onun ürəyinə qulaq asırdı. Veronika özünü yuxuluğa vurmuşdu, amma həkimin dodaqaltı danışıqlarından başa düşdü ki, ürəyində nəsə dəyişiklik baş vermişdir:

– Narahat olma, bu cür səhhətlə yüz il yaşaya bilərsən.

Veronika gözlərini açdı. Kimsə onu soyundurmuşdu. Bunu kim etmişdi? Dr. İqor? Demək, onu çılpaq görmüşdü?

Başı düz-əməlli işləmirdi.

– Nə dediniz?

– Dedim, narahatlığa ehtiyac yoxdur.

– Yox, axı dediniz ki, yüz il yaşaya bilərəm.

Dr. İqor masasına tərəf getdi.

– Yüz il yaşaya biləcəyimi dediniz, – Veronika təkrar etdi.

– Tibdə heç nə dəqiq bilinmir, – Dr. İqor ört-basdır etməyə çalışdı. – Hər şey mümkündür.

– Ürəyim necədir?

– Elə olduğu kimi.

Veronika daha heç nə eşitmək istəmədi. Vəziyyəti ciddi olan xəstə ilə üzləşəndə həkimlər həmişə deyirlər: “Yüz il ömrün var”, “Ciddi heç bir şey yoxdur” və ya “Qan təzyiqin və ürəyin cavan qızınkı kimi


e-kitab.org

işləyir", ya da ki, "Bir də testlər etməliyik". Yəqin qorxurlar ki, məsləhət otağında xəstə həyəcandan ağlını itirər.

O, ayağa qalxmağa cəhd etdi, amma bacarmadı; bütün otaq yellənınəyə başladı.

– Bir az daha uzan, ta ki, özünü yaxşı hiss edəsən. Məni narahat etmirsən.

"Ah, nə yaxşı! – Veronika düşündü. – Bəs etsəydim necə?"

Təcrübəli terapevt olduğu üçün Dr. İqor bir müddət sakit qalıb, yalandan özünü masa üstündəki kağızları oxuyurmuş kimi göstərdi. Biz digər insanlarla bir yerdə olanda və onlar heç bir söz danışmadıqda, ortam bir qədər bezikdirici, gərgin və dözülməz olur. Dr. İqor qızın danışmağa başlayacağına ümid edirdi ki, o da öz tezisi üçün dəlilik və üzərində işlədiyi müalicə haqqında daha çox məlumat toplaya bilsin.

Lakin Veronika heç bir kəlmə də danışmadı. "Ola bilər, yüksək dərəcəli vitriol zəhərlənməsi ona əziyyət verir"– deyə Dr. İqor düşündü və artıq bezikdirici, gərgin və dözülməz olmağa başlayan sükutu pozmağa qərar verdi.

– Hə, demək, piano çalınağı xoşlayırsan, – bacardığı qədər soyuq danışmağa çalışan Dr. İqor söz atdı.

– Hə, xəstələrin də xoşuna gəlir. Dünən bir oğlan heyrətdən donmuş şəkildə durub dinləyirdi.

– Onun adı Eduarddır. Kiməsə deyib ki, çox xoşuna gəlib. Kim bilir, bəlkə yenidən normal yeməyə başlayar.


e-kitab.org

– Şizofrenik musiqini bəyənib? Hələ bu haqda kiməsə də danışıb?

– Bəli və mənə elə gəlir ki, sən nə danışdığını bilmirsən.

Daha çox xəstəyə bənzəyən və saçları qara rəngə boyanmış həkim haqlı idi. Veronika "şizofrenik" sözünü çox eşitmişdi, amma bunun nə demək olduğunu bilmirdi.

– Bəs onun necə, çarəsi var? – şizofreniklər barədə daha çox öyrənmək üçün soruşdu.

– Xəstəliyi nəzarət altında saxlamaq olar. Biz anormallıq dünyasında nə baş verdiyini hələ də tam dəqiq bilmirik. Hər şey hələ çox təzədir və müalicə metodları hər on ildən bir dəyişir. Şizofrenik özünü bu dünyadan təcrid etməyə təbii meyli olan şəxsə deyilir. Və bu proses o vaxtadək davam edir ki, fərdi şəraitdən asılı olaraq, bəzən ciddi, bəzənsə səthi bir faktor onu öz şəxsi reallığını yaratmağa məcbur edir. Bu da "katatoniya" adlanan özgələşmə halına gətirib çıxara bilər. Amma bəzən insanlar bu xəstəlikdən sağala bilir və ən azından işləməyə və demək olar ki, normal həyat sürməyə nail olurlar. Bu yalnız bir amildən, onların düşdüyü şəraitdən asılıdır.

– Deyirsiniz, onlar öz reallıqlarını yaradırlar? – Veronika soruşdu. – Bəs reallıq nə deməkdir?

– Reallıq – əksəriyyət onu necə qəbul edirsə, odur. O, ən yaxşı və ya ən məntiqli olmaya bilər, amma reallıq cəmiyyətin ümumi istəklərini əks etdirir. Boynumun


e-kitab.org

ətrafına dolanan bu parçanı görürsən?

– Qalstukunuzu nəzərdə tutursunuz?

– Doğrudur. Sənin cavabın tamamilə normal bir insanın verə biləcəyi məntiqli və əlaqəli cavabdır. Əlbəttə, bu qalstukdur! Lakin anormal insan isə deyərdi ki, mən boynumu gülünc, lazımsız və rəngli parça ilə mürəkkəb şəkildə sarımışam ki, bu da ciyərlərimə hava getməsini daha da çətinləşdirir və boynumu rahatca döndərməmə imkan vermir. Sərinkeşin yanında olarkən ehtiyatlı olmalıyam, yoxsa bu parça boğulmağıma səbəb ola bilər.

Əgər bir dəli bu qalstukun nə olduğunu soruşsa, mən ona qətiyyən heç nə deməməliyəm. Qalstuk daha sırf bəzək üçün istifadə olunmur, indiki zəmanədə o, köləliyi, hakimiyyəti və etinasızlığı simvolizə edir. Onun yeganə faydalı funksiyası evə gəlib onu boynundan çıxardıqdan sonra sənə rahatlıq duyğusu bəxş etməsidir; sanki özünü səbəbini bilmədiyin bir şeydən azad etdiyini hiss edirsən.

– Bəs o rahatlıq duyğusu qalstukun mövcudluğuna bəraət qazandırırmı?

– Xeyr. Amma mən normal və anormal insandan bunun nə olduğunu soruşası olsam, normal insan deyəcək ki, bu qalstukdur. Kimin düz dediyinin fərqi yoxdur, əsas kimin haqlı olmasıdır.

– Demək, rəngli bir parça tikəsinə düzgün ad verdiyimə görə siz elə nəticəyə gəldiniz ki, mən dəli deyiləm?



e-kitab.org

“Yox, sən dəli deyilsən”,– deyə Dr. İqor düşündü. O, bu mövzu üzrə aparıcı mütəxəssis idi və məsləhətxana otağındakı divarlarda müxtəlif diplomlar asılmışdı. Öz həyatına son qoymağa cəhd etmə insan övladına xas olan xüsusiyyət idi: o, xəstəxanadan kənarda yaşayan və sadəcə olaraq, qalmaqallı yol olan intiharı seçməyib, özünü məsum və normal göstərən çoxlu elə insan tanıyırdı. Onlar özlərini Dr. İqorun “vitriol” adlandırdığı maddə ilə zəhərləyərək, tədricən öldürürdülər.

Vitriol – zəhərli maddə idi və Dr. İqor söhbət etdiyi qadın və kişilərdə bu maddənin olmasının simptomlarını müəyyən etmişdi. İndi isə bu mövzu barədə dissertasiya yazırdı və onu Sloveniya Elmlər Akademiyasına nəzərdən keçirilmək üçün təqdim edəcəkdi. Bu, anormallıq sahəsində atılan ən vacib addım idi. Belə ki, ondan əvvəl tarixdə ilk dəfə olaraq Dr. Filip Pinel psixi xəstələrin zəncirlərdən azad edilməsi əmrini vermiş və onun bəzi xəstələrin hətta müalicə olunması fikri tibb dünyasının böyük heyrətinə səbəb olmuşdu.

Libido kimi – Dr. Ziqmund Freyd tərəfindən kəşf edilmiş, lakin heç bir laboratoriya tərəfindən ayrılmamış, seksual istəyə səbəb olan kimyəvi reaksiyadır – vitriol da vahiməli situasiyaya düşən zaman insan orqanizmi tərəfindən ifraz olunan, amma hələ ki, spektoqrafik testlərdən keçməmiş maddədir. Lakin bu maddəni


e-kitab.org

dadına görə müəyyən etmək olardı; onun nə şirin, nə də duzlu olan, acı dadı var idi. Bu məhvedici maddənin hələ tanınmayan ixtiraçısı olan Dr. İqor bu maddəyə ona görə zəhər adını vermişdi ki, qədimlərdə müxtəlif imperatorlar, krallar və aşiqlər onlara mane olan insanları vitriol ilə zəhərləməklə aradan götürürdülər.

Kralların və imperatorların yaşadığı qızıl dövrlərdə insanlar romantik şəkildə yaşaya və ölə bilirdilər. Qatil öz qurbanını füsunkar şam yeməyinə dəvət edir, qulluqçu nəfis badələrdə onlara içki süzür və qədəhlərin birində vitriol olurdu. Həlak olacaq şəxsin etdiyi hər bir jest – qədəhi qaldırması, bir neçə incə və ya aqressiv söz deməsi, sanki çox tamlı dada malik içkini içməsi, şam yeməyi sahibinə son dəfə diksinmiş nəzərlə baxması və sonda döşəmə üzərinə yıxılmasının doğurduğu həyəcanı təsəvvürünüzə gətirin.

Amma indi çox baha başa gələn və tapılınası mürəkkəb olan bu zəhər artıq daha etibarlı məhvetmə metodları ilə əvəz olunmuşdu – tapança, bakteriya və s. Xalis romantik olan Dr. İqor bu adı qeybdən xilas edib, insanların qəlbinin xəstələnməsi diaqnozuna vermişdi və onun bu kəşfi tezliklə bütün dünyanı silkələyəcəkdi.

Qəribəsi bu idi ki, heç kim vitriolu ölümcül zəhər kimi təsvir etməmiş, lakin ondan zərər çəkmiş insanlar onun dadını müəyyən edə bilmiş və zəhərlənmə prosesinə "acı" deyə müraciət etmişdilər. Az


e-kitab.org

və ya çox dərəcədə hər bir kəsdə bir qədər küskünlük vardır, necə ki, hamımız vərəm çöplərinin daşıyıcılarıyıq. Lakin bu iki xəstəliyə insan yalnız zəiflədikdə düçar olur; küskünlük xəstəliyinin baş qaldırması üçün ən münasib şərait isə insanın reallıqdan qorxduğu zaman yaranır.

Müəyyən insanlar özləri üçün xarici təsirlərin daxil ola bilmədiyi aləm qurmaq cəhdilə kənar dünyaya, yeni insanlara, yeni yerlərə, fərqli həyat təcrübələrinə qarşı həddən artıq yüksək sədlər qurur və daxili aləmlərini tamamilə boş saxlayırlar. Elə həmin yerdəcə küskünlük öz bərpaolunmaz işini görməyə başlayır.

Küskünlüyün (və ya Dr. İqorun "vitriol" adlandırdığı maddənin) əsas hədəfi iradə idi. Səbəbi bilinməyən bu xəstəliyə tutulan insanlar həyata olan bütün maraqlarını itirməyə başlayır və ətraflarına hündür sədlər çəkməklə, özləri üçün reallıq yaratmaqdan ötrü hədsiz dərəcədə böyük enerji sərf edirdilər. Bir neçə ildən sonra isə onlar yaratdıqları bu dünyanı tərk etməyi bacarmırdılar.

Xarici hücumlardan qaçmaq üçün onlar qəsdən öz daxili inkişaflarının qarşısını alırdılar. Onlar işə getməyə, televizora baxmağa, dünyaya uşaqlar gətirməyə, nəqliyyatdan şikayət etməyə davam edirdilər, lakin bütün bunlar heç bir xüsusi emosiyanın müşayiəti olmadan, avtomatik surətdə baş verirdi, onlara görə axı hər şey nəzarət altında idi.


e-kitab.org

Küskünlükdən zəhərlənmənin ən böyük problemi isə bu idi ki, nifrət, məhəbbət, ümidsizlik, ilham və maraq kimi güclü emosiyalar həmin insanda daha özlərini büruzə vermirdilər. Bir müddətdən sonra küskün insanın həyat şövqü yox olurdu. Artıq onun ölməyə və ya yaşamağa iradəsi qalmırdı və bəla da elə burasında idi.

Buna görədir ki, küskün insanlar həmişə qəhrəmanlara və divanələrə məftun olurlar, çünki bu cür insanlar yaşamaqdan və ya ölümdən qorxmurlar. Həm qəhrəmanlar, həm də divanələr təhlükəyə qarşı laqeyd olurlar və digər insanların nə deməklərindən asılı olmayaraq, irəli gedirlər. Divanə insan intihar edir, qəhrəman isə mübarizə apardığı məqsəd uğrunda şəhid olur, lakin sonda hər ikisi ölür və küskün insan gecə və gündüzlərini hər ikisinin ağılsızlığını və təntənəsini qeyd etməklə keçirir. Bu, yeganə andır ki, küskün insan ətrafında ucaltdığı qoruyucu divarlara dırmaşır, özündə enerji tapıb kənar dünyaya göz gəzdirir. Lakin tezliklə, əl-ayağı yorulduqdan sonra o öz gündəlik həyatına qayıdır.

Xroniki olaraq küskün insan öz xəstəliyini həftədə yalnız bir dəfə – bazar günləri, günorta vaxtı hiss edir. Simptomların yüngülləşməsinə səbəb olan iş və ya hansısa rejim olmadığı üçün, o, ancaq o zaman böyük bir problemin mövcudluğunu başa düşür. Çünki bitib-tükənməz günortaların gətirdiyi sakitlik


e-kitab.org

onun üçün cəhənnəm əzabına bərabərdir və o, durmadan şiddətli əsəb hissi keçirir.

Hərçənd bazar ertəsi gələn kimi küskün insan simptomlarını unudur, lakin istirahət etməyə vaxt çatdırmadığını lənətləyir və həftəsonlarının həmişə çox sürətlə keçməsindən şikayətlənir.

İctimai nöqteyi-nəzərdən bu xəstəliyin yeganə mənfəəti onun artıq normaya çevrilməsidir və yalnız küskün insanın davranışları digər insanlara həddən artıq mənfi təsir göstərməyə başlayanda onun xəstəxanada yatmasına ehtiyac olur. Fəqət küskün insanların əksəriyyəti cəmiyyət və digər insanlar üçün təhlükə yaratmadan yaşamağa davam edirlər, çünki onlar özlərini hündür divarlarla əhatəyə alıb, ətraf aləmdən tamamilə təcrid edir və elə davranırlar ki, guya digərlərinin həyatlarında iştirak edirlər.

Dr. Ziqmund Freyd libidonu və psixoanaliz şəklində onun müalicəsini kəşf etmişdi. Vitriolun mövcudluğunu aşkar etməkdən savayı, Dr. İqor onun müalicəsinin olduğunu da sübut etməli idi. O, tibb tarixində öz izini qoymaq istəyirdi, baxmayaraq ki, öz ideyalarını nəşr etdirdikdən sonra üzləşəcəyi problemləri təsəvvürünə belə gətirmirdi. Belə ki, "normal" insanlar həyatlarından razı idilər və belə bir xəstəliyin onlarda olmasını heç vaxt etiraf etməzdilər. Eyni zamanda, "xəstələr" psixi xəstəxanaları, laboratoriyaları, elmi konfransları və s.-dən


e-kitab.org

ibarət olan nəhəng bir sənayeni yedizdirməyə davam etməli idilər.

"Bilirəm ki, dünya mənim əməyimi qiymətləndirməyəcək", – o, anlaşılmaz qürur içində öz-özünə dedi. Axı hər bir dahini bu aqibət gözləyirdi!

– Nəsə baş verib? – deyə qız soruşdu. – Elə bil öz xəstələrinizin aləminə getmişdiniz.

Dr. İqor bu nəzakətsiz şərhi qulaqardına vurdu.

– İndi gedə bilərsən, – deyə cavab verdi.


e-kitab.org

# 15

* * *

Veronika gecə və ya gündüz olmasını ayırd edə bilmədi. Dr. İqor otağın işığını yanılı saxlamışdı, amma o, hər səhər belə edirdi. Ancaq dəhlizə çıxıb ayı görəndə anladı ki, düşündüyündən də çox yatıbmış.

Palataya qayıdarkən divarda asılmış çərçivəli bir fotoşəkil gördü: bu, şair Preserenin heykəli qoyulmazdan öncə Lyublyananın əsas meydanının şəkli idi: orada cütlüklər gəzişirdi, bəlkə də bazar günü idi.

Fotoşəklin tarixinə baxdı: 1910-cu ilin yayı.

1910-cu ilin yayı. Şəkildə indi övladları və hətta nəvələri belə bu dünyadan köçmüş insanlar həyatlarının müəyyən bir anında donub qalmışdılar. Qadınlar irihəcmli donda idilər, kişilər isə şlyapa, pencək, qumaş geyinmiş, qalstuk (və ya dəlilərin dililə desək, "rəngli parça tikəsi") taxmış və qoltuqlarında çətir gəzdirirdilər.

Kim bilir onda hava necə isti olub? O zaman yayda temperatur, yəqin ki, indiki kimi kölgədə otuz beş dərəcə imiş. Əgər bir ingilis cənabı istiyə daha uyğun şəkildə geyinmiş halda – Bermuda şort və qısaqol köynəkdə – peyda olsaydı, görəsən, bu insanlar nə düşünərdilər?

– "O, yəqin ki, dəlidir".

Veronika Dr. İqorun dediklərini çox gözəl başa düşmüşdü. Həmişə sevildiyini və


e-kitab.org

qorunduğunu hiss etməsinə baxmayaraq, çatışmayan yalnız bir element var idi ki, məhz o bu sevgini bir səadətə çevirə bilərdi: gərək Veronika özünə bir qədər çılğın olmağa imkan verərdi.

Valideynləri onsuz da onu sevəcəkdilər, amma onları incitməkdən qorxub, arzusunun arxasınca getməyə cəsarət etməmişdi. O arzu indi yaddaşının dərinliklərində basdırılsa da, bəzən konsert zamanı və ya təsadüfən gözəl musiqi eşidəndə oyanırdı. Bu hər dəfə baş versə belə, Veronikanın keçirdiyi uğursuzluq hissi o qədər güclü olurdu ki, o, elə həmin an arzusunu yenidən yatmağa göndərirdi.

Veronika uşaqlıqdan bəri bilirdi ki, onun arzuladığı yeganə peşə pianoçu olmaqdır. Bunu ilk dəfə on iki yaşında, birinci piano dərsində hiss etmişdi. Müəllimi də onun istedadlı olduğunu görmüş və onu peşəkar olmağa həvəsləndirmişdi. Lakin hər dəfə qələbə çaldığı hər hansısa müsabiqədən sonra özünü məmnun hiss etdikdə, hər şeyi atıb həyatını piano çalmağa həsr etmək barədə anasına danışanda, anası ona nəvazişlə baxıb deyərdi:

– Gözümün işığı, heç kim piano çalmaqla pul qazanmır.

– Axı mənim piano dərsləri keçməyimi sən istəmişdin!

– Hə, yalnız sənin artistlik məharətlərini inkişaf etdirmək üçün, vəssalam. Kişilər həyat yoldaşlarında o cür



e-kitab.org

şeyləri xoşlayırlar ki, ziyafətlərdə səni hamıya göstərib, qürur duysunlar. Pianoçu olmağı unut, get hüquq öyrən, gələcəyin peşəsi odur.

O, anasının istədiyi kimi də etdi, onun kifayət qədər həyat təcrübəsi olduğu üçün, yəqin ki, reallığı Veronikadan daha yaxşı başa düşürdü. Orta məktəbi bitirib, universitetə girdi, yaxşı dərəcə aldı, lakin tale elə gətirdi ki, kitabxanaçı oldu.

– Kaş ki, bir az çılğın olardım.

Lakin şübhəsiz, insanların əksəriyyətində olduğu kimi, o bunu çox gec anlamışdı.

Yoluna davam etməyə hazırlaşırdı ki, kimsə onun qolundan yapışdı. Güclü ağrıkəsici hələ də damarlarında axırdı deyə, şizofrenik Eduard nəzakətlə onu başqa istiqamətə – zala doğru aparanda, o, reaksiya vermədi.

Ay yenicə çıxmışdı və Veronika Eduardın səssiz xahişinə əsasən artıq pianoda oturmuşdu ki, yeməkxanadan xarici ləhcə ilə danışan səsin gəldiyini eşitdi. Veronika əvvəllər Viletdə belə səs eşitdiyini xatırlamadı.

– Mən bu dəqiqə piano çalmaq istəmirəm, Eduard. Mən dünyada nə baş verdiyini, orada nə barədə danışıldığını, o kişinin kim olduğunu öyrənmək istəyirəm.

Eduard gülümsədi, bəlkə də onun dediklərindən heç bir kəlmə də başa düşməmişdi, amma Veronika Dr. İqorun sözlərini xatırladı: şizofreniklər öz fərqli


e-kitab.org

dünyalarına girir, oradan çıxa bilirdilər.

– Mən öləcəyəm, – Eduardın anlayacağına ümid edən Veronika sözünə davam etdi. – Bu gün qanadları ilə ölüm üzümə sığal çəkdi və sabah olmasa da, tez bir zamanda yenə qapımı döyməyə gələcək. Hər gecə piano dinləməyə öyrəşməyin yaxşı deyil.– Heç kim özünü nəyəsə alışdırmamalıdır, Eduard. Bir mənə bax; mən yenidən günəşdən, dağlardan, hətta həyatın problemlərindən belə həzz almağa, həyatın mənasızlığının heç kimin yox, məhz mənim günahım olmasını qəbul etməyə başlayırdım. Lyublyanadakı baş meydanı təzədən görmək, hər günün bir hissəsini təşkil edən o sadə və səfeh, lakin insan həyatına maraq qatan sevgi, nifrət, ümidsizlik və yorğunluq hisslərini keçirmək istədim. Əgər bir gün buradan gedə bilsəydim, özümə çılğın olmağa imkan verərdim. Əlbəttə, hamı dəlidir, amma ən divanə olanlarımız dəli olduqlarını bilməyənlərdir; onlar, sadəcə, hamının onlara dediklərini təkrar edirlər. – Amma bunların heç biri mümkün deyil, başa düşürsən? Ona görə də sən bütün gününü gecənin gəlməsini gözləməklə keçirə bilməzsən. Və ya, digər bir xəstənin piano çalmasını gözləyə bilməzsən, çünki bu, tezliklə bitəcək. Mənim və sənin dünyan sona çatacaq.

O, ayağa qalxdı, mehribancasına oğlanın üzünə toxundu və sonra yeməkxanaya doğru irəlilədi.



e-kitab.org

Qapını açanda qeyri-adi mənzərə ilə rastlaşdı; stollar və stullar divarlara tərəf itələnmiş, mərkəz hissə yekə dairə şəklini almışdı. Qardaşlığın üzvləri döşəmədə oturub, qalstuk və kostyum geyinmiş bir kişinin nitqinə qulaq asırdılar.

– ...sonra, onlar Sufi təriqətinin böyük ustadı olan Nəsrəddini mühazirə deməyə dəvət etdilər, – deyə o danışırdı.

Qapı açılanda otaqda olan hər kəs Veronikaya baxdı. Kostyumda olan kişi ona tərəf dönüb dedi:

– Əyləşin.

Veronika Marinin yanında oturdu. Mari ağ saçları olan və ilk rastlaşdıqları zaman ona qarşı aqressiv davranan qadın idi. Onun "xoş gəldin" deyən təbəssümü Veronikanı təəccübləndirdi.

Kostyumlu adam sözünə davam etdi:

– Nəsrəddin günorta saat ikidə mühazirə demək üçün hazırlıq işləri gördü. Tədbirin uğurlu keçəcəyi gözlənilirdi. Sayı minə çatan bütün yerlər tutulmuşdu və yeddi yüzdən çox adam bayırda durub kiçik monitorlarda mühazirəni seyr edəcəkdilər.

Düz saat iki tamamda Nəsrəddinin köməkçisi gəlib dedi ki, bəzi qaçılmaz səbəblərə görə mühazirə bir qədər gec başlayacaqdır. Bu zaman bir neçə nəfər hiddətlə ayağa qalxdı, pulunu geri tələb edib, oranı tərk etdi. Lakin bununla bərabər, zalın içində və çölündə olan adamların çoxu yerindən tərpənmədi.

Artıq günorta saat dörd idi və sufi



e-kitab.org

ustadından hələ də bir əsər-əlamət yox idi. Buna görə də insanlar tədricən kassadan pullarını geri alıb, yeri tərk etməyə davam etdilər. İş günü artıq sona çatmaq üzrə idi; evə getmək vaxtı yetişmişdi. Saat altıda, əvvəldə sayı min yeddi yüzə çatan seyrçidən cəmi yüzü qalmışdı. Elə həmin anda Nəsrəddin içəri daxil oldu. O, çox sərxoş görsənirdi və ilk sırada oturan gözəl bir qadına sataşmağa başladı.

Mənzərədən heyrətə gəlmiş adamlar hiddətlənərək zalı tərk etdilər. Onları düz dörd saat gözlədən bu insan necə belə davranınağa cəsarət edə bilərdi? Bir neçə nəfər narazı-narazı donquldandı, lakin sufi ustadı onlara əhəmiyyət vermədi. Uca səslə qadının necə cazibədar göründüyünü deməyə davam etdi və qadına onunla Fransaya getməyi təklif etdi.

"Müəllimə bir bax! – Veronka düşündü. – Elə buna görədir ki, heç vaxt belə şeylərə inanmamışam".

– Şikayət edən adamları söyəndən sonra Nəsrəddin ayağa qalxmağa çalışdı, amma şiddətlə yerə yıxıldı. Gördüklərindən iyrənən daha bir neçə nəfər oranı tərk etmək qərarına gəldi, bunun xalis şarlatanlıq olduğunu deyib, bu alçaldıcı səhnəni mətbuatda pisləyəcəklərini elan etdi...Cəmi doqquz nəfər adam qalmışdı. Qəzəblənmiş seyrçilərin son qrupu çıxıb getdikdən sonra Nəsrəddin ayağa qalxdı; o tamamilə ayıq görünür, gözləri parıldayır, çöhrəsindən ağsaqqallıq və müdriklik


e-kitab.org

yağırdı. "Yalnız sizlər məni eşidəcəksiniz, – o dedi. – Mənəviyyata gedən yolun iki ən çətin sınağından keçmisiniz: uyğun vaxtı gözləyəcək qədər səbirli olmaq və başınıza gələnlərə görə məyus olmamağa cəsarət etmək. Odur ki, bildiklərimi məhz sizə öyrədəcəyəm".

– Beləcə, Nəsrəddin bir neçə sufi metodlarını onlarla bölüşdü.

Kişi fasilə verib, cibindən qəribə bir fleyta çıxardı.

– Gəlin, indi qısa fasilə verək, sonra meditasiya edərik.

Qrup üzvləri ayağa qalxdılar. Veronika isə nə etməli olduğunu bilmədi.

– Sən də qalx, – Mari onun əlindən yapışaraq dedi. – Bizim beş dəqiqəlik fasiləmiz var.

– Yox, mən gedim. Mane olmaq istəmirəm.

Mari onu bir küncə dartdı.

– Sən hələ də heç nə öyrənməmisən? Ölümün yaxınlaşmağı sənə heç bir şey öyrətməyib? Bəsdir daima kiməsə mane olduğunu, yanındakını narahat etdiyini düşündün. Əgər insanlar nəyisə xoşlamasalar, şikayət edə bilərlər. Və əgər şikayət etməyə cəsarətləri çatmasa, bu, onların problemidir.

– O gün mən sizə tərəf gələndə heç vaxt cəsarət etmədiyim bir şeyi edirdim.

– Və sən imkan verdin ki, bir dəlinin səni gülünc yerə qoyması səni qəzəbləndirsin. Niyə dediyinin üstündə

durmadın? İtirməyə nəyin var idi ki?

– Arzulanmadığım yerdə olmaqla ləyaqətimi itirməmək üçün.

– Ləyaqət nə deməkdir? Sənin xeyirxah, tərbiyəli və yoldaşlarını sevən insan olduğunu hamının düşünməsini istəməkdir. Təbiətə bir az hörmətin olsun: heyvanlar haqqında bir neçə filmə baxsan, onların öz əraziləri üçün necə mübarizə apardıqlarını görərsən. Yeri gəlmişkən, sənin o kişiyə şillə çəkməyin bizim hamımızın xoşuna gəlmişdi.

Veronikanın ərazi üçün savaşmağa daha vaxtı yox idi, ona görə də mövzunu dəyişib, kostyumdakı kişi barədə soruşdu.

– Bax, düzəlirsən. – Mari gülərək dedi. – İndi nəzakətsiz olub-olmadığını düşünmədən sual verirsən. O kişi sufi ustadıdır.

– Sufi" nə deməkdir?

– "Yun" deməkdir.

Veronika başa düşmədi. Yun?

– Sufizm dərvişlərin təriqətidir. Onun ustadları heç vaxt müdrik olduqlarını nümayiş etdirmir, onun davamçıları bir növ fırlana-fırlana rəqs etməklə transa girirlər.

– Bunun mənası nədir ki?

– Tam əmin deyiləm, amma bizim qrupumuz qadağan olunan hər şeyi araşdırmaq qərarına gəlib. Bütün ömrümüz boyu hökumət bizə öyrədib ki, insanların həyatın mənəvi mənasını axtarmaqda yeganə məqsədi real problemlərdən qaçmaqdır. De mənə görüm: səncə, həyatı başa düşməyə cəhd etmək özü elə real



e-kitab.org

problem deyil?

Hə, elə idi, amma Veronika "real" sözünün nə anlama gəldiyindən artıq əmin deyildi.

Kostyumlu adam – Marinin dediyinə görə, sufi ustadı – onlardan çevrədə oturmağı xahiş etdi. O, vazadan, tək bir qızılgüldən başqa, digər bütün gülləri çıxardı və vazanı qrupun ortasına qoydu.

– Görürsən nə qədər irəliləmişik? – Veronika Mariyə dedi. – Bir divanə insan qərara alıb ki, qışda da gül yetişdirmək mümkündür və indi Avropanın hər yerində bütün il boyu qızılgül tapmaq olar. Səncə, çoxlu biliklərə malik olan bir sufi ustadı bunu edə bilərdimi?

Mari fikrə getdi.

– Tənqidlərini sonraya saxla.

– Yaxşı, amma sahib olduğum yeganə şey bu andır və elə görünür ki, bu da çox qısa olacaq.

– Bu an – elə hamının sahib olduğu yeganə şeydir və o həmişə adama qısa görünür. Amma bəzi insanlar elə düşünür ki, doldura bildikləri keçmiş və daha çox doldura biləcəkləri gələcək vardır. İndiki andan danışmışkən, sən tez-tez masturbasiya edirsən?

Hələ də ağrıkəsicinin təsiri altında olsa da, Veronika Viletdə eşitdiyi ilk sözləri xatırladı.

– Mən ilk dəfə süni respirator borucuqları ilə tamamilə bürünmüş halda buraya gətiriləndə kiminsə məndən bu



e-kitab.org

barədə soruşduğunu dəqiq eşitdim. Bu nə deməkdir? Siz insanlar niyə vaxtınızı belə şeylər haqqında düşünməyə sərf edirsiniz?

– Bu, onsuz da hər yerdə elədir; sadəcə olaraq, biz burada bu faktı gizlətməyə ehtiyac duymuruq.

– O sualı mənə sən vermişdin?

– Yox, amma məncə, həzz alınağa qalanda, nə qədər uzağa gedə biləcəyini aşkar etməlisən. Gələn dəfə, bir az səbirlə partnyorun tərəfindən idarə edilməni gözləməkdənsə, onu da oraya apara bilərsən. Həyatının sonuna iki gün qalmış olsa da, məncə, nə qədər uzağa gedə biləcəyini öyrənməmiş bu dünyanı tərk etməməlisən.

– Yalnız əgər partnyorum bu dəqiqə mənim yenidən piano çalınağımı gözləyən o şizofrenikdirsə.

– O, çox yaraşıqlı oğlandır.

Kostyumlu adam sakitlik elan etməklə, onların sözünü kəsdi. O, hamıya diqqətini qızılgülə cəlb edib beyinlərini boşaltmaq əmrini verdi.

– Düşüncələr qayıdacaq, amma onları kənara itələməyə cəhd edin. Sizin iki seçiminiz var: ağlınızı idarə etmək və ya onun sizi idarə etməsinə imkan vermək. İkincisi ilə artıq tanışsınız: qorxunun, şübhənin, narahatlığın sizi ələ keçirməsinə imkan vermisiniz, ona görə ki, bizim hamımızın özümüzü məhv etməyə meylimiz var.

– Divanəliyi nəzarəti itirməklə səhv



e-kitab.org

salmayın. Unutmayın ki, sufi təriqətində hamı ustadı – yəni Nəsrəddini – məcnun adlandırır. Və həmvətənləri onu məhz dəli saydıqlarına görə Nəsrəddin düşündüklərini deyə və istədiklərini edə bilir. Orta əsrlərdə təlxəklər də elə idilər; kralın vəkilləri öz vəzifələrini itirməməkdən ötrü ona deyə bilmədikləri təhlükəli xəbərləri təlxəklər krala çatdırırdılar.

– Siz də elə olmağa çalışın; divanə olun, ancaq normal insanlar kimi davranın. Fərqli olmağa risk edin, amma bunu diqqət çəkmədən etməyi öyrənin. Fikrinizi bu gülə cəmləyin və öz əsl "mən"inizin zahirə çıxmasına izin verin.

– Əsl "mənlik" nə deməkdir? – deyə Veronika soruşdu. Bəlkə də orada olanların hamısı bunu bilirdi, amma fərq etməzdi: o, digər insanları acıqlandırmaq barədə az düşünməyi öyrənməli idi.

Kostyumlu adam sözünün yarıda qoyulmasına təəccüblənsə də, onun sualına cavab verdi.

– Əsl "mənlik", əslində nə olduğunuzdur, başqalarının sizin haqqınızda nə düşündüyü yox...

Veronika məşğələni yerinə yetirməyi qərara alıb, bütün diqqətini kimliyini aşkar etməyə cəlb etdi. Viletdə olduğu o günlər ərzində heç vaxt o cür güclü şəkildə duymadığı hissləri keçirmişdi – nifrət, sevgi, maraq, həyat eşqi. Bəlkə də Mari haqlı idi: Veronika orqazmın həqiqətən nə olduğunu


e-kitab.org

bilirdimi? Yoxsa partnyorları onu nə qədər uzağa aparmışdılarsa, elə o qədər də getmişdi?

Kostyumlu adam fleyta çalmağa başladı. Yavaş-yavaş musiqi onun ruhunu sakitləşdirdi və o, diqqətini qızılgül üzərində cəmləməyə nail oldu. Bu, ağrıkəsicinin təsiri ola bilərdi, amma fakt bu idi ki, Dr. İqorun otağını tərk etdikdən sonra o özünü olduqca yaxşı hiss edirdi.

Tezliklə öləcəyini bilirdi, amma niyə qorxsun ki? Bu, heç nəyə yaramazdı, ölümcül ürəktutmasının qarşısını ala bilməzdi; ən yaxşısı bu olardı ki, son günlərinin və saatlarının ləzzətini çıxarıb, heç vaxt etmədiyi şeyləri etsin.

Həzin musiqi və yeməkxananın zəif işığı az qala dini atmosfer yaratmışdı.

Din: nəyə görə heç vaxt öz daxili aləminin dərinliklərinə gedib, olan-qalan inanc və inamlarını dərk etməyə cəhd etməmişdi?

Lakin musiqi onu başqa yerə tərəf yönləndirirdi: beynini boşalt, heç nə haqqında düşünmə, sadəcə, var ol! Veronika özünü tamamilə bu məşğələyə həsr etdi: nəzərlərini qızılgülə dikdi, kim olduğunu gördü, gördüyünü xoşladı və bu qədər vaxtı tələskən olmasına təəssüfləndi.


e-kitab.org

# 16

* * *

Meditasiya bitdikdən və sufi ustadı getdikdən sonra Mari bir müddət yeməkxanada qalıb, Qardaşlığın üzvləri ilə söhbət etdi. Veronika yorğun olduğunu deyib, dərhal getdi; hər halda, həmin səhər ona verilən ağrıkəsici atı sakitləşdirmək üçün belə kifayət qədər güclü idi, lakin buna baxmayaraq, onun bütün bu vaxtı oyaq qala bilmək üçün kifayət qədər qüvvəsi qalmışdı.

Bu da sənin üçün gənclik; o, bədəndən onun tab gətirə biləcəyini soruşmadan özü üçün yeni hədlər qoyur. Lakin bədən həmişə də tab gətirir.

Mari yorğun deyildi; gecə gec yatmışdı, sonra isə Lyublyanada gəzməyə çıxmışdı – Dr. İqor Qardaşlığın üzvlərindən Vileti hər gün tərk etməklərini tələb edirdi. O, ailə konflikti barədə hədsiz dərəcədə darıxdırıcı filmə baxmağa getmiş və yenə də yerindəcə yuxuya dalmışdı. Başqa mövzu yox idimi? Niyə görə həmişə elə eyni hekayələr təkrarlanırdı – evli kişi və sevgilisi; evli kişi, arvadı və xəstə uşağı; evli kişi, arvadı, sevgilisi və xəstə uşağı? Dünyada danışmağa daha mühüm mövzular var idi.

Yeməkxanada söhbət çox çəkmədi; meditasiyadan sonra qrup üzvləri özlərini çox yüngülləşmiş hiss etdilər və hamısı palatalarına getməyə hazır idilər. Bircə Maridən başqa! O bağçaya getdi. Yolu zaldan keçirdi deyə, gənc qızın hələ də



e-kitab.org

çarpayısına gedib çıxmağa macal tapmadığını gördü. O qız bəlkə də bütün bu vaxtı pianonun yanında oturub onu gözləyən şizofrenik Eduard üçün ifa edirdi. Eynilə uşaqlar kimi, dəlilər də arzuları yerinə yetirilmədikcə yerlərindən tərpənməzlər.

Hava buz kimi idi. Mari içəri girdi, paltosunu götürüb, yenidən bayıra çıxdı. Çöldə, hamının gözündən uzaqda bir siqaret yandırdı. O tələsmədən və özünü təqsirkar hiss etmədən siqaret çəkir, o gənc qız, eşitdiyi piano musiqisi və hamı üçün getdikcə dözülməz olmağa başlayan Viletdən kənardakı həyat haqqında düşünürdü.

Marinin fikrincə, bu çətinlik hərc-mərclik, nizamsızlıq və ya anarxiyaya görə yox, həddən artıq çox qayda-qanunun olmasına görə belə idi. Getdikcə cəmiyyətin qaydaları çoxalır, sonra onları təkzib edən qanunlar ortaya çıxır və daha sonra yaradılan yeni qaydalar da qanunları təkzib edirdi. İnsanlar onların həyatlarını idarə edən yazılmamış qaydalardan bir addım belə kənara çıxmağa qətiyyən cürət etmirdilər.

Mari nə danışdığını yaxşı bilirdi; xəstəliyi onu Viletə gətirənə qədər ömrünün qırx ilini hüquqşünas olmaqla keçirmişdi. Hələ karyerasının ilkin illərində məsum ədalət hissini itirmiş və qanunların problemləri həll etməsi üçün yox, münaqişələrin qeyri-müəyyən zamanadək



e-kitab.org

uzadılması üçün yaradıldığını anlamışdı.

Təəssüf ki, Allah, Yahova, Yaradan – ona nə ad vermənizdən asılı olmayaraq – bu gün dünyada mövcud deyildi. Çünki əgər olsaydı, onda o, şikayətlər, xahişlər, yalvarışlar, məhkəmə qərarları, ilkin istintaqlar içində batıb qalar və qanunda heç bir əsası olmayan təsadüfi bir qaydanı – yaxşılıq və pislik bilgisi olan ağacın meyvəsindən yeməmək qaydasını – pozduğuna görə Adəm və Həvvanın cənnətdən qovulması qərarını verdiyi üçün saysız-hesabsız məhkəmələrdə özünə haqq qazandırmalı olardı.

Əgər bunun baş verməsini istəmirdisə, onda nəyə görə o, ağacı cənnətin divarlarından kənarda yox, bağın düz ortasında qoymuşdu? Əgər Mari cütlüyü müdafiə etməyə dəvət olunsaydı, o, Yaradanı inzibati diqqətsizlikdə günahlandırardı, çünki ağacı səhv yerdə əkməkdən əlavə, onu xəbərdarlıq işarələri və çəpərlərlə əhatəyə almamış, ən minimal təhlükəsizlik tədbirləri belə görməmiş və beləliklə hamını təhlükəyə məruz qoymuşdu.

Mari Yaradanı, həmçinin Adəm və Həvvaya ağacın məhz harada yerləşdiyini göstərməklə onları cinayət işi törətməyə sövqləndirməkdə də təqsirləndirərdi. Əgər o, onlara heç nə deməsəydi, nəsillər gəlib keçəcək və heç kimdə o ağaca qarşı az da olsa maraq yaranmayacaqdı, çünki yəqin ki, o ağac meşədə digər oxşar ağaclar arasında



e-kitab.org

itəcək və heç bir xüsusi əhəmiyyətə malik olmayacaqdı.

Lakin Yaradan tamamilə fərqli hərəkət etmişdi. Sadəcə, cəza yaratmaqdan ötrü o, bir qayda düzəltmiş və kimisə onu pozmağa inandırmaq yolunu tapmışdı. O bilirdi ki, Adəm və Həvva dünyadan bezib, gec, ya tez onun səbrini tarıma çəkəcək, ona görə də tələ qurdu. Bəlkə də ondan ötrü ki, hər şeyə qadir olan Yaradan özü də işlərin yaxşı getməsindən zinhara gəlmişdi: əgər Həvva almanı yeməsəydi, keçən bir neçə milyard ildə heç bir maraqlı şey baş verməzdi.

Qanun pozulduqdan sonra Yaradan – hər şeyə qadir olan hakim – hətta özünü onları axtarırmış kimi aparmışdı, guya ki, mümkün olan bütün gizli yerlərdən xəbərsiz idi. O, bağı gəzməyə başlarkən, mələklər (Şeytan cənnətdən getdikdən sonra həyatları cansıxıcı olmuşdu deyə) bu oyunu seyr edib əyləndilər. Mari İncildən götürülmüş bu epizodun qorxulu filmdə necə gözəl səhnə olacağını düşündü: Yaradanın ayaq səsləri, cütlüyün bir-birinə təşviş içində baxması və düz onların gizləndiyi yerdə ayaq saxlanılması.

– Haradasınız?

– Səsini bağda eşitdim və qorxdum, çünki çılpaq idim, ona görə özümü gizlətdim, – deyə cinayət törətməsini etiraf etdiyini bilməyən Adəm cavab verdi.

Deməli, sadə bir fənd işlətməklə Yaradan Adəmin harada olduğunu və nə üçün gizləndiyini bilmirmiş kimi davranıb,


e-kitab.org

istəyinə nail oldu. Bununla belə, epizodu diqqətlə izləyən mələklər arasında şübhə yaratmamaq üçün o, sözünə davam etmək qərarına gəldi.

– Çılpaq olduğunu necə bilirsən? – Yaradan soruşdu. O bilirdi ki, sualın yalnız bir düzgün cavabı var: "Çünki mən yaxşılıq və pislik bilgisi olan ağacın meyvəsindən yemişəm".

Bu sual vasitəsilə Yaradan öz mələklərinə nümayiş etdirdi ki, o, ədalətli tanrıdır və onun cütlüyü ittiham etməsi tutarlı dəlillərə əsaslanıb. O andan etibarən artıq fərqi yox idi ki, qadın günahkardır və ya onlar bağışlanmaq üçün yalvarırdılar: Yaradana bir nümunə lazım idi ki, yerdə və göydə olan heç bir varlıq bir də heç vaxt onun əmrinin əksinə getməyə cürət etməsin.

O, cütlüyü cənnətdən qovdu və onların övladları da bu cinayətə görə əzab çəkdilər (necə ki, bu, indi də cinayətkarların övladlarının başına gəlir). Beləliklə, məhkəmə sisteminin əsası qoyuldu: qanun, qanunpozma (nə qədər məntiqsiz və cəfəng olsa da), mühakimə (harada ki, daha təcrübəli olan insan sadədil insanın üzərində qalib gəlirdi) və cəza.

Bir halda ki insanlıq şikayət etmək hüququ olmadan məhkum edilmişdi, bəşəriyyət Yaradanın imkan olan kimi öz hakimiyyətini əldə saxlayıb ondan istifadə etməsinə qarşı müdafiə mexanizmi yaratmaq qərarına gəldi. Lakin minilliklər


e-kitab.org

boyu gedən araşdırmalar o qədər hüquqi ölçülərin yaradılması ilə nəticələndi ki, nəhayətdə biz çox uzağa getdik və ədalət müddəaların, hüquq nəzəriyyələrinin və ziddiyyətli mətnlərin cəncəlinə çevrildi ki, heç kim ondan tam baş aça bilmədi.

Bu, o həddə çatdı ki, Yaradan fikrini dəyişib, öz oğlunu dünyanı xilas etmək üçün göndərəndə, nə baş verdi? O, məhz Yaradanın özünün icad etdiyi ədalətin birbaşa əllərinə düşdü.

Qanunlar cəncəli elə bir qarmaqarışıqlıq yaratdı ki, Oğlunun taleyi çarmıxa çəkilməklə nəticələndi. Və bu heç də asan məhkəmə prosesi olmadı; o, Ananiasdan Kayafasın, keşişdən Roma qanunvericiliyində kifayət qədər qanunların olmadığını iddia edən Pilatın əlinə keçdi. Daha sonra isə Pilatdan yəhudi qanunlarının ölüm hökmü ilə cəzalandırmağa icazə vermədiyini iddia edən Herodun əlinə keçdi. Heroddan sonra yenidən Pilatın əlinə düşdü və o, çıxış yolu axtararaq, belə bir qanuni sövdələşmə irəli sürdü: Allahın Oğlunu döydürüb, yaralarla birgə insanlara nümayiş etdirdi, lakin bu da alınmadı.

Bu gün prokurorların etdiyi kimi, Pilat qərara aldı ki, məhkum edilmiş adamın hesabına özünü xilas etsin: o, İsanı verib əvəzində Barabbası almağı təklif etdi, çünki başa düşürdü ki, artıq o zaman ədalət tamaşaçıların sonda məhbusun ölümünü tələb etdiyi təntənəli tamaşaya çevrilmişdi.


e-kitab.org

Nəhayət ki, Pilat qanun maddəsindən istifadə edərək, dəlil yetərsizliyindən müttəhimin yox, məhkum edənin haqlı olduğunu qəbul etdi. Beləcə, o, əllərini yudu və bu da "Mən heç bir halda əmin deyiləm" anlamına gəldi. Bu, oxuduğu hökmün başağrısı yaradacağı və imperiya paytaxtından gələn inspektorun nə baş verdiyini araşdırmaq istədiyi halda, yerli hakimlərlə münasibətləri korlamadan, Roma məhkəmə sistemini qorumaq və hətta verdiyi qərarın yükünü insanların boynuna qoymaq üçün işlətdiyi bir hiylə idi.

Ədalət. Qanun. Hərçənd hər ikisi günahsız insanı qorumaq üçün zəruri idi, lakin onlar heç də həmişə hamının istəyini yerinə yetirmirdi. Bütün o qarmaqarışıqlıqdan uzaq olmasına sevinsə də, Mari bu gecə piano dinlərkən Viletin ona uyğun yer olduğuna şübhə etməyə başladı:

– Əgər buranı birdəfəlik tərk etmək qərarına gələsi olsam, hüquqa qayıtmayacağam. Vaxtımı özlərini normal və vacib hesab edən, həyatda yeganə funksiyası insanların həyatını çətinləşdirməkdən ibarət olan dəlillərə sərf etməyəcəyəm. Tikişçi, dərzi qadın olaram, bələdiyyə teatrı qarşısında meyvə sataram. Mən artıq qanunun faydasız divanəliyinə öz töhfəmi vermişəm".

Viletdə siqaret çəkməyə icazə verilirdi, amma siqaret kötüyünü çəmənliyə atmaq qadağan idi. O, böyük məmnuniyyətlə bu qaydanı pozdu, çünki orada olmağın ən



e-kitab.org

böyük üstünlüyü o idi ki, qaydalara hörmət etmək məcburiyyətində deyildin və hətta onları pozduğun halda cəzasını çəkməli olmayacaqdın.

Mari ön darvazaya doğru getdi. Gözətçi – orada həmişə gözətçi dururdu, axı qanun belə tələb edirdi – başı ilə onu salamladı və qapını açdı.

– Çölə çıxmıram, – Mari ona bildirdi.

– Piano musiqisi necə də gözəldir, – gözətçi dedi. – Demək olar, hər gecə onu dinləmişəm.

– Bu, çox çəkməyəcək, – o, cavab verdi və izah etməli olmasın deyə, tələsik oradan uzaqlaşdı.

Mari gənc qız yeməkxanaya gələn an onun gözlərində oxuduğu ifadəni xatırladı: qorxu.

Qorxu. Veronika özünə inamsızlıq, utancaqlıq, xəcalət və qeyri-sərbəstlik hiss edə bilərdi, amma qorxu hissi niyə? Bu hiss yalnız həqiqi təhlükə ilə qarşılaşan zaman yarana bilərdi: məsələn, yırtıcı heyvanlar, silahlı hücumçular və ya zəlzələ ilə üzləşəndə. Yeməkxanada yığılmış bir qrup insanla rastlaşanda yox.

"Amma insanlar elədirlər, – o düşündü. – Az qala bütün emosiyalarımızı qorxu ilə əvəz etmişik".

Mari nə danışdığını bilirdi, çünki onun özünü Viletə elə bu gətirmişdi: panika hücumu.

Marinin otağında bu mövzu barədə böyük bir kitabxana qədər məqalə var idi.



e-kitab.org

İndi hamı bu haqda açıq danışırdı və yaxınlarda alman televiziya kanalında göstərilən verilişdə insanlar bununla bağlı öz təcrübələrini müzakirə edirdilər. Elə həmin proqramda açıqlanan sorğuya əsasən, əhalinin böyük faizi panika hücumundan əziyyət çəkirdi, lakin onların çoxu dəli hesab olunmaqdan qorxduqları üçün simptomlarını gizlədirdilər.

Amma ilk dəfə Mari panika hücumuna məruz qalanda bunların heç biri məlum deyildi. "Bu cəhənnəm əzabına bərabər idi", – Mari növbəti siqareti yandıraraq düşündü.

Piano səsi hələ də gəlirdi; deyəsən, bütün gecəni piano çalınağa qızın enerjisi var idi.

Gənc qızın gəlişi Mari də daxil olmaqla xəstəxana sakinlərinin çoxuna təsir etmişdi. Əvvəl-əvvəl, gənc qızın yaşamaq həvəsini oyatmaqdan qorxduğu üçün ondan uzaq gəzməyə çalışırdı; qurtuluş yox idi, ona görə ölmək istəməyə davam etməsi məsləhət idi. Dr. İqor bəlli etmişdi ki, gündəlik iynələr vurulmasına baxmayaraq, onun fiziki vəziyyəti açıq-aydın pisləşəcək və onu xilas etmək mümkün olmayacaq.

Xəstələr bu mesajı anlayıb, məhkum olunmuş qızla aralarında məsafə saxlayırdılar. Lakin Veronikanın öz həyatı uğrunda niyə mübarizə aparmağa başladığını heç kim başa düşmürdü və ona yaxınlaşan yeganə iki şəxsdən biri sabah yola düşəcək və onsuz da çox danışmayan


e-kitab.org

Zedka, digəri isə Eduard idi.

Mari Eduard ilə danışmalı idi; Eduard onun fikirlərinə həmişə hörmətlə yanaşırdı. Başa düşmürdü ki, o, Veronikanı dünyaya bağlayırdı və qurtuluş ümidi olmayan birinə qarşı bunu etməkdən pis şey ola bilməzdi.

Vəziyyəti ona izah etməyin min cür yolu haqda ətraflı düşündü, amma bütün bunlar Eduardı özünü günahkar hiss etməyə vadar edəcəkdi və onu da Mari heç vaxt etməzdi. Bir qədər düşündükdən sonra qərara gəldi ki, hər şeyi öz axarına buraxsın. O, daha hüquqşünas deyildi və anarxiyanın hökm sürməli olduğu yerdə yeni davranış qaydaları yaratmaqla pis nümunə olmaq istəmirdi.

Ancaq gənc qızın orada olması çox insanı mütəəssir etmişdi və bəziləri öz həyatlarını yenidən nəzərdən keçirmək niyyətində idilər. Qardaşlığın keçirdiyi görüşlərin birində kimsə baş verənləri izah etməyə çalışmışdı. Ölüm hadisələri adətən Viletdə qəflətən, heç kimə düşünməyə imkan vermədən və ya uzun çəkən xəstəlikdən sonra ölüm arzulandığı zaman baş verirdi.

Lakin bu gənc qızın vəziyyəti dramatik idi, çünki o, çox gənc idi, indi yenidən yaşamaq istəyirdi və hamı bunun qeyri-mümkün olduğunu bilirdi. Bəzi insanlar özlərinə sual verirdilər: – "Bu mənim başıma gəlsəydi necə? Mənim yaşamaq şansım var. Mən bu imkandan düzgün istifadə edirəmmi?"


e-kitab.org

Digərləri isə bu suala cavab tapmağa heç çalışmırdılar da; onlar əllərini çoxdan üzmüşdülər və indi özlərinə həyatın, ölümün, zamanın və məkanın mövcud olmadığı bir dünya yaratmışdılar.



e-kitab.org

# 17

* * *

Veronika bir anlıq piano çalınağı dayandırıb, bağçada duran Mariyə baxdı: “Gecə vaxtı, o cür soyuq havada yalnız nazik bir jaketmi geyinmişdi? Ölməkmi istəyirdi?

Yox, ölmək istəyən mən idim”.

O pianoya tərəf döndü. Həyatının son günlərində Veronika, nəhayət ki, ən böyük arzusuna çatmışdı: bütün ürəyi və qəlbi ilə dilədiyi qədər və kefi istəyən zaman piano çalmaq. Və fərqi yox idi ki, onun yeganə auditoriyası gənc bir şizofrenikdən ibarət idi; o, musiqini anlayan insana oxşayırdı və elə bu kifayət edirdi.



e-kitab.org

# 18

* * *

Mari heç vaxt özünə qəsd etmək istəməmişdi. Əksinə, beş il bundan qabaq bu gün getdiyi kinoteatrda El Salvadordakı yoxsulluğu təsvir edən bir filmə dəhşət içərisində baxmış və öz həyatının nə qədər əhəmiyyətli olması haqqında düşünmüşdü. O vaxt övladları artıq böyümüşdü və hərəsi öz peşəsində çalışırdı. Mari öz darıxdırıcı və heç zaman bitməyən hüquqşünas sənətini atıb, bütün qalan ömrünü hansısa humanitar təşkilatda işləməyə sərf etmək qərarına gəlmişdi. Ölkədə vətəndaş müharibəsinin baş verəcəyi haqda durmadan şayiələr gəzirdi, lakin Mari onlara inanmırdı. Bu mümkün deyildi ki, iyirminci əsrin sonlarında Avropa ictimaiyyəti öz darvazalarında yeni müharibənin başlanmasına imkan versin.

Amma dünyanın digər üzündə faciələr heç də qıt deyildi və bu faciələrdən biri də El Salvadorda baş verirdi ki, orada aclıq çəkən uşaqlar küçələrdə yaşamağa və fahişəlik etməyə məcbur olurdular.

– Bu, dəhşətdir, – o, yanında oturan həyat yoldaşına dedi.

Yoldaşı başını tərpətdi.

Mari uzun müddət idi qərarı ertələyirdi, amma bəlkə indi artıq bu haqda yoldaşı ilə danışmağın vaxtı idi. Həyat onlara mümkün olan yaxşı hər şeyi bəxş etmişdi: ev, sənət, xeyirli övladlar, rahatlıq, maraqlar və


e-kitab.org

mədəniyyət. Dəyişiklik naminə niyə də başqaları üçün nəsə etməsin? Marinin Qırmızı Xaç Cəmiyyətində tanışları var idi və bilirdi ki, dünyanın hər yerində könüllülərə həddən artıq böyük ehtiyac vardır.

O özlərinin yaratmadıqları problemləri həll etməyə uzun illər vaxt sərf edən insanlara kömək edə bilməyən məhkəmə proseslərindən və bürokratiya ilə mübarizə aparmaqdan bezmişdi. Qırmızı Xaçda işləməklə isə dərhal nəticələrə nail ola bilərdi.

Beləliklə, Mari qərara aldı ki, kino bitəndən sonra yoldaşını qəhvə içməyə dəvət edib, bu ideyanı onunla müzakirə etsin.

Hansısa yeni bir ədalətsizliyə görə Salvadorun hökumət nümayəndəsi ekranda peyda olub cəfəng bəhanələr gətirən zaman Mari birdən ürəyinin tez-tez döyündüyünü hiss etdi.

Öz-özünə bunun ciddi olmadığını dedi. Bəlkə də teatr zalının boğanaq havası ona pis təsir etmişdi; simptomlar davam etsəydi, foyeyə çıxıb təmiz hava qəbul edəcəkdi.

Lakin hadisələr prosesin axınına təkan verdi; ürəyi daha da sürətlə döyünməyə başladı və birdən soyuq tər bütün bədənini bürüdü.

O, qorxmağa başladı və mənfi fikirləri qovsun deyə, bütün diqqətini filmə cəlb etməyə çalışdısa da, artıq ekrandakı süjeti



e-kitab.org

izləməyə qadir olmadığını anladı. Mari surətləri və altyazıları görə bilirdi, lakin elə bil ətrafındakı hər şeyin qəribə və harmoniyasız şəkil aldığı tamamilə fərqli bir reallığa daxil olmuşdu və sanki bütün bunlar bilmədiyi bir aləmdə baş verirdi.

– Özümü pis hiss edirəm, – o yoldaşına bildirdi.

Bu ifadəni deməyi mümkün qədər gecikdirməyə çalışırdı, çünki əks halda bu, problemin mövcud olduğunu qəbul etmək olacaqdı, lakin o daha tab gətirə bilmədi.

– Gəl, çölə çıxaq, – yoldaşı dedi.

Marinin əlindən tutub, ona ayağa qalxmağa kömək edəndə onun əllərinin buz kimi olduğunu hiss etdi.

– Məncə, o qədər uzağa gedə bilməyəcəyəm. De görüm, mənə nə olur belə?

Yoldaşı da təlaşlandı. Marinin üzündən tər axırdı və onun gözlərində qəribə işıq vardı.

– Sakitləş. Mən gedib həkim çağıraram.

Mari ümidsizliyə qapıldı. Yoldaşının dediklərini anlayırdı, amma qalan hər şey – kinoteatr, alaqaranlıq, yan-yana oturub parlaq ekrana tamaşa edən insanların hamısı təhlükəli görünürdü. Sağ olduğundan əmin idi, ətrafında olan hər şeyə, sanki bərk cisimlərdir kimi, toxuna bilirdi. Belə bir şey heç vaxt başına gəlməmişdi.

– Məni burada qətiyyən yalnız qoyma. Ayağa durub səninlə çölə çıxacağam, amma


e-kitab.org

asta-asta hərəkət elə.

Onlar eyni sırada oturan adamlardan üzr istəyərək, zalın arxasındakı çıxışa tərəf irəliləməyə başladılar. Marinin ürəyi indi şiddətlə döyünürdü və o tamamilə əmin idi ki, oradan kənara çıxmağı qətiyyən bacarmayacaq. Etdiyi hər bir hərəkət, hər bir jest – bir ayağını digərinin qarşısına qoyması, "üzr istəyirəm" deməsi, yoldaşının qolundan yapışması, nəfəs alıb-verməsi – dəhşətli dərəcədə şüurlu və düşünülmüş görünürdü.

Həyatında heç vaxt bu qədər vahimələnməmişdi. "Bu dəqiqə bu kinoteatrda öləcəyəm", – deyə düşündü.

Özünü bunun baş verəcəyinə inandırmışdı, çünki uzun illər bundan qabaq dostlarından biri kinoteatrda beynə qan sızmasından vəfat etmişdi.

Beynə qan sızması zaman bombası kimidir. Onlar arteriyalar boyunca formalaşan, köhnəlmiş təkərlərin şişirdildiyi kimi, xırda, genişlənmiş damarlardır ki, insanın bütün ömrü boyu orada aşkar edilməmiş qala bilər.

Ta ki, təsadüfən, məsələn, digər səbəblərə görə aparılan beyin testləri zamanı aşkar olunmayanadək, heç kimin beyninə qan sızması olduğundan xəbəri olmur. Ya da ki, beyin sızması partlayıb hər yeri qana bulayır, insanın dərhal komaya düşməsinə səbəb olur və sonda da ölümlə nəticələnir.

Qaranlıq kino zalının oturacaqları


e-kitab.org

arasından keçərkən Mari vəfat edən dostunu xatırladı. Ən qəribəsi isə beynə qan sızmasının onun ətrafı qavramasına təsir etməsi idi. Elə bil fərqli bir planetə düşmüşdü və sanki hər tanış şeyi ilk dəfə idi ki, görürdü.

Və bir də ürküdücü, təsvirolunmaz qorxu, Ölüm planetində tamamilə tənha olmaq qorxusundan doğan xalis panika hissi keçirirdi.

“Mən daha düşünməməliyəm. Özümü hər şey qaydasındadır kimi aparsam, hər şey düzələcək”.

Mari təbii davranınağa çalışdı və qəribəlik hissi bir neçə saniyəlik azaldı. İlk dəfə ürəyinin bərk döyünməyə başlamasından tutmuş, yoldaşı ilə çıxışa çatana qədər keçən iki dəqiqə həyatının ən dəhşətli dəqiqələri olmuşdu.

Gur işıqlandırılmış foyeyə çatanda, elə bil hər şey yenidən başladı. Rənglər çox zövqsüz görünür, küçədən gələn səslər sanki hər tərəfdən ona hücum edirdilər və hər şey ona tamamilə qeyri-real gəlirdi. İlk dəfə olaraq, müəyyən detallara fikir verməyə başladı; məsələn, nəzərlərimizi zillədiyimiz zaman gözlərimizin məhz yalnız kiçik ərazini əhatə edən yeri aydın görüb, qalan hər şeyi tamamilə diqqətdən kənar saxlaması.

Hələ başqa hisslər də var idi. O bilirdi ki, ətrafında gördüyü hər şey beynindəki elektrik impulslar tərəfindən yaradılan mənzərələrdir ki, onlar da jelatin material


e-kitab.org

olan göz orqanından keçən işıq impulslarıdır.

Yox, Mari daha düşünməməli idi. Yalnız o cür ağlını yerinə qaytara bilərdi.

Artıq beynə qan sızması qorxusu keçib getmişdi; kinoteatrdan kənara çıxa bilmişdi və hələ də sağ-salamat idi; axı dostu heç oturacağı belə tərk etmədən keçinmişdi!

– Təcili Yardım çağıracağam, – onun kül rənginə dönmüş sifətini və ağarmış dodaqlarını görən yoldaşı dedi.

– Taksi çağır, – ağzından çıxan səsi eşidib, hər bir səs telinin tərpənişini şüurlu şəkildə hiss edən Mari yoldaşına dedi.

Xəstəxanaya getmək ciddi şəkildə xəstə olduğunu qəbul etmək anlamına gələcəkdi. Ona görə də Mari normal vəziyyətin bərpası üçün əlindən gələni etməyə hazır idi.

Onlar foyedən çıxdılar və təmiz hava elə bil müsbət təsir göstərdi. Mari bir qədər özünü ələ alsa da, izaholunmaz panika və dəhşət hissləri hələ də onu tərk etməmişdi. Yoldaşı günün o vaxtında çətin gözə görünən taksi tapmaq üçün dəridən-qabıqdan çıxmışdı. Mari yolun kənarında oturmuşdu və ətrafına baxmamağa çalışırdı: uşaqların oynaması, avtobusların keçməsi, bir qədər uzaqda keçirilən küçə yarmarkasından gələn musiqi səsi tamamilə sürreal, vahimələndirici və yad təsir bağışlayırdı.

Nəhayət ki, bir taksi peyda oldu.

– Xəstəxanaya sürün, – Mariyə minməyə yardım edən yoldaşı sürücüyə


e-kitab.org

dedi.

– Xahiş edirəm, evə gedək, – Mari dedi. Daha qərib yerlərdə olmaq istəmirdi; qorxu hisslərini azalda biləcək tanış, adi yerlərdə olmağa hədsiz dərəcədə ehtiyacı vardı.

Taksi evə tərəf sürərkən, onun ürək döyüntüləri yavaşıdı və bədən hərarəti normaya qayıtdı.

– Özümü yaxşı hiss etməyə başlayıram, – yoldaşına dedi. – Yəqin ki, nəsə yediyimdən belə oldum.

Evlərinə çatanda dünya-aləm həmişə necə idisə, yenə də elə görünməyə başladı. Yoldaşının telefona tərəf getdiyini görəndə, ondan nə etdiyini soruşdu.

– Həkim çağıracağam.

– Ehtiyac yoxdur. Mən artıq düzəldim.

Yanaqlarının rəngi yerinə qayıtmışdı, ürəyi normal döyünürdü və idarəolunmaz qorxu hissi yox olub getmişdi.

Həmin gecə Mari möhkəmcə yatdı və ayılanda əmin idi ki, onlar kinoteatra getməzdən əvvəl kimsə içdikləri qəhvəyə dərman atıb. Bu, təhlükəli zarafat idi və günün sonunda artıq prokurora zəng etməyə hazır idi ki, bara gedib, olanlar üçün kimin məsuliyyət daşıdığını araşdırsın.

Mari işə gedib, həllini gözləyən bir neçə məhkəmə məsələlərini nəzərdən keçirdi və özünü digər işlərlə məşğul etməyə çalışdı. Dünən baş vermiş hadisədən sonra bir az qorxu hissi qalmışdı deyə, özünü inandırmağa çalışırdı ki, bu, bir də heç vaxt baş verməyəcək.



e-kitab.org

Kolleqalarından biri ilə El Salvador barəsindəki kinonu müzakirə etdilər və o, arada dedi ki, hər gün eyni şeyi etməkdən bezmişdir: "Bəlkə də təqaüdə çıxmağın vaxtıdır".

– Bizim ən yaxşı hüquqşünaslarımızdan birisən, – həmkarı demişdi. – Bundan başqa, hüquq yeganə sahələrdən biridir ki, yaşlanmaq adamın xeyrinə işləyir. Bəlkə uzun bir məzuniyyət götürəsən? Əminəm ki, işə yeni enerji ilə qayıdacaqsan.

– Mən həyatımı tamam fərqli şəkildə keçirmək istəyirəm. Macəralar yaşamaq, başqa insanlara kömək etmək, heç vaxt etmədiyim şeyləri etmək istəyirəm.

Söhbət elə oradaca bitdi. Sonra Mari mərkəzi meydana getdi, əvvəllər həmişə nahar etdiyi restorandan fərqli, daha bahalı birində yemək yedi və ofisə hamıdan tez qayıtdı. Və elə o anda onun özünə qapanması başlandı.

İşçilər hələ geri qayıtmamışdılar və Mari bundan istifadə edib, hələ də masası üstə duran işlərə baxdı. Siyirməni açıb, həmişə eyni yerə qoyduğu karandaşı götürmək istədi, amma onu yerində tapa bilmədi. Bir saniyəlik ağlından keçirdi ki, karandaşı öz yerinə qoymaması bəlkə də özünü qəribə aparmasının bir göstəricisidir.

Bu, ürəyinin yenidən bərk-bərk döyünməsinə təkan verdi və əvvəlki gecənin vahiməsi tam sürətlə geri qayıtdı.

Mari yerindəcə donub qaldı. Günəş

pəncərədən süzülərək ətrafında olan hər şeyə daha parlaq, daha aqressiv ton verirdi, lakin ona yenə də elə gəlirdi ki, elə o dəqiqə öləcəkdir. Hər şey necə də qəribə idi; onun ofisdə nə işi var idi?

“Tanrım, sənə inanmıram, amma lütfən, mənə yardım et”.

Yenə də soyuq tər onu sardı və qorxusunu idarə edə bilməyəcək hala düşdüyünü anladı. Həmin an kimsə içəri girsəydi, onun gözlərindəki təşvişi görəcək və o özünü dərhal itirəcəkdi.

“Soyuq hava”.

Keçən gecə soyuq hava ona yaxşı təsir etmişdi; amma küçəyə qədər necə gedəcəkdi? Yenə də baş verənləri hər bir xırdalığınadək hiss edirdi – nəfəs alması (elə anlar olurdu ki, əgər özü nəfəs alıb-verməyə xüsusi cəhd etməsəydi, bədəni bunu özbaşına edə bilməyəcəkdi), başını tərpətməsi (sanki başının içində televiziya kameraları işləyir kimi, surətlər bir-birini əvəz edirdi), ürəyinin getdikcə daha da tez-tez döyünməsi və bədəninin soyuq, yapışqan tər içində olması.

Sonra da qorxu – nəsə etməyin, bircə addım atmağın, oturduğu stuldan durmağın dəhşətli, izaholunmaz qorxusu.

“Bu keçəcək”.

Keçən dəfə keçmişdi. Amma indi işdə idi, nə edə bilərdi? Saata baxdı və saat ona qəribə bir mexanizm kimi göründü, eyni ox üzərində iki iynə fırlanır, kimsənin heç vaxt izah etmədiyi vaxtın ölçüsünü göstərirdi.


e-kitab.org

Digər bütün ölçülər kimi, niyə on yox, məhz on iki rəqəm?

“Belə şeylər barədə düşünməməliyəm, bunlar məni dəliliyə sövq edir”.

Dəlilik. Bəlkə onun başına gələnləri bu söz daha düzgün təsvir edərdi. Bütün iradəsini toplayıb ayağa qalxdı və ayaqyoluna tərəf irəlilədi. Xoşbəxtlikdən, ofisdə hələ heç kim yox idi və ona bir əsr kimi gələn bir dəqiqə içərisində ora çatdı. Üzünü sərin su ilə şappıldatdı, qəriblik hissi bir qədər azalsa da, qorxu hissi onu tərk etmədi.

“Keçəcək, – öz-özünə dedi. – Dünən keçmişdi”.

Yadına saldı ki, bir gün əvvəl, bütün bu proses təqribən yarım saat çəkmişdi. Özünü bir tualet kabinəsinin içinə salıb, qapını içəridən bağladı, unitazın üstündə oturub, başını dizləri arasına qoydu. Lakin bu cür oturuş ürək döyüntüsünün səslərini daha da gücləndirirdi deyə, Mari dərhal dikəldi.

“Keçəcək”.

Mari elə oradaca qalıb, artıq kim olduğunu bilməməsi və özünü itirməsi barədə düşündü. Tualet kabinələrinə girib-çıxan adamların səslərini, su kranlarının açılıb-bağlandıqlarını, bayağı mövzuları olan mənasız söhbətləri eşidirdi. Oturduğu kabinəni bir neçə nəfər açınağa cəhd etdi, lakin o, nəsə pıçıldadı və onlar israr etməyib, başqa kabinəyə keçdilər. Ona elə gəldi ki, tualetə axıdılan sular qorxulu bir təbiət hadisəsi kimi, sanki bütün binanı


e-kitab.org

dağıdıb, içindəki insanları cəhənnəmə vasil edəcək.

Lakin qabaqcadan bildiyi kimi, qorxu hissi keçdi və ürək döyüntüsü normasına düşdü. Yaxşı ki, katibəsi onun hələ də işdə olmadığının fərqinə varmayacaq qədər bacarıqsız idi, yoxsa bütün ofis tualetə gəlib, onun qaydasında olub-olmadığını soruşacaqdı.

Özünü idarə etmək qabiliyyətini bərpa etdiyinə əmin olduqdan sonra Mari kabinənin qapısını açdı, uzun müddət üzünə su çiləyib durdu və sonra ofisə qayıtdı.

– Üzünüzdə makiyaj yoxdur, – praktikantlardan biri dedi. – Öz kosmetikamdan sizə verim?

Mari heç cavab da vermədi. Otağına gedib, əl çantasını və şəxsi əşyalarını götürdü və günün qalanını evdə keçirəcəyini katibəsinə bildirdi.

– Axı çoxlu görüşləriniz var, – deyə katibəsi etiraz etdi.

– Sən əmr vermirsən, əmr alırsan. Nə deyirəmsə, onu da et və bütün görüşləri təxirə sal.

Katibə az qala üç ildir birgə işlədiyi və heç bir dəfə də olsun onunla belə qaba davranmayan bu qadına gözlərini zilləyib baxdı. Yəqin ki, ciddi nəsə baş vermişdi. Bəlkə də kimsə ona deyib ki, əri evdə öz sevgilisi illədir və o, onları iş başında yaxalamaq istəyir.

“O, hüquqşünasdır və nə etdiyini yaxşı


e-kitab.org

bilir", – katibə qız öz-özünə dedi. Şübhəsiz, sabah gəlib, ondan üzr istəyəcəkdir.

Lakin sabah olmadı. Həmin gecə Mari yoldaşı ilə uzun-uzadı müzakirələr edib, bütün simptomları ona təsvir etdi. Birlikdə belə nəticəyə gəldilər ki, bütün bu ürək döyünmələri, soyuq tərbasmalar, qəriblik hissləri, taqətsizlik halları, özünü idarə etmə bacarığını itirmələr... – bir sözlə ifadə oluna bilər: qorxu. Ər-arvad birlikdə nə baş verdiyi barədə baş sındırdılar. Yoldaşı bunun beyin şişi olduğunu ehtimal etdi, lakin heç nə demədi. Mari düşündü ki, bəlkə nəsə dəhşətli bir hadisə baş verəcəyini əvvəlcədən hiss edir deyə, bunlar baş verir, amma o da heç nə demədi. İki məntiqli, dərrakəli və yetkin insan kimi müzakirədə ortaq məxrəcə gəlməyə çalışdılar.

– Bəlkə testlər edəsən.

Mari bir şərtlə razılaşdı ki, heç kim, hətta öz uşaqları belə bu haqda heç nə bilməyəcək.

Növbəti gün otuz günlük ödənişsiz məzuniyyət götürmək üçün işə müraciət etdi. Yoldaşı onu beyin xəstəlikləri ilə əlaqədar çox sayda görkəmli mütəxəssisin olduğu Avstriyaya aparmaq haqqında düşünsə də, Mari evi belə tərk etməkdən imtina etdi; panika hücumları artıq daha tez-tez baş verir və daha uzun sürürdü.

Mari çoxlu sakitləşdiricilər qəbul etdikdən sonra ikisi birlikdə böyük çətinliklə Lyublyanadakı xəstəxanaların birinə gəlməyə nail oldular. Mari orada


e-kitab.org

çoxlu sayda testlərdən keçdi və heç bir qeyri-adi şey tapılmadı. Hətta beynə qan sızması belə aşkar edilmədi və bu, Mari üçün bir ömürlük təskinlik demək idi.

Ancaq panika hücumları baş verməyə davam etdi. Yoldaşı bazarlıq edir və yemək bişirir, Mari isə beynini, sadəcə, başqa şeylərlə məşğul etsin deyə, hər gün durmadan evləri təmizləyirdi. Psixiatriya ilə bağlı tapa bildiyi bütün kitabları oxumağa başlayan kimi onları yerə qoyurdu, çünki təsvir olunan bütün xəstəliklərdə öz xəstəliyini tanıdığını hiss edirdi.

Ən pisi isə bu idi ki, panika hücumları artıq köhnəlmiş olsa da, o hələ də eyni şiddətli qorxu, reallıqdan uzaqlaşmaq və özünü itirmə hissləri keçirirdi. Bunlar azmış kimi, yoldaşına görə də özünü günahkar hiss etməyə başladı. Ona görə ki, o öz işini və təmizlik işlərindən savayı, evdəki digər işləri də görməyə məcbur olurdu.

Zaman keçdikcə və məsələ həll olunmamış qaldıqca, Mari əsəbilik keçirməyə və onları ifadə etməyə başladı. Ən xırda bir şey belə onu özündən çıxarırdı: o qışqırır və sonra da əsəbi şəkildə ağlayırdı.

Otuz günlük məzuniyyəti bitdikdən sonra Marinin həmkarlarından biri qapısının önündə peyda oldu. O bu otuz gün ərzində hər gün zəng etmişdi, lakin Mari ya telefona cavab verməmiş, ya da məşğul olduğunu ona deməsini yoldaşından xahiş etmişdi. Həmin gün günortaçağı həmkarı


e-kitab.org

qapının arxasında durub, Mari cavab verənədək zəngi çaldı.

Səhər Mari üçün çox sakit keçmişdi. O, çay hazırladı. Onlar ofis haqqında danışdılar və həmkarı ondan işə nə zaman qayıdacağını soruşdu.

– Heç zaman.

Həmkarı onların El Salvador barəsindəki söhbətlərini xatırladı.

– Sən həmişə çox gərgin işləmisən və nə etmək istədiyinə qərar vermək sənin haqqındır, – o, küskün səslənməyən tonda dedi. – Amma məncə, bu cür hallarda işləmək ən yaxşı müalicədir. Bir qədər səyahət et, dünyanı gör, faydalı hesab etdiyin bir yerə get. Ofisin qapıları isə hər vaxt üzünə açıqdır, sənin gəlişini gözləyir.

Mari bunları eşitdikdə, son zamanlar alışdığı kimi, sel kimi göz yaşları axıtdı.

Həmkarı onun sakitləşməsini gözlədi. Yaxşı hüquqşünas kimi, o heç nə soruşmadı; bilirdi ki, sakit qalmaqla suallara cavab tapmaq şansı daha böyük olacaq, nəinki sual verməklə.

Və o, haqlı idi. Mari kinoteatrda baş verənlərdən tutmuş ona bu qədər dəstək olan yoldaşına qarşı təzəcə etdiyi isterik hücumlaradək, bütün olanları danışdı.

– Mən dəli olmuşam, – o dedi.

– Ola bilər, – hər şeyi bilən həmkarı şəfqətli səslə dilləndi. – O halda sənin iki əlacın var: ya müalicə almaq, ya da ki, xəstə olmağa davam etmək.

– Mənim hiss etdiklərim üçün müalicə


e-kitab.org

yoxdur. Bütün əqli qabiliyyətlərim yerindədir və ona görə narahatam ki, mənim bu vəziyyətim artıq çox uzun zamandır davam edir. Məndə dəliliyin heç bir simptomu yoxdur, məsələn, reallıqdan uzaqlaşmaq, apatiya və ya idarəolunmaz aqressiya; məndə yalnız qorxu hissi var.

– Bütün dəli olmuş adamlar elə deyir. Onlar özlərini tam normal hesab edirlər.

İkisi də güldü, Mari bir az da çay hazırladı. Onlar havadan, Sloveniyanın müstəqilliyindən, Xorvatiya və Yuqoslaviya arasındakı gərginləşmədən danışdılar. Mari hər gün televizora baxırdı deyə, hər şeydən xəbərdar idi.

Sağollaşmazdan öncə iş yoldaşı mövzuya yenə də toxundu.

– Təzəlikcə şəhərdə yeni xəstəxana açılıb, – o dedi, – xarici investisiya sayəsində yaradılıb və orada əla müalicə təklif olunur.

– Nəyi müalicə edirlər?

– Belə deyək: müvazinətsizliyi. Həddən ziyadə qorxu mütləq müvazinətsizlikdir.

Mari söz verdi ki, bu haqda düşünəcək, lakin heç bir ciddi qərar qəbul etmədi. Daha bir ay panika hücumu baş verdi və nəhayət, o anladı ki, artıq nəinki onun öz həyatı, həmçinin evliliyi də dağılmaq üzrədir. Yenə də sakitləşdiricilərin köməyilə altmış gündə ikinci dəfə ayağını evdən kənara qoymağa nail oldu.

Taksiyə oturub, yenicə açılmış xəstəxanaya getdi. Yolda taksi sürücüsü


e-kitab.org

soruşdu ki, yəqin, xəstəxanaya kiməsə baş çəkməyə gedir:

– Deyirlər, ora çox rahat yerdir, amma orada əsl dəlilər də var və müalicənin bir hissəsi elektrik şoku verməkdən ibarətdir.

– Hə, bir nəfərə baş çəkməyə gedirəm, – Mari dedi.

Marinin iki ay boyu çəkdiyi əzablara bir saatlıq söhbətlə son qoyuldu. Xəstəxananın direktoru ucaboyu, boyalı saçları olan Dr. İqor adlı həkim idi. O, Mariyə izah etdi ki, onun xəstəliyi, sadəcə, panika pozğunluğudur və bu, təzəlikcə psixiatriya dünyasında tanınmışdır.

– O demək deyil ki, bu, yeni xəstəlikdir, – aydınlaşdırmaq üçün Dr. İqor izah etdi. – Bu xəstəliyə tutulmuş insanlar, dəli hesab olunmaq qorxusundan, adətən onu gizlədirlər. Bu, sadəcə, orqanizmdə kimyəvi tarazlığın pozulmasıdır, depressiya kimi.

Dr. İqor resept yazıb, evə getməyi məsləhət gördü.

– İndi evə getmək istəmirəm, – Mari dedi. – Hətta bütün dediklərinizdən sonra belə, küçəyə çıxmağa cəsarətim çatmayacaq. Evliliyim cəhənnəmə dönüb və həyat yoldaşımın bu bir neçə ay ərzində mənə baxdığına görə özünə gəlməsi üçün bir az vaxta ehtiyacı var.

Belə situasiyalarda, həmişə olduğu kimi, səhmdarlar xəstəxananın tam gücü ilə fəaliyyət göstərməsini istəyirdilər deyə, Dr. İqor onu xəstəxanaya xəstə kimi qəbul etdi, amma buna qətiyyən ehtiyac olmadığını



e-kitab.org

Mariyə başa saldı.

Münasib psixiatrik müalicə almaqla bərabər, lazım olan dava-dərman qəbul etdikdən sonra Maridə simptomlar azaldı və nəhayət, tamamilə yox oldu.

Lakin həmin bu müddət ərzində onun xəstəxanada müalicə alması xəbəri kiçik Lyublyana şəhərinin hər yerini gəzdi. Onun həmkarı, bir neçə həftə əvvəl onunla çay içən dostu və kim bilir, birlikdə neçə sevinc və qorxu paylaşdığı iş yoldaşı ona baş çəkmək üçün Viletə gəldi. Onun məsləhətini dinləməsini və müalicə almaq cəsarətini təriflədikdən sonra oraya gəlişinin əsl səbəbini izah etdi: "Bəlkə də elə təqaüdə çıxmağının vaxtı gəlib".

Mari bu sözlərin arxasında nə gizləndiyini anladı; heç kim işləri psixi xəstəxanada müalicə almış adama tapşırmaz.

– Bəs deyirdin, iş ən yaxşı müalicədir! Qısa müddətə də olsa, mənim işləməyə ehtiyacım var.

Mari ondan cavab gözlədisə də, cavab gəlmədi. O, davam etdi:

– Mənə müalicə almağı məsləhət görən sən idin. Mən təqaüdə çıxmaq barədə düşünəndə fikrim yüksək notlarla, məmnun, müstəqil və könüllü qərar vermiş şəkildə getmək idi. İşimi eləcə, məğlub olmuş şəkildə tərk etmək istəmirəm. Heç olmasa, imkan ver, hörmətimi geri qazanım, sonra təqaüdə çıxaram.

Hüquqşünas boğazını arıtlayıb dedi:


e-kitab.org

– Mən məsləhət görmüşdüm ki, müalicə alasan, xəstəxanaya getmək barədə heç nə deməmişdim.

– Axı bu, ölüm-dirim məsələsi idi. Mən küçəyə çıxmağa belə qorxurdum; ailəm dağılmaq üzrə idi.

Mari anladı ki, sözlərini boş yerə israf edir. Deyəcəyi heç bir şey onu fikrindən döndərə bilməyəcəkdi; axı ofisin nüfuzu risk altında idi. Amma Mari bir də cəhd etdi:

– Burada mən iki tipdə insanlarla yaşamışam: bir daha heç vaxt cəmiyyətə qayıtmaq şansları olmayanlar və həyatları üçün cavabdehlik daşımaqdansa, özlərini dəliliyə vurmağa üstünlük verənlər. Mənim özümü sevməyi öyrənməyə ehtiyacım var; özümü inandırmalıyam ki, mən özüm qərar verməyə qadirəm. Özümün vermədiyim qərarları qəbul etməyə məcbur edilə bilmərəm.

– Həyatımızda çoxlu səhvlər etmək imkanımız var, –həmkarı dedi, – bizi məhv edən səhvdən başqa.

Söhbəti davam etməyin heç bir mənası yox idi; onun fikrincə, Mari fəlakətli səhv buraxmışdı.

İki gün sonra başqa bir hüquqşünas gəldi, amma bu dəfə onun həmkarının ən böyük rəqibi olan fərqli bir hüquq şirkətindən. Marinin kefi açıldı; bəlkə də o hüquqşünas bilirdi ki, Mari yeni vəzifəyə keçmək üçün azaddır və bu, onun dünyada özünə yenidən yer qazanması üçün bir şans ola bilərdi.



e-kitab.org

Hüquqşünas qonaq otağına gəldi, onun qarşısında oturdu, gülümsədi, necə olduğunu soruşdu və portfelindən bir neçə kağız çıxardı.

– Buraya həyat yoldaşınızın xahişi ilə gəlmişəm, – o dedi. – Bu, boşanma ərizəsidir. Aydındır ki, burada qaldığınız müddətdə o sizin bütün xəstəxana xərclərinizi ödəməyə davam edəcək.

Bu dəfə artıq Mari mübahisəyə cəhd etmədi, bütün sənədləri imzaladı. Lakin bilirdi ki, oxuduğu və həyata keçirdiyi hüquq praktikasına əsasən, mübahisəni qeyri-müəyyən vaxtadək uzada bilər. Sonra o, Dr. İqorun yanına gedib, ona simptomlarının qayıtdığını söylədi.

Hərçənd Dr. İqor onun yalan danışdığını bilirdi, amma o, Marinin müalicəsinin qeyri-müəyyən zamanadək uzadılmasına razılıq verdi.

19

* * *

Veronika yatmağa getmək istədi, amma Eduard hələ də pianonun yanında dayanmışdı.

– Mən yorulmuşam, Eduard, yatmaq istəyirəm. – Veronika keyidilmiş yaddaşından bildiyi bütün sonata və rekviyemləri xatırlayıb, onun üçün çalmağa davam etmək istərdi, çünki Eduard heç nə tələb etmədən ona valeh olmağı bacarırdı. Lakin Veronikanın artıq taqəti qalmamışdı.

Eduard çox yaraşıqlı idi. Öz aləmindən kənara yalnız bircə addım atıb, onu bir


e-kitab.org

qadın kimi görə bilsəydi, onda Veronikanın yer üzündəki son gecələri həyatının ən gözəl anları olardı. Eduard onun bir incəsənət ruhlu adam olmasını anlaya bilən yeganə insan idi. Sonata və menuetin saf emosiyaları vasitəsilə Veronika onunla öz arasında heç bir insanla qura bilmədiyi güclü ünsiyyət yaratmışdı.

Eduard ideal kişi idi – həssas, savadlı; o, biganə dünyanı məhv edib, onu öz aləmində yeni çalarlarla, yeni xarakterlərlə və yeni hekayələrlə yenidən yaratmışdı. Və bu aləmdə bir qadın, bir piano və getdikcə böyüyən bir ay var idi.

– Mən bu dəqiqə sənə aşiq olub, hər şeyimi qurban verə bilərəm, – onu başa düşmədyini bilən Veronika Eduarda dedi. – Məndən istədiyin yeganə şey musiqidir, amma mən öz düşündüyümdən də çox şeyə qadirəm və yenicə anlamağa başladığım digər şeyləri səninlə bölüşmək istərdim.

Eduard gülümsədi. Başa düşmüşdümü? Veronika qorxdu – bütün düzgün davranış təlimatları deyir ki, məhəbbət haqqında heç vaxt belə birbaşa danışmaq olmaz; yaxşı tanımadığın kişiylə isə, ümumiyyətlə, olmaz. Lakin sözünə davam etdi, çünki onsuz da itirməyə heç nəyi yox idi.

– Eduard, sən yer üzündə aşiq ola bildiyim yeganə insansan, sadəcə ona görə ki, mən öləndən sonra darıxmayacaqsan. Şizofreniklərin nə hiss etdiklərini bilmirəm, amma bilirəm ki, onlar heç kim üçün darıxmırlar. Ola bilər ki, gecələr


e-kitab.org

musiqinin daha olmaması üçün darıxarsan, amma Ay həmişə çıxacaq, sənin üçün sonatalar ifa edən insanlar da tapılacaq, xüsusən o xəstəxanada ki, orada hər birimiz lunatikərik.

Lunatiklərlə Ay arasında hansısa əlaqənin olduğundan əmin deyildi, amma dəliləri təsvir etmək üçün belə sözdən istifadə edildiyinə görə yəqin ki, bu əlaqə güclü idi.

– Və mən də sənin üçün darıxmayacağam, Eduard, çünki öləcəyəm və buradan çox uzaqlarda olacağam. Səni itirməkdən qorxmadığıma görə, haqqımda nə düşünüb-düşünmədiyin məni maraqlandırmır. Bu gecə sənin üçün aşiq olmuş qadın kimi ifa etdim. Bu, çox valehedici və həyatımın ən gözəl anı idi.

O, çöldə dayanmış Mariyə baxdı. Onun dediyi sözləri xatırladı. Və yenə də qarşısında durmuş adama nəzər saldı.

Veronika sviterini çıxarıb, Eduarda tərəf getdi. Əgər nəsə edəcəkdisə, qoy bu indi olsun. Mari çöldəki soyuğa uzun müddət davam gətirə bilərdi və ancaq ondan sonra içəri girərdi.

Eduard geri çəkildi. Gözlərindəki sual bu idi: Veronika nə zaman piano çalacaqdı? Nə zaman yeni musiqi nömrəsi ifa edib, əsərləri ilə nəsilləri ötüb keçmiş o divanə bəstəkarlara məxsus eyni çalar, iztirab, əzab və sevinclə onun ruhunu dolduracaqdı?

"Çöldəki qadın mənə demişdi ki, özümə



e-kitab.org

toxunum və nə qədər uzağa gedə biləcəyimi aşkar edim. Doğrudanını əvvəllər getdiyimdən də uzağa gedə bilərəm?"

Veronika Eduardın əlini əlinə alıb, onu divana doğru dartınağa çalışdı, amma Eduard nəzakətlə imtina etdi. O, durduğu yerdə, pianonun yanında qalmağı və səbirlə onun yenidən piano çalmağını gözləməyi üstün tutdu.

Veronika əvvəl pərt oldu və sonra düşündü ki, itirməyə heç nəyi yoxdur. O, artıq ölmüşdü; həyatını həmişə məhdudlaşdırmış qorxulara və inanclara uyğun davranmağa davam etməyin nə mənası var idi? Sviterini, şalvarını, büstqalterini və tumanını çıxarıb, çılpaq şəkildə Eduardın qarşısında dayandı.

Eduard gülməyə başladı. Veronika səbəbini başa düşmədi, amma ona əhəmiyyət də vermədi. Ehmalca onun əlini götürüb, cinsi orqanı üzərinə qoydu; onun əli tərpənmədən orada qaldı. Veronika dərhal fikrindən daşındı və onun əlini kənara çəkdi.

Onunla fiziki təmasdan tamamilə fərqli şey Veronikanı ehtirasa gətirirdi: nə istəyirsə, onu da edə bilməsi, heç bir hədd-hüdudun olmaması. Çöldə dayanmış və istənilən an içəri gələ biləcək o qadından başqa, heç kim oyanmayacaqdı.

Qanı sürətlə hərəkətə başladı və paltarlarını soyunarkən hiss etdiyi sərinlik yox olub getdi. Veronika və Eduard üz-üzə, ayaq üstə durmuşdular: biri çılpaq, digəri


e-kitab.org

isə paltarda. Veronika öz əlini cinsi orqanlarına toxundurmağa başladı; bunu əvvəllər də etmişdi, ya təklikdə, ya da bəzi partnyorlarla. Lakin qarşısındakı kişinin baş verənlərə qarşı heç bir maraq göstərmədiyi belə vəziyyət heç vaxt olmamışdı.

Bu, çox ehtiraslı an idi. Ayaq üstə dayanmışdı: ayaqları aralı idi və cinsi orqanlarına, sinəsinə, saçlarına toxuna-toxuna özünü təslim edirdi. Ona görə yox ki, o, Eduardın öz uzaq aləmini tərk etməsini görmək istəyirdi; ona görə ki, bu, onun heç vaxt etmədiyi bir şey idi.

O, danışmağa başladı, ağlasığmaz sözlər dedi, elə şeylər ki, onun valideynləri, dostları, əsl-nəcabəti tamamilə iyrənc hesab edərdilər. O, orqazma çatdı və aldığı həzdən qışqırmamaq üçün dodaqlarını dişlədi.

Eduard ona tamaşa edirdi. Onun gözlərində fərqli işıq var idi, bu, Veronikanın bədənindən çıxan enerjiyə, istiliyə, tərə və ya qoxuya reaksiya olsa da, sanki o, olanları anlayırdı. Veronika isə hələ qane olmamışdı. O, aşağı əyildi və yenidən cinsi orqanlarına toxunmağa başladı.

O, həmişə qadağan olunan hər şey haqqında düşünüb, orqazmik həzdən ölmək istədi. Eduarda yalvardı ki, ona toxunsun, ondan istədiyi kimi istifadə etsin. Zedkanın da orada olmasını arzuladı, qadın öz sirlərini yaxşı bildiyi üçün, digər qadına kişidən daha yaxşı toxunmağı bacarır.



e-kitab.org

Eduard ayaq üstə, Veronika isə onun qarşısında, diz üstə duraraq, özünü sahiblənmiş, toxunulmuş kimi hiss etdi və kobud sözlərdən istifadə etməklə, Eduarddan nə istədiyini dedi. Növbəti orqazma çatdı, budəfəki həmişəkindən daha güclü idi və sanki ətrafındakı hər şey partlayacaqdı. Həmin səhər keçirdiyi ürəktutmasını xatırladı, amma onun heç bir əhəmiyyəti yox idi. Veronika şiddətli bir həzz püskürtüsü nəticəsində öləcəkdi. Qarşısında duran Eduarda toxunmaq istədi, amma bu anı korlamağa risk etmədi. Marinin dediyi kimi, o, çox-çox uzağa gedirdi.

Veronika özünü həm şahzadə, həm qul kimi, həm dominant qadın və həm də qurban kimi hiss etdi. Öz təsəvvüründə o, hər rəngdə dərili kişi ilə – ağ, qara, sarı, – homoseksual və dilənçilərlə məhəbbətlə məşğul olurdu. O, hər kəsə məxsus idi və kim nə istəsəydi, onu da ona edə bilərdi. Veronika bir-birinin ardınca birinci, ikinci, üçüncü orqazma çatdı. Əvvəllər heç vaxt ağlına gətirmədiyi şeyləri təsəvvüründə canlandırdı və özünü ən adi, ən saf olan hər şeyə təslim etdi. Sonda daha özünü saxlaya bilməyib aldığı həzdən, ağlının qapısından keçib onun bədəninə girib-çıxan kişi və qadınların və bütün bu orqazmların ağrısından qışqırdı.

Yerə uzanıb tər içində və ruhu tamamən sakitləşmiş halda oradaca qaldı. Öz gizli diləklərini özündən belə saxlamışdı,


e-kitab.org

səbəbini bilmirdi, amma cavab da axtarmırdı. Etdikləri artıq kifayət idi. Özünü təslim etmişdi.

Tədricən dünya-aləm öz əvvəlki yerinə qayıtdı və Veronika ayağa qalxdı. Bütün bu vaxtı Eduard yerindən tərpənməmişdi, amma bir qədər fərqli görkəm almışdı: onun gözlərində şəfqət var idi – çox insani bir şəfqət.

"Nə yaxşı ki, hər şeydə məhəbbət görə bilirəm, hətta şizofrenikin gözlərində belə".

Paltarlarını geyinməyə başlayırdı ki, otaqda üçüncü şəxsin varlığını hiss etdi.

Mari orada idi. Veronika onun nə zaman gəldiyini, nə gördüyünü və nə eşitdiyini bilmədi, lakin buna görə heç bir xəcalət və ya qorxu hissi də keçirmədi. Sadəcə, ona uzaqdan ötəri baxdı.

– Dediklərini etdim, – o, dedi. – Və çox, çox uzağa getdim.

Mari heç nə demədi; o, həyatının ən mühüm anlarını yenidən ağlında canlandırmışdı və özünü bir qədər narahat hiss edirdi. Bəlkə də artıq çöldəki dünyaya qayıtmağın, oradakılarla üzləşməyin, hər kəsə o böyük Qardaşlığa üzv ola bilməsini deməyin vaxtı idi – onların heç biri psixi xəstəxanada olmamışdılarsa belə.

Məsələn, bu qız kimi. Onun Viletdə olmasının yeganə səbəbi həyatına qəsd etmək cəhdi idi. O, panikanın, depressiyanın, mistik görüntülərin, psixozun, bir sözlə, ağlımızın bizi hara qədər apara biləcəyini heç vaxt bilməmişdi.



e-kitab.org

Baxmayaraq ki, çoxlu kişi tanıyırdı, amma öz ən gizli arzularını reallaşdıra bilməmişdi və nəticədə həyatının yarısı ona naməlum qalmışdı. Kaş ki, hamı öz daxili divanəliyini tanıya və onunla yaşamağı bacara biləydi. Həyat buna görə daha pis yermi olardı? Yox, insanlar daha ədalətli və daha məmnun olardılar.

– Mən niyə bunu əvvəllər etməmişəm?

– O, sənin yenə də piano çalınağını istəyir, – Eduarda baxan Mari dedi. – Məncə, o buna layiqdir.

– Çalacağam, amma əvvəlcə mənim sualıma cavab ver. Mən niyə bunu əvvəllər etməmişəm? Əgər mən müstəqiləmsə, istədiyimi düşünə bilərəmsə, bəs nəyə görə həmişə qadağan olunmuş vəziyyətləri hətta təsəvvür etməkdən belə qaçmışam?

– Qadağan olunmuş? Qulaq as, mən hüquqşünas olmuşam və qanunu yaxşı bilirəm. Həmçinin mən katolik idim və bütün İncili əzbərdən bilirdim. “Qadağan olunmuş” deməklə sən nəyi nəzərdə tutursan?

Mari yaxınlaşıb, sviterini geyinməkdə ona kömək etdi.

– Gözlərimə bax və indi deyəcəklərimi heç vaxt unutma. Yalnız iki qadağa vardır: biri insanların yaratdığı qanuna əsasən, digəri isə Yaradanın qanununa əsasən. Heç kimi cinsi əlaqəyə məcbur etmə, çünki bu, zorlamaq deməkdir. Və heç vaxt uşaqlarla cinsi əlaqəyə girmə, ona görə ki, bu, günahların ən alisidir. Bunlardan başqa, sən



e-kitab.org

azadsan. Məhz sənin istədiyini istəyən insan həmişə tapılacaq.

Ölmək üzrə olan adama vacib şeyləri öyrətməyə Marinin hövsələsi yox idi. Odur ki, gülümsəyərək Veronika ilə sağollaşdı və oranı tərk etdi.

Eduard tərpənməmişdi; o, musiqini gözləyirdi. Veronika ona verdiyi böyük həzzə – sadəcə, orada durub Veronikanın divanəliyini dəhşət və ya ikrah hissilə şahidlik etmədiyinə – görə Eduardı mükafatlandırmaq istəyirdi. Pianoya əyləşib, yenidən çalınağa başladı.

Ruhu yüngülləşmişdi və ölüm hissi belə ona əzab vermirdi. Özündən həmişə gizlətdiyi hissləri yaşamışdı – bakirənin və fahişənin, qulun və şahzadənin... Halbuki şahzadədən çox, qulun keçirdiyi həzz hisslərini yaşamışdı.

Həmin gecə, sanki möcüzə kimi, bildiyi bütün mahnılar yaddaşına qayıtmışdı və özünün aldığı zövq qədər, Eduarda da zövq vermək üçün piano çaldı.



e-kitab.org

# 20

* * *

İşığı yandırdıqda Dr. İqor ofisinin yanındakı gözləmə otağında bir gənc qızın oturduğunu görüb təəccübləndi.

– Hələ səhər tezdəndir və mən bütün günü məşğul olacağam, – Dr. İqor bildirdi.

– Bilirəm tezdir və gün hələ başlamayıb, – o dedi. – Sadəcə, danışmağa ehtiyacım var, çox qısa olacaq.

Qızın üzündə bütün gecəni ayıq keçirmənin aydın əlamətləri sezilirdi: gözlərinin altında qara kölgələr vardı və saçları süst görsənirdi.

Dr. İqor onu otağına aparmağa razılaşdı.

İşığı yandırıb pərdələri aça-aça Veronikaya oturmağı təklif etdi. Bir saatdan da az müddətə dan yeri söküləcəkdi və onda işıq enerjisinə qənaət etmək mümkün olacaqdı; səhmdarlar, nə qədər xırda olmasından asılı olmayaraq, xərclərə çox ciddi yanaşırdılar.

Gündəliyini cəld nəzərdən keçirdi: Zedkaya sonuncu insulin şoku verilmişdi və o buna müsbət reaksiya vermişdi; yəni o bu qeyri-insani müalicədən sağ çıxmışdı. Yaxşı ki, Dr. İqor xəstəxana şurasından tələb etmişdi ki, onlar bu məsələ ilə bağlı bəyannamə imzalayıb, bütün məsuliyyəti öz üzərlərinə götürsünlər.

Dr. İqor bir neçə hesabatı oxumağa başladı. Xəstələrin ikisi-üçü gecə vaxtı


e-kitab.org

aqressiv davranmışdılar. Tibb bacılarının hesabatlarına əsasən, onların arasında Eduard da var idi. O öz palatasına təqribən səhər saat dörddə getmiş və yuxu dərmanları içməkdən imtina etmişdi. Dr. İqor buna bir çarə tapmalı idi. İçəridə Vilet nə qədər liberal olursa olsun, oranın sərt və konservativ institut olması obrazını qorumaq lazım idi.

– Sizdən çox vacib bir şey soruşmalıyam, – Veronika dedi.

Lakin Dr. İqor ona əhəmiyyət vermədi. Stetoskopunu götürüb, onun ürəyini və ciyərlərini dinlədi. Reflekslərini yoxlayıb, kiçik fənərlə onun gözlərini müayinə etdi. Vitriol zəhərlənməsinin heç bir əlaməti yox idi.

Dərhal telefona yaxınlaşıb, tibb bacısından qəliz səslənən bir dərmanı gətirməsini xahiş etdi.

– Görünür, dünən gecə sənə iynə vurulmayıb, – o dedi.

– Axı özümü yaxşı hiss edirəm.

– Sənin üzünə baxmaq elə bəs edir: gözlərinin altında tutqun kölgələr var, yorğun görünürsən və reflekslərin zəifdir. Ömrünün qalan vaxtını səmərəli keçirmək istəyirsənsə, dediklərimə əməl etməlisən.

– Elə məhz ona görə də buradayam. Az qalmış ömrümdən maksimum dərəcədə istifadə etmək istəyirəm, amma öz arzuladığım kimi. Nə qədər vaxtım qalıb?

Dr. İqor eynəyinin ucundan ona göz yetirdi.


e-kitab.org

– Mənə deyə bilərsiniz, – o dedi, – qorxmuram və biganə-filan deyiləm. Yaşamaq istəyirəm, amma bilirəm ki, istəmək kifayət deyil və taleyimə təslim olmuşam.

– Bəs onda nə istəyirsən?

Tibb bacısı şprislə içəri girdi. Dr. İqor başını əydi və tibb bacısı Veronikanın sviterinin qolunu qatladı.

– Nə qədər vaxtım qalıb? – tibb bacısı iynəni yeridərkən, Veronika bir də soruşdu.

– İyirmi dörd saat, bəlkə bir qədər də az.

Veronika yerə baxıb dodaqlarını dişlədi, lakin soyuqqanlılığını saxlamağa nail oldu.

– Sizdən iki xahişim var. Birincisi: mənə elə bir iynə və ya dərman verin ki, həyatıının qalan hər bir dəqiqəsindən zövq almaq üçün oyaq qala bilim. Çox yorulmuşam, amma yatmaq istəmirəm. Etməyə çox şey var. O şeylər ki, həyatın əbədi olduğunu düşündüyüm vaxtlarda onları həmişə sabaha saxlayırdım; həyatın mənasız olduğunu düşünməyə başlayanda marağımı itirdiyim şeylər...

– Bəs ikinci xahişin nədir?

– Burada ölmək istəmirəm, Lyublyana qalasına getmək istəyirəm. Mənim heç vaxt gedib ona yaxından baxmağa həvəsim olmayıb. Sonra... qışda şabalıd, yazda isə çiçək satan qadınla söhbət etmək istəyirəm. Biz bir neçə dəfə bir-birimizin yanından keçmişik, amma mən heç vaxt ondan hal-əhval soruşmamışam. Və mən jaketsiz


e-kitab.org

bayıra çıxıb, qar üstündə gəzişmək, həddən çox soyuğun necə olduğunu hiss etmək istəyirəm. Çünki həmişə soyuqlamaqdan bərk qorxub, özümü bərk-bərk bürümüşəm.

Qısacası, Dr. İqor, mən, yağan yağışı üzümdə hiss etmək, xoşum gələn hər bir kişiyə gülümsəmək, mənim üçün qəhvə almaq istəyən bütün kişilərin təkliflərini qəbul etmək istəyirəm. Anamı öpmək, onu sevdiyimi söyləmək, hisslərimi göstərməkdən utanmayıb dizləri üstündə ağlamaq istəyirəm, çünki bu hissləri həmişə keçirsəm də, onları gizlətmişəm. Ola bilsin, kilsəyə də gedərəm və mənim üçün heç vaxt məna kəsb etməyən obrazlara baxaram, görüm, onlar indi mənə nəsə deyəcəklərmi. Maraqlı bir kişi məni kluba dəvət etsə, qəbul edərəm və bütün gecəni yıxılana kimi oynayaram. Sonra onunla yatmağa gedərəm, amma əvvəllər başqaları ilə yatdığım kimi yox; bu dəfə özümü idarə etməyə çalışmayacaq, hiss etmədiyim şeyləri hiss edirəm kimi davranmayacağam. Özümü bir kişiyə, şəhərə, həyata və nəhayət, ölümə təslim etmək istəyirəm.

Veronika sözlərini bitirdikdən sonra ağır bir sakitlik çökdü. Həkim və xəstə bir-birinə baxıb, cəmi iyimi dörd saat ərzində nələr etməyin mümkün olması barədə düşüncələrə qərq oldular.

– Sənə oyadıcı dərmanlar verəcəyəm, amma məsləhət görərdim ki, onlardan istifadə etməyəsən, – Dr. İqor nəhayət ki, dilləndi. – Onlar səni oyaq saxlaya bilərlər,



e-kitab.org

amma yaşamaq istədiyin bütün şeylərdən həzz almaq üçün lazım olan sakitliyi əlindən alacaqlar.

Veronika özünü xəstə hiss etməyə başlayırdı; hər dəfə ona iynə vurulanda bədənində pis şeylər baş verirdi.

– Sən çox solğun görünürsən. Bəlkə gedib yatasan və biz sabah yenə də danışarıq.

Veronikanı bir də ağlamaq tutdu, amma özünü saxladı.

– Yaxşı bilirsiniz ki, sabah olmayacaq. Mən yorğunam, Dr. İqor, çox yorğunam. Ona görə də sizdən o dərmanları istədim. Mən yarıümidsiz, yarıtəslim olmuş halda bütün gecəni oyaq qalmışam. Dünən olduğu kimi, yeni bir qorxu hücumuna qapıla bilərdim, amma nə mənası? Həyatımın sonuna hələ iyirmi dörd saat qalıbsa və məni gözləyən bu qədər macəra varsa, qərara gəlmişəm ki, yaxşısı budur, ümidsizliyi bir kənara qoyum. Xahiş edirəm, Dr. İqor, qoyun ömrümün qalan hissəsini yaşayım, çünki hər ikimiz bilirik ki, sabah artıq çox gec olacaq.

– Get yat, – həkim dedi. – Sabah günorta bura gələrsən, onda yenə də danışarıq.

Veronika başqa çıxış yolunun olmadığını anladı.

– Yaxşı, gedib yataram, amma olarını sizinlə bir neçə dəqiqə də söhbət edim?

– Gərək qısa olsun. Bu gün çox məşğulam.



e-kitab.org

– Birbaşa mətləbə keçim. Dünən gecə, ilk dəfə olaraq, tamamilə sərbəst şəkildə masturbasiya etdim. Heç vaxt düşünməyə cəsarət etmədiyim şeyləri düşündüm, əvvəllər məni qorxudan və ya uzaqlaşdıran şeylərdən həzz aldım.

Dr. İqor özünün ən peşəkar görkəmini aldı. Söhbətin hara gedəcəyini bilmirdi və özündən yuxarıdakılarla problem yaşamasını istəmirdi.

– Mən yolumdan çıxmışam, doktor. Bilmək istəyirəm, bunun mənim intihara cəhd etməyimdə rolu olubmu. Özüm haqqında bilmədiyim o qədər şeylər varmış ki!

"Mən, sadəcə, ona cavab verməliyəm, – deyə həkim düşündü. – Gələcəkdə cinsi zorakılıq barəsində açılacaq məhkəmə işlərinin qarşısını almaq üçün tibb bacısını içəri çağırıb onun bu söhbətə şahid olmasına ehtiyac yoxdur".

– Hamımız fərqli şeylər istəyirik, – həkim dedi. – Partnyorlarımız da həmçinin. Bunun nəyi pisdir ki?

– Siz bilərsiniz.

– Bu çox pis haldır. Çünki hər kəs arzulayanda, lakin yalnız bəzilərimiz arzularımızı reallaşdıranda, bu, qalanlarımızı qorxağa döndərir.

– Hətta o bəzilərimiz haqlı olsalar belə?

– Haqlı olan şəxs, sadəcə, ən güclü olan şəxsdir. Bu halda nə qədər ağlasığmaz olsa da, cəsarətli olanlar qorxaqlardır, çünki onlar öz fikirlərini hamıya yeritməyə nail


e-kitab.org

olurlar.

Dr. İqor davam etmək istəmədi.

– İndisə get, bir az istirahət et; mən başqa xəstələri görməliyəm. Əgər dediyimi etsən, ikinci xahişinlə bağlı nə edə biləcəyim barədə düşünərəm.

Veronika otaqdan çıxdı. Növbəti xəstə isə xəstəxanadan buraxılmağa hazır olan Zedka idi. Dr. İqor ondan bir qədər gözləməsini xahiş etdi; o, yenicə bitirdiyi söhbət haqqında bir neçə qeydlər aparmaq istəyirdi.

Vitriol haqqındakı dissertasiyasına cinsi əlaqə barədə bir fəsil əlavə etməli idi. Axı bu qədər nevrozlar və psixozların mənbəyi cinsi əlaqə idi. O inanırdı ki, fantaziyalar, beyindən gələn elektrik impulslar idi ki, reallaşdırılmadıqda öz enerjilərini digər sahələrə sərf edirdilər.

Tibb təhsili zamanı, Dr. İqor cinsi pozğunluq, sadizm, mazoxizm, homoseksuallıq, koprofaqiya, vuayerizm və digər saysız-hesabsız hallar barədə maraqlı traktat oxumuşdu.

Əvvəlcə o bunları öz partnyorları ilə sağlam əlaqədə ola bilməyən və cəmiyyətin normalarına uyğunlaşmayıb yolundan çıxmış bəzi insan tipi hesab edirdi. Psixiatr peşəsində püxtələşdikcə anladı ki, hər kəsin qeyri-adi hekayəsi vardır. Xəstələri onun otağında rahat stulda əyləşib bir müddət gözlərini yerə dikir, sonra isə “xəstəlik” (elə bil həkim o deyildi) və ya pozğunluq (sanki pozğunluğun nə olub-olmadığını


e-kitab.org

müəyyənləşdirmək psixiatr kimi onun işi deyildi) adlandırdıqları uzun-uzadı dissertasiyaya başlayırdılar.

Və bir-bir bu normal insanlar erotik azlıqlar haqqında yazılmış o məşhur traktatda rast gəlinən fantaziyalarını təsvir edirdilər. Həmin kitab əslində hər kəsin istədiyi kimi orqazma çatmaq haqqını müdafiə edirdi, bir şərtlə ki, onların partnyorlarının hüquqları pozulmayaydı.

Monastırda oxumuş qızlar seksual alçaldılma arzuladıqlarını; kostyum və qalstuk geyinmiş kişilər, yüksək rütbəli dövlət xadimləri Rumıniya fahişələrinə onların ayaqlarını yalamaqdan ötrü bir ətək pul tökdüklərini danışmışdılar. Oğlanlara aşiq olmuş oğlanlar, məktəbli qız yoldaşlarına aşiq olmuş qızlar, arvadlarının başqa kişilərlə cinsi əlaqədə olmasına tamaşa etmək istəyən ərlər, ərlərinin onlara xəyanət etməsi barədə öyrənəndə hər dəfə masturbasiya edən qadınlar, qapının zəngini çalan ilk poçtalyonla yatmaq istəyini boğmağa çalışan analar, sərt sərhəd idarələrindən keçməyə nail olan əcaib transvistitlərlə yaşadıqları gizli macəralar barədə təfərrüatı ilə danışan atalar...

Və bir də əyyaşlıq. Elə görünürdü ki, hamı ömründə ən azı bir dəfə də olsa, əyyaşlıq etmək istəyir. Dr. İqor bir anlıq qələmini yerə qoyub, özü haqqında düşünməyə başladı. Bəs o necə? Hə, o da istərdi. Onun təsəvvüründə əyyaşlıq tamamilə anarxiya və şənlikdən ibarət idi.


e-kitab.org

Əyyaşlıqda sahiblik hissi yox, sadəcə, həzzalma və qarmaqarışıqlıq mövcud idi.

Bu qədər insanın kin-küdurətlə zəhərlənməsinin əsas səbəblərindən biri də bu idimi? Dr. İqorun tibb kitabxanasında ehtiyatla qorunan tədqiqatlara əsasən, evliliklər məcburi monoqamiya ilə məhdudlaşdırılmışdı və evliliyin üç və ya dördüncü ilində cinsi həvəs yox olurdu. Ondan sonra, qadın özünü rədd edilmiş, kişi isə tələyə düşmüş kimi hiss edirdi və beləcə Vitriol və ya kin hər şeyi yeməyə başlayırdı.

İnsanlar psixiatrla daha açıq danışa bilirdilər, nəinki rahiblə. Çünki həkim onları cəhənnəm əzabı ilə hədələmirdi. Uzun sürən psixiatr karyerası ərzində Dr. İqor xəstələrinin demək istədiyi hər şeyi eşitmişdi.

Məsələ də burasındadır ki, onlar məhz demişdilər, çünki çox nadir hallarda nəsə edirdilər. Bu peşədə neçə il işlədikdən sonra belə Dr. İqor hələ də özünə sual verirdi ki, niyə insanlar fərqlənməkdən bu qədər qorxurlar?

Səbəb axtarmağa çalışanda ən çox eşitdiyi cavablar bunlar olurdu: “Ərim elə fikirləşər ki, mən fahişə kimi davranıram” və ya “Arvadım mənim hörmətimə layiqdir”.

Söhbət elə oradaca bitirdi. Hər kəsin fərdi barmaq izləri olduğu kimi, fərqli cinsi profili olduğunu izah etməyin heç bir mənası olmurdu; heç kim buna inanmaq istəmirdi. Yataqda çox sərbəst olmaq


e-kitab.org

təhlükəli idi; digər şəxsin hələ də köhnə ideyaların qulu olması qorxusu həmişə üstün gəlirdi.

"Dünyanı dəyişəsi deyiləm ki! Amma ən azından tezisimdə nə düşündüyümü deyə bilərəm",– deyə Dr. İqor təslim olmuş şəkildə düşündü. Sonra tibb bacısından depressiya xəstəliyindən əziyyət çəkmiş Zedkanı içəri çağırmasını xahiş etdi.

Eduard Veronikanın Dr. İqorun məsləhətxana otağından çıxıb öz palatasına doğru getdiyini gördü. Bir gecə əvvəl onun öz bədənini Eduarda açıb göstərdiyi kimi, eyni səmimiyyət və sərbəstliklə Eduard da öz sirlərini və ürəyini ona açmaq istədi.

Bu, Viletə şizofrenik kimi qəbul olunandan bəri keçdiyi ən ağır sınaqlardan biri idi. Lakin özünü saxlamağa nail olmuşdu və bundan məmnun idi, hərçənd oranı tərk etmək arzusu onu narahat etməyə başlamışdı.

"Hamı bilir ki, bu qızın ömrü həftənin sonunadək çəkməyəcək. Buna görə də iç dünyasını ona açmağın heç bir mənası yoxdur".

Amma bəlkə də məhz elə buna görə öz həyat hekayəsini onunla bölüşmək yaxşı olardı. Üç il ərzində o, yalnız Mari ilə danışmışdı və hətta bəzən Marinin belə onu tam anladığına şübhə edirdi. Bir ana kimi, o, Eduardın valideynlərinin haqlı olduqlarını, onların öz övladlarının yaxşılığını istədiklərini, onun cənnəti görməsinin real dünya ilə əlaqəsini tamamilə kəsmiş yetkin



e-kitab.org

insanın gördüyü səfeh yuxulardan başqa bir şey olmadığını düşünməyə borclu idi.

Məhz cənnət görüntüləri ilə bağlı fikirləri onu cəhənnəmə sürükləmiş, ailəsilə tükənməz mübahisələr etməyə gətirib çıxarmış, elə bir güclü günah hissi duymasına vadar etmişdi ki, o özünü tamamilə gücsüz hesab etmiş və nəhayət, başqa bir aləmdə özünə sığınacaq tapmasına səbəb olmuşdu.

Sonra Mari peyda olmuş, onun qeydinə qalmış və o, yenidən sevildiyini hiss etmişdi. Əgər Mari olmasaydı, o, hələ də həmin fərqli aləmdə yaşayacaqdı. Onun köməyi sayəsində Eduard ətrafında nə baş verdiyini dərk edə bilirdi.

Bir neçə gün əvvəl onunla eyni yaşda olan gənc bir qız pianoda oturub, "Ay işığı sonatası"nı ifa etdi və Eduardın cənnətlə bağlı təxəyyülləri onu yenidən narahat etməyə başladı. O, buna nəyin – musiqininmi, gənc qızınmı, Ayınmı, yoxsa Viletdə uzun müddət vaxt keçirməsininmi səbəb olduğunu ayırd edə bilmədi.

Eduard Veronikanı qadınlar palatasına qədər və tibb bacısı onun qarşısını alanadək izlədi.

– Bura girmək olmaz, Eduard. Get bağçaya, sübh açılmaq üzrədir, gözəl gün olacaq.

Veronika dönüb geri baxdı.

– Gedib bir qədər yatacağam, – o, yavaşca dedi. – Mən oyananda danışarıq.

Səbəbini bilməsə də, o cavan oğlan



e-kitab.org

Veronikanın dünyasının və ya ondan az qalmış hissəsinin bir parçasına çevrilmişdi. Veronika bilirdi ki, Eduard onun musiqisini dərk etməyə, istedadına valeh olmağa qadirdir; o, heç nə deyə bilməsə də, gözləri hər şeyi ifadə edirdi – necə ki, həmin an palatanın qapısı qarşısında Veronikanın eşitmək istəmədiyi şeylərdən danışırdı.

Şəfqət. Məhəbbət.

"Psixi xəstələrlə yaşamaq məni dəli edir. Şizofreniklər elə şeylər hiss etmirlər".

Veronika geri dönüb onu öpmək istədi, lakin fikrindən vaz keçdi; tibb bacısı Dr. İqora xəbər verərdi və həkim şizofrenikləri öpən bir adamın Viletdən kənara çıxmasına qətiyyən icazə verməzdi.

Eduard tibb bacısına göz yetirdi. Onun gənc qıza olan vurğunluğu düşündüyündən də güclü idi, amma o özünü idarə etmək məcburiyyətində idi. Gedib Maridən məsləhət alacaqdı, sirlərini bölüşdüyü yeganə adam o idi. Şübhəsiz, Mari ona eşitmək istədiklərini – belə vəziyyətlərdə məhəbbətin həm təhlükəli, həm də faydasız olduğunu – deyəcəkdi. Mari Eduarda ağlını başına toplayıb, normal şizofrenik olmağa davam etməyi məsləhət görəcəkdi (sonra da öz cəfəng sözlərinə gülümsəyəcəkdi).

Eduard yeməkxanada digər insanlara qoşulub, veriləni yedi və məcburi gəzinti üçün bağçaya çıxdı. "Gün qəbul edərkən" (həmin gün havanın hərarəti sıfır dərəcədən aşağı idi) o, Mariyə yaxınlaşmağa çalışdı, amma Mari tək qalmaq istəyirmiş


e-kitab.org

kimi görünürdü. Heç nə deməyə ehtiyac yox idi; Eduard başqalarının ehtiyaclarına hörmət etdiyi kimi, onların yalqız qalmağa olan tələbatını kifayət qədər yaxşı anlayırdı.

Bu zaman xəstəxananın yeni sakinlərindən biri Eduarda yaxınlaşdı. Onun hələ heç kimi tanımadığı açıq-aydın görünürdü.

– Tanrı bəşəriyyəti cəzalandırmışdır, – o dedi. – Onları fəlakətə düçar etmişdir. Amma mən onu röyalarımda gördüm və o mənə Sloveniyanı xilas etmək işini tapşırdı.

Eduard oradan uzaqlaşarkən kişi qışqırmağa davam edirdi:

– Sən məni dəli hesab edirsən? Onda get, İncili oxu. Tanrı yeganə oğlunu yerə göndərmişdir və Oğulu yenidən dirçəlmişdir.

Amma Eduard onu artıq eşitmirdi. O, uzaqdakı dağlara tamaşa edir və ona nə olduğu barədə düşünürdü. Çoxdan axtardığı sakitliyi, nəhayət, tapdıqdan sonra oranı niyə tərk etmək istəyirdi? Bütün ailə problemlərinin artıq həll olunduğu vaxtda niyə valideynlərinin yenə də rüsvay olmasına risk etsin ki?

Həyəcanla gəzişinəyə başlayıb, söhbət etmək üçün Marinin öz sükunətindən çıxmasını gözlədi, amma Mari heç vaxt olmayan qədər uzaq görsənirdi.

O, Viletdən necə qaçacağını bilirdi. Mühafizə nə qədər möhkəm görünsə də, orada çoxlu dəlik-deşiklər var idi, sadəcə, ona görə ki, Viletə gələnlər çox nadir


e-kitab.org

hallarda oranı tərk etməyi arzulayırdılar. Qərb tərəfdəki divar çıxıntılarla dolu olduğu üçün asanlıqla ora dırmaşmaq olardı; ora dırmanan hər kəs tezliklə kəndə düşər və beş dəqiqə sonra şimala, Xorvatiyaya aparan yola çıxa bilərdi. Müharibə bitmişdi, qardaşlar yenə də qardaş idi, cəbhələr əvvəlki kimi mühafizə olunmurdu; bir az bəxti gətirsəydi, altı saatdan sonra Belqrada çata bilərdi.

Eduard artıq bir neçə dəfə o yola çıxmışdı, lakin hər dəfə geri qayıtmaq qərarına gəlmişdi, çünki hələ irəli getmək üçün işarə almamışdı. İndi isə hər şey fərqli idi: işarə, yaşıl gözlü, qəhvəyi saçlı və diksinmiş gözlərində nə istədiyini bilən gənc bir qızın simasında gəlmişdi.

Eduard elə o andaca və oradaca divarı dırmaşıb, oranı tərk etmək və bir daha heç vaxt Lyublyanada görünməmək haqqında düşündü. Amma o gənc qız hələ də yatırdı və ən azından onunla sağollaşmaq istəyirdi.

Hamı "gün qəbul etdikdən" və "Qardaşlığ"ın üzvləri istirahət otağında toplaşdıqdan sonra Eduard onlara qoşuldu.

– O lunatikin burada nə işi var? – qrupun ən yaşlı üzvü soruşdu.

– Onunla işiniz olmasın, – Mari dedi. – Onsuz da bizim hamımız dəliyik.

Onlar qəhqəhə çəkib güldülər və dünənki günün mühazirəsi barədə söhbətə başladılar. Sual bu idi: Sufi meditasiyası həqiqətənmi dünyanı dəyişə bilər?


e-kitab.org

Nəzəriyyələr, həmçinin təkliflər, metodologiyalar, əks arqumentlər irəli sürüldü, mühazirin ünvanına tənqidlər yağdırıldı və əsrlərin sınağından çıxmış üsulların necə inkişaf etdirilməsi yolları müzakirə olundu.

Eduard bu cür müzakirələrdən zara gəlmişdi. Bu insanlar özlərini psixi xəstəxanaya bəndləmişdilər və heç bir risk etmədən dünyanı xilas etmək istəyirdilər. Çünki bilirdilər ki, oradan kənarda hamı onlara güləcək – hətta onların bəzi ideyaları çox praktik olsa belə. Hər bir kəsin hər şey haqqında öz fərziyyəsi var idi və onlar yalnız öz inandıqlarının həqiqət olduğunu düşünürdülər. Onlar saatlarını, gecələrini, həftələrini və illərini danışmaqla keçirir və heç vaxt qəbul etmirdilər ki, yaxşı və ya pis fikir əməl olunmayanadək yalnız ideya olaraq qalır.

Sufi meditasiyası nə idi? Yaradan nə anlama gəlirdi? Dünyanın xilas olunmasına gərək var idisə, onda xilas edilmək nə demək idi? Heç nə. Əgər oradakılar – Viletdən kənardakılar da daxil olmaqla – sadəcə, həyatlarını yaşayıb, digərlərinin də yaşamasına imkan versəydilər, Yaradan hər bir anda, hər bir xardal dənəsində, bir saniyə görünüb növbəti saniyədə yox olan bulud parçasında olardı. Yaradan hər yerdə idi, amma insanlar hələ də israrla onu axtarmağa davam edirdilər, çünki həyatın, sadəcə, inancdan ibarət olmasını qəbul etmək çox bəsit görünürdü.


e-kitab.org

Eduard Veronikanın piano çalınağa gəlməsini gözlədiyi zaman sufi ustadının öyrətdiyi məşğələni eşitdiyini xatırladı: sadəcə, qızılgülə tamaşa edin. Daha nə lazımdır ki?

Hətta dərin meditasiya etdikdən, cənnəti görməyə bu qədər yaxınlaşdıqdan sonra belə, onlar yenə müzakirələr aparır, mübahisə edir, tənqid yağdırır və nəzəriyyələr irəli sürürdülər.

Onun gözləri Mariyə sataşdı. Mari kənara baxdı, lakin Eduard bu vəziyyətə birdəfəlik son qoymaqda qərarlı idi; o, yaxınlaşıb Marinin qolundan yapışdı.

– Bəsdir, Eduard.

Ona "mənimlə gəl" deyə bilərdi, amma hamının qarşısında bunu etmək istəmədi, onun bu qəti tonu onları təəccübləndirə bilərdi. Ona görə də dizi üstə əyilib, yalvarışlı baxışlarla ona baxmağı üstün tutdu.

Qadın və kişilər gülməyə başladılar.

– Mari, sən onun üçün müqəddəs olmusan, – kimsə dedi. – Yəqin dünənki meditasiyanın nəticəsidir.

Lakin Eduardın illər sürən sakitliyi ona gözlərilə danışmağı öyrətmişdi; o, bütün enerjisini gözlərinə yönəltməyi bacarırdı. Necə ki, Veronikanın onun gözlərindəki şəfqət və məhəbbəti anladığından əmin idi, eləcə də bilirdi ki, Mari onun çarəsizliyini anlayacaq, çünki Eduardın ona həqiqətən ehtiyacı var idi.

Mari bir qədər israr etdikdən sonra


e-kitab.org

ayağa qalxdı və onun əlindən tutub dedi:

– Gəl, gedək gəzək. Sən məyus görsənirsən.

Onlar yenə də bağçaya getdilər. Kifayət qədər uzaqlaşan və heç kimin onları eşidə bilməyəcəyindən əmin olan kimi Eduard sükutu pozdu.

– Uzun illərdir ki, Viletdəyəm, – o dedi. – Valideynlərimi utandırmağa son qoymuşam, bütün arzularımı bir kənara atmışam, amma cənnət görüntüləri hələ də durur.

– Bilirəm, – Mari dedi. – Biz bu haqda dəfələrlə danışmışıq, həmçinin nə demək istədiyini də bilirəm: buranı tərk etməyin zamanı gəlib çatmışdır.

Eduard başını qaldırıb səmaya baxdı: Mari də eyni şeyimi fikirləşirdi?

– Və bu, o gənc qıza görədir, – Mari dedi. – Biz burada çox insanın öldüyünü görmüşük və onlar həmişə öz ölümlərini gözləyirdilər və adətən həyatdan tamamilə əllərini üzmüş olurdular. Lakin ilk dəfədir ki, biz bunun gənc, gözəl, sağlam və həyatı hələ irəlidə olan bir insanın başına gəldiyini görürük. Veronika yeganə insandır ki, Viletdə həmişəlik qalmaq istəmir. Və bu bizi özümüzə sual verməyə vadar edir: Bəs biz necə? Bizim burada nə işimiz var?

O, başını tərpətdi.

– Dünən gecə mən də bu xəstəxanada nə etdiyimi özümdən soruşdum. Və fikirləşdim ki, baş meydana getmək, Üç Körpüyə baş çəkmək, teatr qarşısındakı



e-kitab.org

bazara gedib alma almaq və hava haqqında söhbət etmək necə maraqlı olardı. Təbii ki, digər uzun müddət unudulan çoxlu şeylərlə də mübarizə aparmalı olacağam, məsələn, ödənilməmiş qəbzlər, qonşularla problemlər, məni anlamayan adamların istehzalı baxışları, yalqızlıq, övladlarımın şikayətlənməsi və s. Amma məncə, bunların hamısı həyatın bir hissəsidir; bu xırda problemləri həll etmək onların sənin problemlərin olduğunu qəbul etməməkdən daha ucuz başa gəlir. Düşünürəm, bu axşam keçmiş həyat yoldaşımın yanına gedib, ona, sadəcə, təşəkkür edim. Necə fikirləşirsən?

– Bilmirəm. Səncə, mən də valideynlərimin evinə gedib, eyni şeyi edimmi?

– Bəlkə də. Həyatda başımıza nə gəlirsə, yalnız və yalnız öz günahımız üzündən gəlir. Bizim keçdiyimiz eyni çətinliklərdən insanların çoxu keçir və onlar tamamilə fərqli reaksiya verirlər. Biz isə ən asan çıxış yolunu axtardıq: özümüzə fərqli reallıq yaratmaq.

Eduard Marinin haqlı olduğunu bilirdi.

– Sanki mən yenidən yaşamağa başlamışam, Eduard. Həmişə etmək istədiyim, lakin cəsarətim çatmadığı səhvləri etmək, məni yorsa da, yenidən qayıda biləcək panika hissləriilə üzləşmək istəyirəm, çünki bilirəm ki, onlar mənim ölməyimə və ya huşumu itirməyimə səbəb olmayacaq. Yeni dostlar tapacaq və müdrik olmaq üçün onlara çılğın olmağın yollarını



e-kitab.org

öyrədəcəyəm. Onlara düzgün davranış qaydalarına riayət etməməyi, əvəzində öz həyatlarını, istəklərini, macəraları və necə yaşamağı kəşf etmələrini söyləyəcəyəm. Zəburdan katoliklərə, Qurandan müsəlmanlara, Tövratdan yəhudilərə, Aristoteldən ateistlərə sitatlar gətirəcəyəm. Bir də heç vaxt hüquqşünas olmaq istəmirəm, amma təcrübəmdən istifadə edib bizim mövcudluğumuz haqqında həqiqətləri bilən və bütün yazıları yalnız bir sözdən – "Yaşa!" deməkdən ibarət olan qadın və kişilər barədə mühazirələr oxuyacağam. Əgər yaşasan, Yaradan da səninlə olar. Riskdən imtina etsən, o da uzaq asimana çəkilib, sadəcə, fəlsəfi fərziyyələrin mövzusuna çevrilər. Hamı bunu bilir, amma heç kim birinci addımı atmır, bəlkə ona görə ki, dəli adlandırılmaqdan qorxurlar. Ən azından bizdə o qorxu yoxdur, Eduard. Biz artıq Viletin sakinləri olmuşuq.

– Edə bilməyəcəyimiz yeganə şey prezidentliyə namizədliyimizi vermək olacaq. Müxalifət keçmişimizi mütləq araşdırar.

Mari güldü və razılaşdı.

– Mən buradakı həyatdan yorulmuşam. Qorxumun öhdəsindən gələ bilib-bilməyəcəyimi bilmirəm, amma "Qardaşlıq"dan, bu bağçadan, Viletdən və özümü dəli kimi aparmaqdan bezmişəm.

– Mən etsəm, sən də edərsən?

– Sən etməzsən.

– Mən bayaq az qala etmişdim.



e-kitab.org

– Bilmirəm, hər şeydən yorulmuşam, amma həm də hər şeyə öyrəşmişəm.

– Mən bura gələndə və şizofrenik kimi diaqnoz olunanda sən günlərlə, aylarla mənimlə danışır və mənimlə insan kimi rəftar edirdin. Mən sürmək istədiyim həyata, yaratdığım digər reallığa alışırdım, amma sən mənə imkan vermirdin. Sənə nifrət edirdim, amma indi səni sevirəm. Sənin Vileti tərk etməni istəyirəm, Mari, necə ki, mən öz aləmimi tərk etdim.

Mari cavab vermədən getdi.

Viletdəki kiçik və heç vaxt istifadə olunmayan kitabxanada Eduard Quranı, Aristoteli və ya Marinin sadaladığı digər filosoflardan heç birini tapa bilmədi. Əvəzində isə bir şairin sözlərinə rast gəldi:

Sonra ürəyimdə dedim, necə ki, axmaqların başına gəlir,

eləcə həm də mənim başıma gələcəkdir...

Öz yolunla get, çörəyini sevinclə ye

və şərabını şad ürəklə iç;

çünki Yaradan artıq sənin əməllərini qəbul etmişdir.

Qoy libasların həmişə bəyaz olsun

və saçlarından gülab əskik olmasın.

Onun sənə bəxş etdiyi və günəş altındakı

həyatın o fani günlərini

sevdiyin qadınla birgə xürrəm yaşa.

Çün sənin həyatına düşən pay odur.

Və günəş altında çəkdiyin zəhmətdən sonra,



e-kitab.org

gözlərinin gördüyü yerlərdə,
könlünün istədiyi kimi gəz.
Amma bil ki, bütün bunlara görə
Tanrı səni mühakimə edəcəkdir.

– Tanrı məni mühakimə edəcəkdir, – Eduard ucadan dedi. – Və mən deyəcəyəm: həyatımda bir dəfə, küləyə tamaşa edərək durdum və torpağı əkmək yadımdan çıxdı, həyatı sevinclə yaşamadım, mənə təklif edilən şərabdan belə içmədim. Lakin bir gün asanlıqla özümü mühakimə etdim və sonra işə qayıtdım. İnsanlara cənnət görüntülərindən bəhs etdim, necə ki, Boş, Van Qoq, Vaqner, Bethoven, Eynşteyn və məndən qabaq yaşamış divanələr görmüşdülər. Eybi yox, qoy desinlər ki, gənc bir qızın ölməsini görməmək üçün xəstəxananı tərk etdim. O, cənnətdə olacaq və məni himayə edəcək.

– Sən nə danışırsan? – deyə kitabxana nəzarətçisi soruşdu.

– Mən Vileti tərk etmək istəyirəm, – normadan bir qədər yüksək səslə Eduard dedi. – Görməli çoxlu işim var.

Kitabxanaçı zəngi çaldı və bir neçə saniyə sonra iki tibb qardaşı peyda oldu.

– Mən buradan getmək istəyirəm, – Eduard yenə də əsəbi şəkildə dedi. – Mən normalam, qoyun Dr. İqorla danışım.

Amma artıq tibb qardaşları hərəsi onun bir qolundan yapışmışdı. Bunun faydasız olduğunu bilsə də, Eduard özünü onlardan xilas etməyə çalışdı.

– Sən bir az krizisdəsən, sakit ol, –


e-kitab.org

onlardan biri dedi. – Biz bunun çarəsinə baxarıq.

Eduard müqavimət göstərməyə başladı.

– Qoyun, Dr. İqorla danışım. Ona deməyə çoxlu sözüm var, əminəm ki, o məni başa düşəcək.

Tibb qardaşları onu artıq palataya sürükləyirdilər.

– Buraxın! – deyə Eduard qışqırırdı. – Qoyun, bir dəqiqə danışım.

Palataya gedən yol böyük zaldan keçirdi və bütün xəstələr orada toplaşmışdılar. Eduard çarpışır və hər şey iyrənc görünməyə başlayırdı.

– Onu buraxın! O, dəlidir!

Bəziləri gülür, bəziləri isə əllərilə stul və stolları vururdu.

– Bura psixi xəstəxanadır. Heç kim burada özünü sizin kimi aparmaq məcburiyyətində deyil.

Tibb qardaşlarından biri digərinə pıçıldadı:

– Yaxşısı budur, onları qorxudaq, yoxsa vəziyyət tamamilə nəzarətdən çıxacaq.

– Bunun yalnız bir yolu var.

– Bu, Dr. İqorun xoşuna gəlməyəcək.

– Bu manyak dəstəsinin onun sevimli xəstəxanasını dağıtınağını isə heç xoşlamayacaq...

Veronika yuxudan diksinərək soyuq tər içində ayıldı. Çöldən dəhşətli səs gəlirdi və yatmağa davam etmək üçün ona sakitlik lazım idi. Lakin səs-küy davam edirdi.

Başı bir qədər gicəllənən halda



e-kitab.org

çarpayıdan qalxıb zala getdi, Eduardın zorla sürükləndiyini və digər tibb işçilərinin əllərində şprislə içəri tələsdiklərini gördü.

– Siz nə edirsiniz? – deyə o qışqırdı.

– Veronika!

Şizofrenik onunla danışmışdı. Onun adını çəkmişdi. Təəccüb və xəcalət hissilə o, yaxınlaşmağa çalışdı, amma tibb bacılarından biri onu saxladı.

– Nə edirsiniz? Mən dəli olduğum üçün burada deyiləm? Mənimlə bu cür rəftar edə bilməzsiniz.

O, tibb bacısını kənara itələməyə nail oldu. Bu zaman digər xəstələr qışqırır və gumbuldadırdılar. Dr. İqoru çağırıb, dərhal oranı tərk etsinmi?

– Veronika!

Eduard bir də onu çağırdı. İnsana xas olmayan güc göstərib, o özünü iki tibb qardaşının əlindən xilas edə bildi. Amma qaçmaq əvəzinə, əvvəlki gecə etdiyi kimi, hərəkətsiz oradaca dayandı. Sanki sehrbazlıqla susdurulmuş kimi hamı sakitləşib növbəti hərəkəti gözlədi.

Tibb qardaşlarından biri yenə də ona yaxınlaşdı və Eduard bütün gücünü toplayaraq ona baxıb dedi:

– Sizinlə gedəcəyəm. Məni haraya aparacağınızı bilirəm və hamının bunu bilməsini istədiyinizi də bilirəm. Ancaq bir dəqiqə gözləyin.

Tibb qardaşı qərara aldı ki, risk etməyə dəyər; hər şey qaydasına düşmüşdü.

– Məncə... məncə, sən mənə lazımsan, –


e-kitab.org

Eduard Veronikaya dedi.

– Sən danışa bilmirsən. Sən bu dünyada yaşamırsan. Sən mənim adımın Veronika olduğunu bilmirsən. Sən dünən mənimlə deyildin; xahiş edirəm, de ki, sən dünən orada deyildin.

– Orada idim.

Veronika onun əlini əlinə aldı. Lunatiklər qışqırır, alqışlayır və ədəbsiz atmacalar atırdılar.

– Onlar səni haraya aparırlar?

– Hansısa bir müalicəyə.

– Mən də səninlə gedəcəyəm.

– Buna dəyməz. Sən qorxarsan, – hətta əgər and da içsəm ki, ağrıtmır, adam heç nə hiss etmir və ağrıkəsicilərdən daha yaxşı təsir edir. Çünki adamın zehnini onlardan daha cəld bərpa edir.

Veronika onun nədən danışdığını başa düşmədi. Onun əlini tutmağa peşman oldu, bacardıqca oradan tez qaçmaq, xəcalətini gizləmək, ondakı bütün çirkinliklərə şahid olmuş, buna baxmayaraq, onunla belə nəzakətlə davranan bu insanı bir daha heç vaxt görməmək istədi.

Amma yenə də Marinin sözlərini xatırladı: o öz həyatını heç kimə izah etməli deyildi, heç qarşısında duran insana da.

– Mən, səninlə gələcəyəm.

Tibb işçiləri düşündülər ki, belə daha yaxşı olar. Şizofrenikin əl-qolunu bağlamağa artıq ehtiyac yox idi; o öz istəyi ilə gedirdi.

Onlar palataya çatanda Eduard



e-kitab.org

çarpayıda uzandı. Orada daha iki kişi var idi və onlar qəribə bir aparat və əski parçasıyla dolu torba ilə gözləyirdilər.

Eduard Veronikaya tərəf dönüb, ona çarpayıda oturmasını söylədi.

– Bir neçə dəqiqədən sonra bu xəbər bütün Viletə yayılacaq və hamı yenə də sakitləşəcək, çünki dəlilərin dəlisi belə qorxu hissi keçirir. Yalnız bunu yaşayan insan bilir ki, bu, göründüyü qədər də dəhşətli deyil.

Tibb işçiləri söhbəti dinlədilər, amma şizofrenikin dediklərinə inanmadılar. Çox yəqin ki, bu, çox ağrılı bir prosesdir, ancaq kim bilir lunatikin başında nələr baş verir? Cavan oğlanın dediklərində yalnız bir həqiqət var idi, o da qorxu idi. Xəbər bütün Viletə tezliklə yayılacaqdı və sakitlik o dəqiqə bərqərar olacaqdı.

– Tez uzandın, – onlardan biri dedi.

Eduard bir də ayağa qalxdı və onlar onun altına kauçuk örtük sərdilər.

– İndi uzana bilərsən.

Eduard deyiləni yerinə yetirdi. O, tamam sakit idi, sanki baş verənlər adi rejimin bir hissəsi idi.

Tibb işçiləri Eduardın bədənini əski parçaları ilə sarıb, ağzına rezin yerləşdirdilər.

– Bu onun dilini dişləməməsi üçündür, – texniki informasiya və xəbərdarlıq verdiyindən məmnun qalan tibb qardaşlarından biri Veronikaya dedi.

Sonra onlar ayaqqabı qutusundan azca



e-kitab.org

böyük, üzərində bir neçə düymə və nömrə olan o qəribə aparatı çarpayının yanındakı stolun üstünə qoydular. Aparatın yuxarı hissəsindən çıxan iki tel qulaqcıqlara bənzəyən şeyə birləşdirilmişdi.

Tibb işçilərindən biri bu "qulaqcıqları" Eduardın gicgahlarına yapışdırdı. Digəri isə aparatı tənzimləməyə çalışır, onun çıxıntılarını gah sağa, gah sola bururdu. Ağzındakı rezin parçasına görə danışa bilməsə də, Eduard gözlərini Veronikaya zilləyib, elə bil ona "Narahat olma, qorxma" deməyə çalışırdı.

– 0.3 saniyə 130 volta qoyulmuşdur, – aparatı idarə edən tibb işçisi dilləndi. Başladıq!

O, düyməni basdı və aparat vızıldadı. Həmin anda Eduardın gözləri donuq ifadə aldı, bədəni elə dəlicəsinə vurnuxdu ki, əgər onu çarpayıya bağlayan qayışlar olmasaydı, onurğa sütunu sına bilərdi.

– Saxlayın! – Veronika qışqırdı.

– Saxlamışıq, – Eduardın gicgahlarından "qulaqcıqları" götürən tibb işçisi dedi. Eduardın bədəni hələ də qıvrılmağa davam edir, başı o yan-bu yana elə azğıncasına yırğalanırdı ki, tibb qardaşlarından biri onun başını tutub saxlamalı oldu. Digər tibb qardaşı aparatı öz qabına qoyub, siqaret çəkməyə başladı.

Mənzərə cəmi bir neçə saniyə çəkdi. Elə bil Eduardın bədəni normaya qayıdırdı, amma sonra spazmalar başladı ki, tibb işçisi ikiqat cəhdlə onun başını saxlamağa çalışdı.



e-kitab.org

Gərilmələr bir müddət də davam etdi və nəhayət, tamamilə dayandı. Eduardın gözləri bərəlmişdi, tibb işçisi ölü gözü bağlayırmış kimi onun gözlərini qapadı. Sonra rezin parçanı Eduardın ağzından çıxardı, bağları açdı və əski parçalarını aparat qutusunun içinə qoydu.

– Elektrik şok müalicəsinin təsiri təqribən bir saat davam edir, – o, qıza dedi. Veronika artıq qışqırmırdı və gördüklərindən heyrətə gəlmişdi. – Hər şey qaydasındadır, o, tezliklə özünə gələcək və sakitləşəcək.

Elektrik yüklənən kimi Eduard əvvəllər yaşadığı hissləri keçirdi: sanki kimsə pərdəni örtürmüş kimi, onun görmə qabiliyyəti tədricən zəifləyir və sonda hər şey tamamilə yox olurdu. Heç bir əzab və ya ağrı hiss olunmurdu, lakin əvvəllər elektrik şokla müalicə olunan xəstələri gördüyü üçün bilirdi ki, bu, kənardan çox dəhşətli təsir bağışlayır.

Eduard indi hüzur içində idi. Əgər bir an öncə ürəyində yeni emosiyaların yarandığını hiss edirdisə, əgər məhəbbətin valideynlərinin ona verdiyindən fərqli bir şey olduğunu dərk etməyə başlayırdısa, elektrik şok və ya mütəxəssislərin “elektrokonvulsiv terapiya” (EKT) adlandırdıqları müalicə onu normal halına qaytaracaqdı.

EKT-nin əsas effekti qısa müddətli yaddaşı məhv etmək idi. Eduardın qeyri-mümkün arzuları artıq cücərməyəcəkdi. O,


e-kitab.org

mövcud olmayan gələcəyi gözləməyə davam edə bilməyəcəkdi; onun düşüncələri keçmişə köklənməli idi, yoxsa yenidən həyata qayıtmaq istəyərdi.

Bir saat sonra Zedka, demək olar ki, boş olan palataya getdi; palatada yalnız bir çarpayı və üstündə uzanan gənc bir oğlan, bir stul və üstündə oturan gənc bir qız var idi.

Yaxınlaşdıqda Zedka qızın yenə də xəstələndiyini və başının azca sağ tərəfə sallandığını gördü.

Zedka başını çevirib tibb işçilərini köməyə çağırmaq istədikdə Veronika başını yuxarı qaldırdı:

– Mən yaxşıyam. Yenə də ürəktutma keçirdim, amma indi yaxşıyam.

Zedka ehmalca ona ayağa qalxmaqda və ayaqyoluna qədər getməkdə yardım elədi.

– Bura kişilər üçündür, – Veronika dedi.

– Narahat olma, burda heç kəs yoxdur, – Zedka cavab verdi.

O, Veronikanın bulaşmış köynəyini çıxarıb yudu və radiatorun üstünə sərdi. Sonra öz yun köynəyini çıxarıb Veronikaya uzatdı.

– Qoy bu səndə qalsın. Mən yalnız sağollaşmağa gəlmişdim.

Qız sanki həyat eşqini itirmişdi. Zedka onu bayaq oturduğu stula apardı.

– Eduard bir azdan ayılacaq. Nə baş verdiyini xatırlamaya bilər, amma yaddaşı tezliklə yerinə qayıdacaq. Səni görən kimi tanımasa, üzülmə.



e-kitab.org

– Üzülmərəm, çünki heç özüm-özümü tanıya bilmirəm.

Zedka stul çəkib onun yanında oturdu. Viletdə o qədər olmuşdu ki, bir neçə dəqiqə Veronikanın yanında oturmaq ona heç bir ziyan verməzdi.

– İlk tanışlığımız yadındadır? Dünyanı necə görürüksə, o cür də olmasını izah etmək üçün sənə bir hekayə danışmışdım. Hamı kralın dəli olduğunu hesab edirdi, çünki o öz əhalisinin ağlında artıq mövcud olmayan hökm verirdi.

– Lakin həyatda elə şeylər var ki, onlara necə baxırsansa bax, hamı üçün eynidir. Məsələn, məhəbbət kimi.

Zedka Veronikanın gözlərində dəyişiklik hiss etdi:

– Mən deyərdim ki, əgər çox az ömrü qalmış bir qadın yatmış bir kişinin çarpayısı yanında oturub öz qısa vaxtını ona tamaşa etməklə keçirirsə, bu sevgidir. Hətta bir az daha uzağa gedib deyərdim ki, əgər bu müddət ərzində həmin qadın ürəktutması keçirməsinə baxmayaraq, sadəcə, o kişiyə yaxın olmaq üçün sakitcə yanında oturursa, onda o məhəbbətin böyüyüb inkişaf etmək potensialı var.

– Bu həm də ümidsizlik ola bilər, – Veronika dedi. – Yer üzərində savaşın mənasız olduğunu sübuta yetirməyə cəhd etmək ola bilər. Mən başqa aləmdə yaşayan bir insana aşiq ola bilmərəm.

– Biz hamımız öz aləmimizdə yaşayırıq. Ancaq ulduzlu səmaya baxsan, görərsən ki,


e-kitab.org

göy qübbəsindəki bütün fərqli dünyalar birləşərək bürcləri, günəş sistemlərini, qalaktikaları əmələ gətirir.

Veronika ayağa qalxıb, Eduardın yanına getdi. Onun saçlarını mehribancasına sığalladı. Danışmağa bir kimsəsi olduğuna sevindi.

– Çox-çox bundan əvvəl, mən hələ uşaq olanda və anam məni piano çalınağa məcbur edəndə, öz-özümə deyirdim ki, mən yalnız aşiq olanda yaxşı çala bilərəm. Keçən gecə ömrümdə ilk dəfə idi ki, sanki musiqi notlarının qarşısını ala bilmirdim, barmaqlarımdan süzülüb çıxırdı.

Elə bil hansısa bir qüvvə mənə bələdçilik edir, çala bildiyimdən heç xəbərim belə olmayan melodiyalar və akkordlar yaradırdı. Özümü pianoya verdim, çünki başımdakı bir tükə belə toxunmayan bu kişiyə özümü yenicə təslim etmişdim. Dünən pianoya və məhəbbətə təslim olduğum anda özümdə deyildim. Lakin bununla belə, düşünürəm ki, məhz o anda mən özüm idim. – Veronika başını yellədi. – Boş-boş danışıram...

Zedka fəzada müxtəlif istiqamətlərdə uçuşan o varlıqlarla rastlaşdığını xatırladı. Bu haqda Veronikaya danışmaq istədi, amma onu bir az da çaşdırmamaq üçün fikrindən vaz keçdi.

– Öləcəyin barədə növbəti dəfə danışmazdan əvvəl, sənə bir şey demək istərdim. Elə insanlar var ki, bütün ömürlərini sənin dünən gecə yaşadığın anın


e-kitab.org

axtarışına sərf edirlər, amma buna nail ola bilmirlər. Ona görə də indi ölsən belə, ürəyin sevgi ilə dolu şəkildə öləcəksən.

Zedka ayağa qalxdı.

– İtirməyə heç nəyin yoxdur. Çox insan özünə sevməyi icazə vermir, məhz ona görə ki, risk etməli çox şey var: çoxlu gələcək, çoxlu keçmiş var. Sənin isə ancaq indiki anın var.

O, Veronikaya yaxınlaşıb onu öpdü.

– Əgər bir az da qalsam, buranı heç vaxt tərk etməyəcəyəm. Depressiyam keçib gedib, amma mən Viletdə öyrəndim ki, dəliliyin digər formaları da var. Öyrəndiklərimi özümlə aparmaq və həyatı öz gözlərimlə görmək istəyirəm.

Buraya gələndə, dərin depressiyaya düşmüşdüm. İndi isə qürurla deyə bilərəm ki, mən çılğınam. Bayırda özümü hamı kimi aparacağam. Supermarketdə bazarlıq edəcək, dostlarımla gündəlik mövzular barədə söhbətləşəcək və qiymətli vaxtımı televizora baxmağa xərcləyəcəyəm. Ancaq bilirəm ki, mənim ruhum azaddır və bura gəlməmişdən qabaq mövcudluğundan xəbərim belə olmayan digər aləmlərlə danışa bilərəm. Bir neçə səfeh şey etməyə özümə imkan verəcəyəm, sadəcə ona görə ki, qoy hamı desin: "O, Viletdən təzəcə çıxıb". Amma ruhumun bütövlüyünə əmin olacağam, çünki həyatının mənası var. Günəşin qüruba enməsinə baxıb, onun arxasında Yaradanın olduğuna inanacağam. Kimsə məni qıcıqlandıranda, onlar



e-kitab.org

haqqında nə düşündüyümü deyəcəyəm, çünki hamı deyəcək: “O, Viletdən yenicə buraxılıb”.

Küçədəki kişilərə, onların gözlərinin düz içinə baxıb, arzulandığım üçün özümü günahkar hiss etməyəcəyəm. Lakin dərhal sonra idxal edilmiş mallar satılan mağazaya girib, ala biləcəyim ən bahalı şərabı alacam və sevdiyim həyat yoldaşımla içəcəyəm, çünki yenidən onunla gülmək istəyirəm. Və o, gülə-gülə mənə deyəcək: “Sən dəlisən”. Və mən deyəcəyəm: “Əlbəttə dəliyəm, Viletdə olduğum yadından çıxıb? Dəlilik məni azad etdi. İndi isə, mənim əziz həyat yoldaşım, sən hər il tətilə çıxıb, hansısa təhlükəli dağa dırmaşmaqda mənə kömək etməlisən ki, sağlamlığımı riskə atım”. İnsanlar deyəcək: “O, Viletdən təzəcə çıxıb və indi də ərini dəli edir”. O da onların haqlı olduğunu anlayıb, Yaradana şükür edəcək ki, bizim evliliyimiz yenidən başlayır və biz ikimiz də ilk dəfə sevgini kəşf edənlər kimi dəliyik...

Zedka Veronikanın heç vaxt eşitmədiyi bir melodiyanı zümzümə edərək palatanı tərk etdi.



e-kitab.org

# 21

* * *

Gün çox yorucu keçmiş, amma çox bəhrəli olmuşdu. Dr. İqor alimə xas olan soyuqqanlığını və biganəliyini saxlamağa çalışırdı, amma ruh yüksəkliyini gizlədə bilmirdi. Vitriol zəhərlənməsinin müalicəsini tapmaq üçün həyata keçirdiyi testlər gözlənilməyən nəticələr vermişdi.

– Siz bu günə görüş təyin etməmisiniz, – o, qapını döymədən içəri girmiş Mariyə dedi.

– Bu çox çəkməyəcək. Bir məsələ barədə, sadəcə, sizin fikrinizi öyrənmək istəyirəm.

“Bu gün elə hamı mənim fikrimi öyrənmək istəyir”, – deyə bayaq gənc qızın cinsi əlaqə barədə verdiyi sualı xatırlayan Dr. İqor düşündü.

– Eduarda indicə elektroşok verilib.

– Ona “elektrokonvulsiv terapiya” deyilir. Lütfən, düzgün adı işlədin, yoxsa elə çıxacaq ki, biz adi bir barbarlar bandasıyıq. – Dr. İqor heyrətini gizlətməyə çalışdı, amma sonra kimin bunu etmək qərarını verdiyini araşdıracaqdı. – Və əgər bu barədə fikrimi bilmək istəyirsinizsə, deməliyəm ki, bu gün EKT-dən əvvəllər olduğu kimi istifadə edilmir.

– Axı bu təhlükəlidir.

– Əvvəllər çox təhlükəli idi; insanlar düzgün voltajı, elektrodları dəqiqliklə harada yerləşdirməyi müəyyən edə



e-kitab.org

bilmirdilər və buna görə də müalicə zamanı beynə qansızma baş verirdi. Amma indi hər şey dəyişib. Bu gün EKT-dən çox yüksək texniki dəqiqliklə istifadə olunur və onun həmin dəqiqə amneziyaya səbəb olmaq kimi üstünlüyü var ki, bu da uzun müddət dərınanlardan istifadə etməyin nəticəsində yaranan kimyəvi zəhərlənmənin qarşısını alır. Psixiatriya jurnallarını oxuyun və EKT-ni Cənubi Amerika cəlladlarının həyata keçirdiyi elektrik şokla səhv salmayın. Hə, mənim fikrimi öyrəndiniz, indi isə mən işimə qayıtmalıyam.

Mari tərpənmədi.

– Mən bunu soruşmaq üçün gəlməmişdim. Buranı nə zaman tərk edə biləcəyimi öyrənmək istəyirəm.

– İstədiyiniz vaxt buranı tərk edə və istədiyiniz vaxt geri qayıda bilərsiniz, çünki bu cür bahalı bir xəstəxanada sizin qalmaq xərclərinizi ödəmək üçün həyat yoldaşınızın kifayət qədər pulu vardır. Bəlkə məndən soruşasınız: "Mən sağalmışammı?" Və mənim növbəti sualım bu olacaq: "Nədən sağalmısınız?" Siz cavab verəcəksiniz: "Qorxumdan, panika hücumlarından". Və mən deyəcəyəm: "Mari, siz keçən üç ildə onsuz da bunlardan əziyyət çəkmirdiniz".

– Deməli, mən sağalmışam.

– Əlbəttə ki, yox. Sizin xəstəliyiniz ondan ibarət deyildi. Sloveniya Elmlər Akademiyası üçün yazmaqda olduğum tezisdə – Dr. İqor Vitriol haqqında heç bir xırdalığa getmək istəmirdi – normal insan


e-kitab.org

davranışı deyilən mövzuda tədqiqat aparıram. Məndən əvvəl gələn həkimlərin çoxu oxşar mövzuda tədqiqat aparmışlar və belə bir nəticəyə gəlib çıxmışlar ki, normallıq ümumi razılaşmadan başqa bir şey deyildir; yəni ki, əksəriyyət nəyinsə düzgün olduğuna qərar verir və həmin şey normaya çevrilir.

– Bəzi şeylər sadə məntiqə əsaslanır. Məsələn, düymələri köynəyin önündə qoymaq məntiqlidir, çünki onu böyürdən düymələmək çox çətin, arxadan düymələmək isə qeyri-mümkün olardı.

Lakin digər şeylər isə ona görə normal olur ki, daha çox adam onun elə olmasına inanır. İki misal çəkə bilərəm. Haçansa düşünmüsünüz ki, yazı makinası üzərindəki düymələr nəyə görə müəyyən qaydada düzülüb?

– Yox, düşünməmişəm.

– Biz onu "QWERTY" adlandırırıq, çünki yazı makinasının birinci sırasındakı hərflər o qaydada düzülüb. Mən bir dəfə bunun niyə belə olması haqda düşünmüşdüm və cavabı tapdım: ilk yazı makinası 1873-cü ildə, kalliqrafiyanı inkişaf etdirmək üçün Xristofer Şolz tərəfindən ixtira edilmişdi. Amma bir məsələ ortaya çıxmışdı: kimsə sürətlə çap edəndə düymələr ilişir və makinanın xarab olmasına səbəb olurdu. Sonra Şolz "QWERTY" klaviaturasını düzəltdi və bu, makinaçıları daha asta çap etməyə məcbur etdi.

– Mən buna inanmıram.


e-kitab.org

– Amma bu həqiqətdir. Belə alındı ki, həmin vaxt tikiş maşınlarını və həmçinin silahları ixtira edən Reminqton öz yazı makinalarında "QWERTY" klaviaturasından istifadə etdi. Bu, o demək idi ki, daha çox adam həmin sistemi öyrənməyə məcbur oldu, daha çox şirkət bu klaviaturadan istehsal etməyə başladı və nəhayət, bu, satılan yeganə modelə çevrildi. Təkrar edirəm: yazı makinalarındakı və kompüterlərdəki klaviaturalar insanların daha sürətlə yox, daha asta çap etməsi üçün düzəldilmişdi, başa düşürsünüz? Əgər hərflərin yerləri dəyişdirilsəydi, heç kim o məhsulları almayacaqdı.

İlk dəfə klaviatura görəndə Mari hərflərin niyə əlifba sırası ilə düzülmədiyinə heyrətlənmişdi, amma tezliklə bunu yadından çıxarmışdı. O, elə güman etmişdi ki, bu, insanların daha cəld çap etməsi üçün belə qurulmuşdur.

– Florensiyada haçansa olubsunuz?

– Xeyr.

– Ora bir gün gedin; çox uzaq deyil və ikinci misalımın orada şahidi ola bilərsiniz. Florensiyadakı baş kilsədə, 1443-cü ildə Paolo Uçello gözəl bir saat düzəltmişdi. Bu saat barəsində maraqlı fakt ondan ibarətdir ki, o, digər saatlar kimi günün vaxtını təyin etsə də, onun əqrəbləri normal saat əqrəblərinin əksi istiqamətində hərəkət edir.

– Bunun mənim xəstəliyimlə nə əlaqəsi var?



e-kitab.org

– İndi ona gəlirəm. Bu saatı düzəldərkən, Paolo Uçello heç də orijinal olmağa çalışmırdı: məsələ burasındadır ki, həmin zamanlarda onun saatı kimi saatlar, həmçinin digər saatlar da var idi və onların əqrəbləri bizim indi tanış olduğumuz saatların əqrəblərinin hərəkət etdiyi istiqamətdə işləyirdi. Hansısa qeyri-müəyyən səbəbə görə, bəlkə də ondan ötrü ki, hersoqun saatının əqrəbləri bizim indi "düzgün" hesab etdiyimiz istiqamətdə hərəkət edirdi deyə, bu, yeganə istiqamət olaraq qaldı və Uçellonun saatı anormal, səfeh göründü.

Dr. İqor pauza etdi, amma bilirdi ki, Mari onun sözlərindəki məntiqi anlamışdır.

– Gəlin, indi də qayıdaq sizin xəstəliyinizə: hər bir insan unikaldır, hər kəsin özünəməxsus keyfiyyətləri, instinktləri, həyatdan həzz almaq tərzləri və macəra yaşamaq istəkləri vardır. Buna baxmayaraq, cəmiyyət həmişə bizə kollektiv davranma qaydalarını qəbul etdirir və insanlar hər zaman bu davranış qaydalarını sorğu-suala tuturlar. Onlar bu qaydaları sadəcə qəbul edirlər, necə ki, makinaçılar "QWERTY"-nin ən yaxşı klaviatura olması faktını qəbul etmişdilər. Bütün həyatınız boyu, haçansa saat əqrəblərinin nə üçün məlum istiqamətdə deyil, əks istiqamətdə işləməsini soruşan insana rast gəlmisinizmi?

– Yox.

– Əgər kimsə soruşsaydı, yəqin ki,


e-kitab.org

alacağı cavab bu olardı: "Dəli olmusan". Əgər o, israr etsəydi, insanlar hansısa səbəb gətirməyə cəhd edərdilər, lakin tezliklə mövzunu dəyişərdilər, çünki indicə sizə dediyim səbəbdən ayrı səbəb yoxdur. Deməli, sizin sualınıza qayıdaq. Bir də deyin, nə soruşmuşdunuz?

– Mən sağalmışammı?

– Yox. Siz əslində olduğunuzdan fərqlisiniz, amma hamı kimi olmağa çalışırsınız. Və bu, mənim fikrimcə, ciddi xəstəlikdir.

– Fərqli olmağı arzulamaq məgər ciddi xəstəlikdir?

– Özünüzü hamı kimi olmağa məcbur edirsinizsə, hə. Belə etmək nevroz, psixoz və paranoya xəstəliklərinə səbəb olur. Bu, təbiəti pozmaq, Yaradanın qanunlarının əksinə getmək deməkdir, çünki O, dünyanın heç bir meşə və cəngəlliklərində bir-birinə bənzəyən iki yarpaq belə yaratmamışdır. Ancaq siz düşünürsünüz ki, fərqli olmaq dəlilikdir, ona görə də Viletdə qalmağa üstünlük verdiniz. Burada hamı fərqli olduğu üçün siz hamı kimi görsənirsiniz. İzah edə bilirəmmi?

Mari başını tərpətdi.

– İnsanlar fərqli olmağa cəsarət etmədikləri üçün təbiətə qarşı gedirlər, sonra da orqanizm Vitriol və ya hamının bildiyi küskünlük ifraz etməyə başlayır.

– Vitriol nədir ki?

Dr. İqor çox uzağa getdiyini anlayıb, mövzunu dəyişmək qərarına gəldi.



e-kitab.org

– Boş şeydir. Demək istədiyim budur ki, göstəricilərə əsasən, siz hələ sağalmamısınız.

Marinin hüquq məhkəmələrində uzun illər təcrübəsi var idi və o, qərara gəldi ki, bu təcrübədən elə oradaca istifadə etsin. Onun ilk taktikası özünü rəqibi ilə razılaşan kimi göstərib, həmin dəqiqə onu yeni arqumentə cəlb etmək oldu.

– Sizinlə həmfikirəm. Mənim bura gəlmək səbəbim çox konkret idi: məndə panika hücumları baş verirdi. Burada qalmaq səbəbim isə çox abstrakt idi: işsiz və ərsiz yaşamaqdan fərqli bir yaşayış fikrilə üzləşməyə hazır deyildim. Dediklərinizlə razılaşıram ki, mənim yeni həyata başlamaq və tamamilə yenidən o həyata uyğunlaşmaq üçün iradəm qalmamışdı. Bundan əlavə, haqlısınız ki, psixi xəstəxanada hətta elektrik şok – üzr istəyirəm, sizin EKT deməyi üstün tutduğunuz – müalicələrilə, sərt cədvəllərlə və bəzi xəstələrin təsadüfi isterik püskürmələri ilə bərabər, buradakı qaydaları qəbul etmək daha asandır, nəinki sizin dediyiniz kimi, hər şeyə uyğunlaşmağa çalışan dünyanın qaydalarına.

Daha sonra isə dünən gecə bir qızın piano çalınağını eşitdim. O, pianoda mükəmməl, çox nadir hallarda gördüyüm şəkildə ifa edirdi. Musiqini dinlədikcə, bu sonataları, prelüdləri, adajioları bəstələmək üçün nə qədər əzab çəkmiş insanlar haqqında düşündüm. Onlar öz musiqi parçalarını ifa edərkən, yəqin ki, onları nə


e-kitab.org

qədər məsxərəyə qoymuşdular; axı onların əsərləri o vaxtlar musiqi dünyasında hökmranlıq edənlərə fərqli gəlirdi. Orkestr üçün pul ayırmağa kimisə razılaşdırmaqdan ötrü keçilən çətinliklər və dözülən həqarətlər barədə fikirləşdim. Belə harmoniyalara hələ alışmayan ictimaiyyətin onları fitə basmalarını xəyal etdim. Lakin bəstəkarların çəkdiyi əzablardan daha da pisi gənc qızın pianoda o cür ruhla ifa etməsi idi, çünki o, öləcəyini bilirdi. Məgər mən ölməyəcəyəm? Bu cür həvəslə öz həyatımın musiqisini çalmaq üçün məndə ruh hanı?

Dr. İqor sükutla dinləyirdi. Görünür, onun ideyaları artıq bəhrə verməyə başlamışdı, amma əmin olmaq üçün hələ tez idi.

– Mənim ruhum haradadır? – Mari bir də soruşdu. – Mənim keçmişimdə. Həyatımın nə olmasını istəməyimdə. Evimi, həyat yoldaşımı, işimi tərk etmək istəsəm də, buna cəsarətim çatmadığı anda mən ruhumu əsir altına saldım. Mənim ruhum mənim keçmişimdə qalmışdı. Lakin bu gün o azaddır, mən yenə də onun öz bədənimdə şövqlə yaşadığını hiss edirəm. Nə edəcəyimi bilmirəm. Yalnız onu bilirəm ki, həyatın məni getmək istəmədiyim səmtə yönəltdiyini bu üç il ərzində anlamışam.

– Deyəsən, mən sağalma əlamətləri görürəm, – Dr. İqor dedi.

– Vileti tərk etmək üçün icazə alınağa lüzum yoxdur. Mən, sadəcə, qapıdan çıxıb,



e-kitab.org

bir də heç vaxt geri qayıtmaya bilərəm. Lakin bunları kiməsə deməyə ehtiyacım var idi və sizə deyirəm: o cavan qızın ölümü məni öz həyatımı anlamağa vadar etdi.

– Məncə, bu sağalmaq əlamətləri möcüzəvi şəfa zəncirinə çevrilir, – Dr. İqor gülərək dedi. – Bəs indi nə etmək fikriniz var?

– El Salvadora gedib, orada uşaqlarla işləyəcəyəm.

– O qədər uzağa getməyə ehtiyac yoxdur. Sarayevo buradan cəmi iki yüz kilometr uzaqdadır. Müharibə bitsə də, problemlər hələ davam edir.

– Onda Sarayevoya gedərəm.

Dr. İqor siyirmədən forma çıxarıb, onu ehtiyatla doldurdu. Sonra ayağa durub, Marini qapıyadək müşayiət etdi.

“Uğurlar” deyib, dərhal ofisinə geri qayıtdı və qapını örtdü. Xəstələrinə mehrini salınamağa çalışsa da, bu heç vaxt alınmırdı. Marinin Viletdə yeri görünəcəkdi.



e-kitab.org

# 22

* * *

Eduard gözlərini açanda qız hələ də orada idi. İlkin elektrik şok seanslarından sonra o, nə baş verdiyini xatırlamaq üçün uzun müddət əlləşməli olurdu; amma elə müalicənin terapevtik təsiri də süni yolla yarımyaddaşsızlıq yaratmaqda idi ki, xəstə onu narahat edən problemləri unudub sakitlik əldə edə bilsin.

Lakin elektrik şoku ilə müalicə nə qədər tez-tez təkrarlanırdısa, onun təsiri getdikcə bir o qədər azalırdı; buna görə o, qızı dərhal xatırladı.

– Yuxudaykən sən cənnət görüntüləri ilə bağlı nəsə deyirdin, – onun saçlarını oxşaya-oxşaya qız dedi.

Cənnət görüntüləri? Hə, cənnət görüntüləri. Eduard ona baxarkən, ürəyindən ona hər şeyi demək keçdi.

Ancaq elə həmin andaca tibb bacısı əlində şprislə içəri daxil oldu.

– Bunu indi sənə vurmalıyam, – o, Veronikaya dedi. – Dr. İqorun əmridir.

– Bu gün artıq mənə iynə vurulub, daha istəmirəm, – Veronika dedi. – Bundan başqa, mənim buranı tərk etmək fikrim də yoxdur. Qayda-qanunlara riayət etməkdən imtina edirəm və məni heç nəyə məcbur edə bilməzsiniz.

Tibb bacısı bu cür reaksiyaya öyrənmiş kimi görsəndi.

– O halda qorxuram ki, sənə



e-kitab.org

sakitləşdirici vermək məcburiyyətində qalacağıq.

– Səninlə danışmalıyam, – Eduard Veronikaya dedi. – Qoy iynəni vursun.

Veronika sviterinin qolunu çırmaladı və tibb bacısı iynəni onun qoluna yeritdi.

– Bax belə, afərin, – tibb bacısı dedi. – Bəlkə indi ikiniz də bu qaranlıq palatanı tərk edib, çöldə gəzməyə gedəsiniz?

– Sən dünən etdiklərindən xəcalət çəkdin, – onlar bağda gəzərkən Eduard dedi.

– Hə, amma indi qürur duyuram. O cənnət görüntüləri haqqında öyrənmək istəyirəm, çünki az qala özüm də onları gördüm.

– Gərək uzaqlara, Viletin divarlarından kənarlara baxım, – Eduard dedi.

– Onda, buyur bax.

Eduard arxaya döndü: palataların divarlarına və ya xəstələrin sükutla gəzişdiyi bağçaya deyil, digər qitədə yerləşən bir küçəyə, ya sel kimi yağışların yağdığı, ya da heç vaxt yağmayan torpaqlara baxdı.


e-kitab.org

# 23

* * *

Eduard o torpaqların qoxusunu duya bildi. Quru fəsil idi; burun deşiklərində qum dənələrini hiss etdi və bu hissdən zövq aldı, çünki torpağın iyini hiss edə bilmək sağ olmaq demək idi. O, idxal olunmuş velosiped sürürdü, on yeddi yaşı var idi və Braziliyadakı bütün diplomatların övladlarının təhsil aldığı Amerika kollecini yenicə tərk etmişdi.

Braziliyaya nifrət etsə də, braziliyalıları çox sevirdi. İki il əvvəl, heç kimin onun ölkəsinin qəddarcasına bölünəcəyini xəyal belə etmədiyi bir anda atası Yuqoslaviyanın səfiri təyin olunmuşdu. Miloşeviç hələ də hakimiyyətdə idi; qadın və kişilər öz fərqlilikləri ilə bərabər, yaşamağa və regional konfliktlərdən kənarda həmahənglik tapınağa çalışırdılar.

Atasının ilk təyinatı Braziliya olmuşdu. Eduard çimərliklər, karnavallar, futbol oyunları və musiqi barədə xəyallar qururdu, lakin onlar sahildən çox uzaqda, Braziliyanın paytaxtında məskunlaşdılar – o şəhər ki, yalnız siyasətçiləri, bürokratları, diplomatları və onların bütün olanlar arasında ilişib qalan övladlarını sığınacaqla təmin etmək üçün yaradılmışdı.

Eduard orada yaşamağa nifrət edirdi. Gününü dərslə məşğul olmaqla keçirirdi. Məktəb yoldaşları ilə ünsiyyət qurmağa çalışsa da, alınmırdı. Digər gənclərin söhbət



e-kitab.org

etdikləri yeganə mövzularla – maşınlar, ən son markalı tennis ayaqqabıları, dizayner geyimləri ilə maraqlanmağa çalışır, lakin uğursuzluğa düçar olurdu.

Arabir əyləncəli yığıncaqlar təşkil olunanda oğlanlar otağın bir hissəsində içki içməklə məşğul olur, qızlar isə digər hissəsində özlərini biganə göstərirdilər. Ətrafda həmişə marixuana olurdu və Eduard demək olar mümkün olan bütün çeşidlərin dadına baxmışdı. Lakin heç biri onu coşdurmurdu; o, ya həddən artıq həyəcanlanırdı, ya da özünü çox yuxulu hiss edir və dərhal ətrafında baş verənlərə qarşı marağını itirirdi.

Ailəsi narahat idi. Valideynləri onu atasının getdiyi yolu davam etməyə hazırlamalı idilər və Eduard demək olar, lazım olan bütün istedadlara malik idi: oxumaq həvəsi, yaxşı bədii zövqü, xarici dil bacarığı, siyasətə marağı... Onun çatışmayan bir mühüm cəhəti var idi, o da insanlarla ünsiyyət qurmaqda çətinlik çəkməsi idi.

Valideynləri onu ziyafətlərə aparır, ona dostlarını evə dəvət etməyi təklif edir və böyük məbləğdə cib xərcliyi verirdilər, amma Eduard nadir hallarda evə kimisə gətirirdi. Bir gün anası ondan evə nahara və ya şam yeməyinə niyə heç kimi dəvət etmədiyini soruşduqda, Eduard cavab vermişdi:

– Hər bir tennis ayaqqabısı markasını tanıyıram və yatağa asanlıqla gedən bütün qızların adlarını bilirəm. Bunlardan başqa,



e-kitab.org

onlarla heç bir mövzuda danışmaq mümkün deyil.

Sonra bir braziliyalı qız meydana çıxdı. Səfir və arvadı oğullarının qızla gəzməyə getməsinə və gecə evə gec gəlməsinə sevindilər. O qızın haradan peyda olduğunu heç kim bilmirdi. Bir axşam Eduard onu evlərində şam yeməyinə dəvət etdi. Qız tərbiyəli idi, buna görə də Eduardın valideynləri rahatlaşdılar: oğulları, nəhayət ki, başqa insanlarla ünsiyyət qurmaq bacarığını təkmilləşdirməyə başlamışdı. Bundan əlavə, hər ikisi bu qızın Eduardın həyatına gəlməsinin onların ən böyük narahatlıqlarından birinə son qoyduğunu düşündülərsə də, heç biri heç nə demədi: aydın oldu ki, Eduard homoseksual deyilmiş.

İki ildən sonra başqa ölkəyə təyin olunacaqlarını bildiklərinə baxmayaraq, onlar Mariya ilə (qızın adı belə idi) gələcək qayınana-qayınata kimi davranırdılar, lakin onların öz oğullarına ekzotik ölkədən olan biriylə evlənməsinə imkan vermək kimi bir niyyətləri yox idi. Onların planı bu idi ki, Eduard Fransa və ya Almaniyada yaxşı bir ailənin qızı ilə tanış olsun və bu qız səfirin öz oğlu üçün hazırladığı gələcək parlaq diplomatik karyerada Eduarda ali mənsəb yoldaşlığı etsin.

Ancaq Eduard getdikcə o qıza daha da çox aşiq olurdu. Narahat olan anası əri ilə danışmağa getdi.

– Diplomatiya sənətinin mahiyyəti


e-kitab.org

rəqibi gözlətdirməkdən ibarətdir, – səfir dedi. – İlk məhəbbəti heç vaxt unuda bilməsən də, o, həmişə sona çatır.

Lakin Eduard tamamən dəyişmişdi. Evə qəribə kitablar gətirməyə başlamış, otağında piramida qurmuşdu və Mariya ilə birlikdə hər gecə ətirli çubuqlar yandırır, saatlarla divardan asılmış əcaib bir şəklə tamaşa edirdilər. Eduardın məktəbdəki qiymətləri pisləşməyə başlamışdı.

Anası portuqal dilini bilməsə də, kitablar üzərindəki işarələri – xaçları, tonqalları, asılmış cadugərləri və ekzotik rəmzləri anlayırdı.

– Oğlumuz təhlükəli şeylər oxuyur, – o, yoldaşına dedi.

– Təhlükəli? Təhlükəli olan Balkanlarda baş verənlərdir, – deyə səfir cavab verdi. – Şayiələr gəzir ki, Sloveniya müstəqil olmaq istəyir və bu bizi müharibəyə sövq edə bilər.

Ancaq anası siyasətlə maraqlanmırdı; onu maraqlandıran oğlunun başına nə gəlməsi idi.

– Bəs bu ətirli çubuq yandırmaq nə deməkdir?

– Marixuananın qoxusunu gizlətmək üçündür, – deyə səfir açıqladı. – Oğlumuz mükəmməl təhsil alıb; onun o ətirli çubuqların ruhları çağırmasına inanması mümkün deyil.

– Oğlum narkotikaya qurşanıb?

– Olan şeydir. Gənc olarkən, mən də marixuana çəkmişəm; insanlar tezliklə ondan bezirlər. Məndə elə olmuşdu.


e-kitab.org

Səfirin arvadı qürurlandı və arxayınlaşdı. Yoldaşı təcrübəli adam idi, o, narkotika aləminə daxil olmuş və zərər dəyməmiş oranı tərk etmişdi. Bu cür möhkəm iradə gücünə malik olan insan istənilən vəziyyəti ələ alınmağa qadir idi.

Bir gün Eduard velosiped istədiyini bildirdi.

– Bizim sürücümüz və “Mersedes Benz”imiz var. Velosiped nəyinə lazımdır?

– Təbiətə daha yaxın olmaq üçün. Mariya ilə on günlük səyahətə çıxacağıq, – o bəyan etdi. – Buraya yaxın bir yerdə böyük kristal yataqları var. Mariya deyir ki, onlar həqiqi müsbət enerji buraxırlar.

Eduardın ata-anası kommunist rejimi altında böyümüşdülər. Onlar üçün kristal müəyyən atom birləşmələrindən ibarət mineral idi və heç bir xüsusi – müsbət, ya mənfi enerjiyə malik deyildi. Onlar bir qədər tədqiqat apardıqdan sonra aşkar etdilər ki, “kristal vibrasiyaları” ilə bağlı ideyalar dəbə düşməkdədir.

Əgər onların oğlu rəsmi ziyafətlərdə belə şeylərdən danışmağa başlasaydı, başqalarının məsxərəsinə səbəb olacaqdı. İlk dəfə olaraq, səfir vəziyyətin ciddi olduğunu qəbul etdi. Braziliya şəhəri şayiələrlə dolandığı üçün, səfirlikdəki rəqibləri onun oğlunun primitiv inanclara inandığını öyrənsəydilər, onlar elə güman edərdilər ki, oğlu bunları öz valideynlərindən öyrənmişdir. Diplomatiya gözləmək sənəti olmaqla bərabər, həm də


e-kitab.org

nəticəsi nə olursa olsun, normallıq fasadını qoruyub saxlamaq sənəti idi.

– Oğlum, belə davam etmək olmaz, – atası dedi. – Mənim Yuqoslaviyanın Xarici İşlər İdarəsində dostlarım var. Səni parlaq diplomat karyerası gözləyir və sən reallıqla üzləşməyi bacarmalısan.

Eduard həmin gecə evə qayıtmadı. Valideynləri Mariyagilin evinə, həmçinin bütün xəstəxanalara və meyitxanalara zəng etdilər, lakin heç bir faydası olmadı. Ərinin yadlarla danışıqlar aparmaq qabiliyyəti nə qədər yaxşı olsa da, arvadı onun ailəyə başçılıq etmək qabiliyyətinə olan inamını itirdi.

Növbəti gün Eduard ac və yuxulu halda peyda oldu. Yemək yeyib otağına getdi, ətirli çubuqlarını yandırdı, gecə paltarını geyib, bütün axşamı və gecəni yatdı. Ayılanda təp-təzə bir velosiped onu gözləyirdi.

– Get, kristallarını gör, – anası dedi. – Atana izah edərəm.

Beləcə, o quru, qumlu günortaçağı Eduard sevincək velosipedlə Mariyagilə yola düşdü. Şəhər (arxitektorun fikrincə) elə yaxşı planlaşdırılmışdı ki və ya (Eduardın fikrincə) elə pis planlaşdırılmışdı ki, demək olar, heç yerdə döngə yox idi; o, yüksək sürətdə zolaq boyu dümdüz sürür və göydəki yağışsız buludlara tamaşa edərək gedirdi. Sonra dəhşətli sürətlə göyə doğru qalxdığını hiss etdi və yenidən aşağı enib, asfaltın üstünə düşdü. Tarap!

“Mən qəzaya uğradım”.


e-kitab.org

Üzü asfalta sıxıldığına görə, o, çevrilməyə çalışdı və bədəni üzərində heç bir nəzarəti olmadığını anladı. Maşınların tormoz verdiklərini, adamların həyəcanlı səslə danışdıqlarını və kiminsə ona yaxınlaşdığını eşitdi. Sonra bir səs gəldi: “Onu tərpətməyin! Onu kimsə tərpətsə, o, ömürlük şikəst ola bilər!”

Vaxt çox ləng keçirdi və Eduard qorxmağa başladı. Valideynlərindən fərqli olaraq, o, Yaradana və axirətə inanırdı, bununla belə, on yeddi yaşında, gözlərini asfalta zilləmiş şəkildə və qərib ölkədə ölmək ona çox ədalətsiz görünürdü.

– Yaxşısan? – kimsə ondan soruşdu.

Yox, yaxşı deyildi; tərpənə bilmirdi, amma heç nə deyə də bilmirdi. Ən pisi isə bu idi ki, o, huşunu itirməmişdi; nə baş verdiyini və vəziyyətin nə yerdə olduğunu gözəl anlayırdı. Bəs nəyə görə özündən getməmişdi? Belə gərginliklə Yaradanı axtardığı vaxtda, heç kəsə və heç nəyə baxmayaraq, Yaradanın ona yazığı gəlməmişdi.

– Həkimlər yoldadırlar, – kimsə onun əlini sıxıb pıçıldadı. – Məni eşitdiyini bilmirəm, amma sakit ol. Ciddi heç bir şey yoxdur.

Hə, o eşidirdi və yaxşı olardı ki, həmin adam – kişi – danışmağa davam etsin, ciddi heç bir şeyin olmadığına söz versin, baxmayaraq ki, məhz vəziyyət həqiqətən də ciddi olan zaman insanların belə dediklərini başa düşmək üçün o kifayət qədər yetkin


e-kitab.org

idi. Mariya yadına düşdü və o, meditasiyalarında rastına çıxan yerlərin hamısından sıx mənfi enerjinin cəmləşdiyi Braziliyadan fərqli olaraq, müsbət enerji ilə dolu olan o kristal dağlar haqqında düşündü.

Saniyələr dəqiqələrlə əvəz olunurdu, insanlar ona təsəlli verməkdə davam edirdilər və hadisə baş verəndən bəri ilk dəfə idi ki, o, ağrı hiss etməyə başladı. Başının düz ortasından kəskin ağrı hissi gəldi və bütün bədəninə yayıldı.

– Onlar gəlib çatdılar, – onun əlini tutan kişi dedi. – Sabah yenə də velosipedini sürə biləcəksən.

Lakin ertəsi gün Eduard xəstəxanada, hər iki ayağı və bir qolu gipsdə idi və ən azı bir ay ərzində tərpənə bilməyəcək, anasının dayanmadan ağlamasını, atasının həyəcanlı telefon zənglərini, həkimlərin iyirmi dörd saatın keçdiyi və beynə heç bir zərərin dəyməməsi barədəki hər beş dəqiqədən bir zəmanət vermələrini dinləməyə məcbur olacaqdı.

Ailəsi dövlət xəstəxanalarının diaqnozlarına heç vaxt inanmayan, mürəkkəb təcili yardım sistemi olan və öz diplomatlarını müalicə etməyə qadir hesab etdikləri Braziliya həkimlərinin siyahısına malik Amerika səfirliyinə zəng etdi. Arabir, "yaxşı qonşu siyasətinin" bir hissəsi kimi, onlar digər diplomatlara bu xidmətlərdən istifadə etməyə icazə verirdilər.

Amerikanlar ən son nailiyyətləri


e-kitab.org

özündə ehtiva edən aparatlarını gətirib, növbəti test və müayinələr həyata keçirdilər və həmişə gəldikləri nəticəyə gəldilər: dövlət xəstəxanasındakı həkimlər xəsarətləri düzgün müəyyən etmiş və düzgün qərarlar vermişlər.

Dövlət xəstəxanasındakı həkimlər bacarıqlı ola bilərdilər, amma Braziliyanın televiziya kanallarındakı proqramlar, dünyanın hər yerində olduğu kimi, çox pis idi və Eduardın başını qatmağa bir şey yox idi. Mariyanın xəstəxanaya gəlişi getdikcə azalırdı; bəlkə də o, kristal dağlara getmək üçün başqa birini tapmışdı.

Qız dostunun qəribə davranışından fərqli olaraq, səfir və arvadı hər gün onu ziyarət etməyə gəlir, lakin atasının tezliklə yeni ölkəyə təyin olunacağı bəhanəsilə onun portuqal dilində olan evdəki kitablarını gətirməkdən imtina edirdilər; bir də heç vaxt istifadə etmək məcburiyyətində olmayacağına görə o dili öyrənməyə ehtiyac yox idi. Buna görə də Eduard vaxtını başqa xəstələrlə danışmaqla, tibb işçilərilə futbolu müzakirə etməklə və əlinə düşən istənilən qəzeti acgözcəsinə oxumaqla keçirirdi.

Sonra günlərin bir günündə tibb qardaşlarından biri ona "oxumaq üçün çox qalın" hesab etdiyi bir kitab gətirdi. Və elə həmin an Eduardın həyat yolunda qəribə bir döngə əmələ gəldi ki, o da onu Viletə gətirəcək, onun özünə qapanmasına səbəb olacaq və növbəti illər ərzində özüylə yaşıd oğlanların maraqlandığı hər şeydən


e-kitab.org

tamamilə uzaqlaşması ilə nəticələnəcəkdi.

Kitab düşüncələri ilə dünyanı silkələyən mistik şəxsiyyətlər, yerdə cənnətin olması ilə bağlı fikirləri olan insanlar və həyatını öz ideyalarını başqaları ilə bölüşməklə keçirən adamlar barəsində idi. Orada İsa Məsihlə bərabər, insanların meymundan əmələ gəldiyini iddia edən Darvin; yuxuların vacibliyini təsdiqləyən Freyd; kraliçanın cavahiratından istifadə edib yeni materik axtarışına çıxan Kolumb; hamının bərabər imkanlara layiq olduğuna inanan Marks kimi şəxsiyyətlər var idi.

Kitabda müqəddəslər də var idi, məsələn, basq əsgəri Loyolalı İqnatius kimi. O, çoxlu qadınla yatmış, bir sıra döyüşlərdə saysız düşmən məhv etmiş, sonra Pamlonada yaralanmış və yatağa düşüb sağalarkən kainatı dərk etməyə başlamışdı. Sonra: təsadüfən koridordan keçdiyi zaman dayanıb bir rəsm əsərinə tamaşa edərkən Tanrıya yol tapan Avilalı Teresa. Və ya yaşadığı həyatdan bezmiş, səhrada sürgün həyat sürmək qərarına gəlmiş, həyatının on ilini şeytanların əhatəsində yaşamaqla keçirmiş və onlar tərəfindən nəfsi hər cür sınağa çəkilmiş Antonio. Və quşların dilini öyrənməyi qət etmiş və valideynlərinin onun üçün hazırladığı həyata arxa çevirmiş gənc oğlan Assizli Fransisko...

Başqa iş olmadığı üçün Eduard bu "qalın kitabı" elə həmin gün, günorta çağı oxumağa başladı. Gecə yarısı otağının işığı hələ də yanılı olduğu üçün tibb bacısı gəlib


e-kitab.org

onun köməyə ehtiyacı olub-olmadığını soruşdu. O, kitabdan başını belə qaldırmadan, onu başından elədi.

Dünyanı silkələyən bu qadın və kişilər onun kimi, atası kimi və itirəcəyini bildiyi qız dostu kimi adi insanlar idilər. Bütün insanların öz gündəlik həyatlarında yaşadıqları eyni şübhə və həyəcanları onlar da keçirmişdilər. Onların din və ya Yaradana, öz zehinlərini genişləndirməyə, kamalın yeni səviyyələrini qət etməyə heç bir xüsusi maraqları yox idi. Yalnız günlərin bir günü onlar hər şeyi dəyişmək qərarına gəlmişdilər. Kitabın ən maraqlı hissəsi isə bu insanların hər birinin həyatında onların öz cənnətlərini tapmaq üçün yola düşməklərinə səbəb olan yeganə möcüzəvi anın necə baş verdiyindən bəhs etməsi idi.

Bu insanlar öz həyatlarının iz qoymadan keçməsinə izin verməmiş və istəklərinə nail olmaqdan ötrü pul üçün dilənmiş və ya krallara yalvarmış, diplomatiya və ya güc işlətmiş, qanunlara etinasız yanaşmış və ya hakimiyyətdə olanların qəzəbinə tuş gəlmiş, lakin heç vaxt ruhdan düşməmiş və baş verən istənilən çətinliyin faydalı tərəfini görmüşdülər.

Səhərisi gün Eduard ona kitab vermiş tibb işçisinə öz qızıl saatını verib, onu satmasını və o pula bu mövzuda mövcud olan bütün kitabları almasını xahiş etdi. Lakin o mövzuda daha kitab yox idi. Bu halda o, həmin görkəmli şəxsiyyətlərin



e-kitab.org

bəzilərinin bioqrafiyalarını oxumağa çalışdı, lakin hər yerdə yazılmışdı ki, bu insanlar seçilmiş, ilhama gəlmiş insanlar olub və adi insanlar kimi düşündüklərini söyləyə bilmək uğrunda mübarizə aparmaq məcburiyyətində qalmamışdılar.

Eduard oxuduqlarından o qədər mütəəssir olmuşdu ki, ciddi olaraq, müqəddəs olmağı və başına gələn qəzadan həyatının istiqamətini dəyişmək üçün bir şans kimi istifadə etməyi ağlından keçirtdi. Lakin onun hər iki qıçı sınmış, xəstəxanada olarkən ona heç bir şey əyan olmamış, onu yolundan edib ruhunu titrədən rəsm əsərinə rast gəlməmişdi və ya Braziliya düzənliyinin ortasında ona ibadətgah ucaldacaq dostları da yox idi; səhralar isə uzaq və siyasi problemlərlə dolu idi. Lakin edə biləcəyi bir şey vardı: rəssamlığı öyrənib, bu kişi və qadınların yaşadıqlarını təsvir etməklə onları dünyaya göstərə bilərdi.

Gipslərdən azad olub səfirliyə geri qayıdanda bir səfir oğlunun digər diplomatlardan uma bildiyi bütün qayğı, nəvaziş və diqqətlə əhatəyə alındı və anasından rəssamlıq kursuna yazılmağına yardımçı olmağını xahiş etdi. Anası ona amerikan məktəbində buraxdığı çoxlu dərsi çatdırmalı olduğunu dedi. Lakin Eduardın coğrafiya və digər elmləri öyrənməyə heç bir həvəsi yox idi; o, rəssam olmağı arzulayırdı.

Bir dəfə dilindən qaçırıb, məqsədini


e-kitab.org

izah etdi:

– Mən cənnət görüntülərinin rəsmini çəkmək istəyirəm.

Anası heç nə demədi, lakin söz verdi ki, rəfiqələrilə danışıb, şəhərdə ən yaxşı rəssamlıq kursunun harada olduğunu müəyyənləşdirəcək.

Həmin axşam səfir işdən evə qayıdanda arvadını yataq otağında ağlayan gördü.

– Oğlumuz dəli olub, – qadın göz yaşını sel kimi axıdaraq dedi. – Qəza onun beyininə təsir edib.

– Ola bilməz! – qəzəblənmiş səfir cavab verdi. – Onu amerikanlar tərəfindən xüsusi seçilmiş həkimlər müayinə ediblər.

Arvadı oğlunun nə dediyini ona danışdı.

– Bu, yalnız gənclik üsyankarlığıdır. Səbr et, hər şey qaydasına düşəcək, görəcəksən.

Bu dəfə gözləməyin qətiyyən heç bir faydası olmadı, çünki Eduard yaşamağa başlamaq üçün tələsirdi. İki gün sonra, anasının rəfiqələrilə götür-qoy etdiyi zaman, vaxtın keçməsindən bezib, özü incəsənət kursuna yazıldı. Rəng və perspektiv haqqında öyrənməyə başladı və tennis ayaqqabıları və maşınlardan heç vaxt danışmayan adamlarla tanış oldu.

– O, artistlərlə yaşayır! – anası göz yaşları içində səfirə bildirdi.

– Uşağı rahat burax, – səfir dedi. – Tezliklə onlardan bezəcək, necə ki, qız dostundan, kristallardan, piramidalardan, ətirli çubuqlardan və marixuanadan


e-kitab.org

yorulmuşdu.

Lakin vaxt keçdikcə Eduardın otağı improvizə edilmiş studiyaya çevrildi və içərisi valideynlərinin baş aça bilmədiyi əsərlərlə – dairələr, ekzotik rəng kombinasiyaları və primitiv simvolların dua edən insanlarla bir-birinə qarışdığı rəsmlərlə doldu.

Tənhalığa üstünlük verən və Braziliyada yaşadığı iki il ərzində bir dəfə də dostlarını evə gətirməyən Eduard indi evi biçimsiz geyinmiş, səliqəsiz saçları olan, bədheybət musiqiləri ən yüksək səsdə dinləyən əcaib adamlarla doldurur, dayanmadan içki içir, siqaret çəkir və ən adi davranış qaydalarına qətiyyən riayət etmirdi.

Bir gün amerikan məktəbinin direktorundan anasına zəng gəldi.

– Mənə elə gəlir ki, oğlunuz narkotiklərə qurşanıb, – o dedi. – Məktəbdəki qiymətləri çox aşağı düşüb və əgər belə davam etsə, biz onu buradan çıxarmalı olacağıq.

Anası birbaşa səfirin ofisinə gedib, direktorun dediklərini ona xəbər verdi.

– Sən elə hey deyirsən ki, zamanla hər şey öz qaydasına düşəcək! – qadın isterika ilə qışqırdı. – Odur sənin dəli olmuş, narkotikə alışmış, açıq-aydın ciddi beyin travmasından əziyyət çəkən oğlun; sən isə yalnız ziyafətlər və ictimai toplantılarla maraqlanırsan".

– Səsini aşağı sal! – səfir dedi.


e-kitab.org

– Yaxşı, amma əgər bir çarə qılmasan, bir də etməyəcəyəm. Oğlanın yardıma ehtiyacı var, görmürsən? Tibbi yardıma. Bir şey elə!

Səfir arvadının səs-küy qoparıb, işçiləri qarşısında onu utandırmasından narahat oldu və Eduardın rəssamlığa olan həvəsinin gözlənildiyindən çox çəkməsindən əndişələndi. Beləliklə, praktik insan olan və bütün düzgün prosedurları yaxşı bilən səfir hücum planı hazırladı.

Öncə Amerika səfirinə zəng edib, səfirliyin tibbi xidmətindən istifadə etmək üçün nəzakətlə xahiş etdi və xahişi yerinə yetirildi.

Etibarlı həkimlərlə danışıb, vəziyyəti onlara başa saldı və həmin vaxtı onların apardıqları bütün testləri bir də yoxlamalarını rica etdi. Məhkəməyə verilməklərindən qorxan həkimlər tələb olunanı olduğu kimi edib, belə nəticəyə gəldilər ki, testlər heç bir anormallıq ortaya çıxarmayıb. Getməzdən əvvəlsə Amerika səfirliyini onların üzərinə göndərmək məsuliyyətindən azad edən sənədi imzalamasını ondan tələb etdilər.

Dərhal sonra səfir öz oğlunun müalicə aldığı xəstəxanaya getdi. Oranın direktoru ilə danışıb, Eduardın problemini ona açıqladı və oğlunun orqanizmində narkotika olmasını yoxlamaq üçün müayinə bəhanəsilə qan testi edilməsini xahiş etdi.

Onlar oğlanın qanını yoxladılar və heç bir narkotika izi aşkar edilmədi.


e-kitab.org

Və nəhayət, bu strategiyanın üçüncü və sonuncu mərhələsi qaldı: Eduardın özü ilə danışıb, nə baş verdiyini öyrənmək. Əlində yalnız bütün faktların olduğu təqdirdə, o, düzgün qərar verməyə ümid edə bilərdi.

Ata və oğul ikisi qonaq otağında oturdular.

– Anan sənin üçün çox narahatdır, – səfir sözə başladı. – Məktəbdə qiymətlərin aşağı düşüb və sənin məktəbdən çıxarılmaq təhlükən var.

– Ancaq mənim incəsənət məktəbindəki qiymətlərim yaxşılaşıb, ata.

– Fikrimcə, incəsənətə marağın çox gözəldir, amma incəsənətlə məşğul olmaq üçün bütün ömrün hələ qabaqdadır. Bu dəqiqə vacib olanı odur ki, orta təhsilini bitirəsən, mən də səni diplomatik karyeraya aparan yola qoyum.

Bir şey deməzdən öncə, Eduard uzun və dərin fikirləşdi. O, qəza haqqında, öz həyatdakı missiyasını tapmaq üçün bəhanə rolunu oynamış o mistik şəxsiyyətlərdən bəhs edən kitab və izi-tozu itmiş Mariya barədə düşündü. Bir qədər tərəddüd etdikdən sonra dedi:

– Ata, mən diplomat olmaq istəmirəm... Mən rəssam olmaq istəyirəm.

Atası bu cavabı gözləyirdi və onun öhdəsindən necə gələcəyini bilirdi.

– Rəssam olacaqsan, amma əvvəl təhsilini başa vur. Biz sənin Belqradda, Zaqrebdə və Lyublyanada sərgilərini təşkil edərik. Mənim nüfuzum var, sənə çox


e-kitab.org

kömək ola bilərəm, amma əvvəl təhsilini bitirməlisən.

– Əgər elə etsəm, asan yolu seçmiş olaram. Hansısa bir fakültəyə qəbul olub, məni maraqlandırmayan mövzuda oxuyub dərəcə alacağam ki, dolana bilim. Rəssamlıq isə sadəcə arxa plana keçəcək və mən həyatdakı missiyamı unudacağam. Mənə, sadəcə, rəssamlıqla pul qazanmağın yolunu tapmaq lazımdır.

Səfir hirslənməyə başlayırdı.

– Sənin hər şeyin var, oğlum. Səni sevən ailən, evin, pulun, ictimai mövqeyin. Özün də bilirsən ki, ölkəmiz çətin anlarını yaşayır, vətəndaş müharibəsi haqqında şayiələr gəzir. Sabah sənə kömək etmək üçün mən dünyada olmaya bilərəm.

– Mən öz başımın çarəsini taparam. İnan mənə. Bir gün mən "Cənnət Görüntüləri" adlı rəsınlər seriyası yaradacağam. Bu, əsrlər boyu qadın və kişilərin yalnız ürəklərində yaşatdıqlarının vizual tarixi olacaq.

Atası oğlunun qətiyyətini təriflədi, söhbəti təbəssümlə sona çatdırdı və ona bir ay da vaxt vermək qərarına gəldi; axı diplomatiya həm də problemlər öz-özünə həll olunanadək qərarları ertələmək sənətidir.

Aradan bir ay da keçdi və Eduard bütün vaxtını rəssamlığa, öz qəribə dostlarına və açıq-aydın psixoloji pozğunluq doğurmaq üçün yaradılmış o musiqiyə həsr etdi. Bunlar azmış kimi, hələ müqəddəslərin


e-kitab.org

mövcudluğu barədə müəllimi ilə mübahisə etdiyinə görə amerikan məktəbindən qovuldu.

Qərarı artıq ertələmək mümkün olmadığı üçün səfir oğlu ilə kişi kimi söhbət etməyə son dəfə cəhd etdi.

– Eduard, sən daha öz həyatın üçün məsuliyyət daşıyacaq yaşa çatmısan. Biz bacardığımız qədər buna dözmüşük, amma indi artıq bütün bu cəfəngiyatı unudub, karyerana istiqamət verməyin vaxtı gəlib çatmışdır.

– Ata, axı rəssam olmaq elə karyerama istiqamət verir.

– Bəs bizim sənə olan məhəbbətimiz, sənə yaxşı təhsil vermək üçün çəkdiyimiz zəhmət necə olsun? Sən axı belə deyildin. Mən güman edirəm ki, baş verənlər o qəzanın nəticəsidir.

– Bax, sizin hər ikinizi dünyada hər kəsdən və hər şeydən çox sevirəm.

Səfir boğazını arıtladı. Məhəbbətin bu cür açıq ifadə olunmasına alışmamışdı.

– Onda, bizə olan sevgin naminə, lütfən, ananın istədiyi kimi et. Bir müddət bu rəssamlıq işini saxla, səninlə eyni sosial sinfə mənsub olan adamlarla dostluq et və məktəbə qayıt.

– Ata, məni sevdiyini bilirəm. Məndən bunu etməyi tələb edə bilməzsən, çünki istədiyin şeylər uğrunda mübarizə aparmaqla mənə həmişə yaxşı nümunə olmusan. Öz iradəsi olmayan bir insan olmağı məndən istəyə bilməzsən.



e-kitab.org

– Dedim, “sevgin naminə”. Bunu heç vaxt deməmişəm, amma indi deyirəm. Bizə olan sevgin xatirinə, evə qayıt. Təkcə sözün fiziki mənasında deyil, həqiqi mənasında da. Sən reallıqdan uzaqlaşmaqla özünü aldadırsan. – Sən doğulandan bəri, gələcək həyatımız barədə elə xəyallar qurmuşduq ki! Sən bizim hər şeyimizsən – keçmişimiz, gələcəyimizsən. Sənin babaların dövlət xadimləri olmuşlar və mən diplomatik xidmətə daxil olamaq üçün şir kimi çarpışmış və bütün vacib mərhələlərdən keçmişəm. Və mən bunları yalnız sənə imkan yaratmaq, sənin üçün hər şeyi asanlaşdırmaqdan ötrü etmişəm. Səfir kimi ilk dəfə sənədləri imzaladığım qələm hələ də məndədir və onu ehtiyatla qoruyub saxlamışam ki, bir gün sən də eyni şeyi edəndə, onu sənə verim.

– Oğlum, bizi məyus etmə. Biz əbədi yaşamayacağıq və səni həyatda düzgün yola qoyduğumuzu bilərək, rahat ölmək istəyirik. – Əgər həqiqətən bizi sevirsənsə, dediyimizi et. Yox, əgər bizi sevmirsənsə, onda işini davam etdir.

Eduard, saatlarla Braziliya səmasına baxıb, mavi və gözəl, lakin Mərkəzi Braziliya düzənliyinin quraq torpaqlarını nəmləndirmək üçün içərisində bircə damla belə yağış olmayan buludlara tamaşa etdi. O buludlar kimi, onun da içi boş idi.

O, olduğu kimi davam etsəydi, anası qəm yeməkdən solub-saralar, atası karyerasına olan bütün həvəsini itirər və


e-kitab.org

hər ikisi sevimli oğullarına yaxşı tərbiyə verə bilməməkdə bir-birini günahlandırardılar. Yox, əgər o, rəssamlığı atsaydı, onda cənnət görüntüləri işıq üzü görməz və dünyadakı heç bir şey ona eyni sevinc və zövq hisslərini bəxş edə bilməzdi.

Ətrafına baxıb rəsmlərini gördü; hər bir fırçaya nə qədər sevgi və məna qatdığını xatırladı və çəkdiyi rəsmlər ona çox adi göründü. Özünü saxtakar hiss etdi: onun üçün biçilməyən bir sənət seçmiş və bunun nəticəsi valideynlərini məyusluğa uğratmaq olmuşdu.

Cənnət görüntüləri seçilmişlər üçün idi; kitablarda məqsədləri uğrunda vuruşub qəhrəman və ya şəhid kimi təsvir olunanlara məxsus idi: o insanlara ki, onlar doğulduğu andan bəri dünyanın onlardan nə istədiklərini bilirdilər. Oxuduğu o birinci kitabdakı faktlar sadəcə hekayə yazanın ixtiraları idi.

Şam yeməyi zamanı valideynlərinə onların haqlı olduqlarını, istədiklərinin, sadəcə, gənclik arzuları olduğunu və rəssamlığa həvəsinin artıq keçdiyini söylədi. Valideynləri sevindilər, anası sevincdən ağlayıb, oğlunu qucaqladı və hər şey yenidən qaydasına düşdü.

Həmin gecə səfir şampan şüşəsi açıb, təklikdə içməklə öz qələbəsini gizlincə qeyd etdi. Yataq otağına keçəndə neçə aydan bəri ilk dəfə idi ki, arvadının artıq rahatca yatdığını gördü.

Növbəti gün onlar Eduardın otağını



e-kitab.org

qarmaqarışıqlıq içində – rəsmlərin kəsib doğranıldığını, oğlanın bir küncdə oturub, gözlərini səmaya zillədiyini gördülər. Anası onu qucaqlayıb, oğlunu nə qədər sevdiyini dedi, amma Eduard heç bir reaksiya vermədi.

Onun daha məhəbbətlə işi yox idi; o, artıq bütün bunlardan bezmişdi. Arzusundan eləcə vaz keçib, atasının məsləhətinə əməl edə biləcəyini düşünmüşdü. Lakin o, işin çox dərinliyinə getmişdi; insanı öz arzusundan ayıran o uçurumu keçmişdi və indi artıq geriyə yol yox idi.

O, nə geri, nə də irəli gedə bilirdi. Ən asan yol, sadəcə, səhnəni tərk etmək idi.

Eduard daha beş ay Braziliyada qalıb, mütəxəssislər tərəfindən müalicə olundu: onda şizofreniyanın nadir forması aşkar edildi və bunun velosiped qəzası nəticəsində baş verdiyini güman etdilər. Sonra isə Yuqoslaviyada müharibə başlandı və səfir tələsik ölkəsinə geri çağırıldı. Eduarda baxmaq ailə üçün çox müşkül məsələ idi və yeganə çıxış yolu onu yeni açılmış Vilet xəstəxanasına yerləşdirmək oldu.


e-kitab.org

# 24

* * *

Eduard öz həyat hekayəsini danışıb bitirdikdə hava qaralmışdı və hər ikisi soyuqdan tir-tir əsirdi.

– Gəl, içəri gedək, – o dedi. – İndi şam yeməyi veriləcək.

– Uşaq vaxtı biz hər dəfə nənəmgilə gedəndə onun evində asılan xüsusi bir rəsm əsəri məni həmişə valeh edirdi, – Veronika dedi. – Şəkildə bir qadın – katoliklər onu “Bizim Xanımımız” adlandırırdılar – dünya üzərində durmuş, əlləri yerə doğru uzanmış və barmaqları ucundan işıq şüaları çıxmış şəkildə təsvir olunmuşdu. – Bu qadının rəsmində məni heyrətə gətirən o idi ki, o, canlı ilan üzərində dayanmışdı. Nənəmdən soruşdum: “O, ilandan qorxmur? İlan onu ayağından çalıb, zəhərilə öldürməzmi?”

– Nənəm cavab verdi: “İncilə görə, ilan dünyaya yaxşını və pisi gətirib və o qadın da yaxşı və pisi öz məhəbbəti ilə nəzarət altında saxlayır.

– Onun mənim hekayəmə nə dəxli var? – deyə Eduard soruşdu.

– Səni bir həftədir tanıdığım üçün, səni sevdiyimi demək çox tez olardı. Amma çox yəqin ki, səhərə sağ çıxmayacağam. Ona görə də bunu deməmək çox gec olardı. Axı məhəbbət insanların divanəliyidir.

– Sən mənə bir məhəbbət hekayəsi danışdın. Mən həqiqətən inanıram ki, valideynlərin sənin xeyirini istəyirdilər,


e-kitab.org

ancaq onların məhəbbəti az qala səni məhv edəcəkdi. Əgər nənəmgildəki rəsm əsərində olduğu kimi, Bizim Xanımımız ilanın üstündə durubsa, bu, o deməkdir ki, sevginin iki üzü vardır.

– Nə demək istədiyini anlayıram, – Eduard dedi. – Tibb işçilərini mənə elektrik şok verməyə ona görə təhrik etdim ki, sən mənim fikirlərimi qarışdırmışdın. Nə hiss etdiyimdən tam əmin deyiləm, amma onu bilirəm ki, sevgi artıq bir dəfə məni məhv edib.

– Qorxma. Bu gün Dr. İqordan gözlərimi həmişəlik yummaq üçün yer tapmaqdan ötrü buranı tərk etməyə izin almışdım. Amma onların səni tutub saxladıqlarını görəndə, bu dünyanı tərk edərkən məhz sənin üzünə baxmaq istədiyimi anladım. Beləcə, qalmaq qərarına gəldim. – Sən elektrik şokunun təsirindən özünə gəlmək üçün yatanda, mən yenidən ürəktutma keçirdim və o zaman düşündüm ki, artıq vaxtım çatmışdır. Sənin üzünə baxdım, həyat hekayənin nə olduğu haqqında düşünməyə çalışdım və məsud şəkildə ölmək üçün özümü hazırladım. Lakin ölüm gəlmədi, ürəyim bir daha tab gətirdi. Bəlkə də hələ gənc olduğumdandır.

Eduard yerə baxdı.

– Sevilməkdən utanma. Səndən heç nə istəmirəm; sadəcə icazə ver, səni sevim və bu axşam yenə də piano çalım, ancaq son dəfə və əlbəttə, əgər buna taqətim çatarsa. Əvəzində səndən yalnız bir şey diləyirəm:


e-kitab.org

əgər kimdənsə öldüyümü eşitsən, düz mənim palatama gəl. Qoy arzuma çatım.

Eduard uzun müddət heç nə demədi və Veronika elə düşündü ki, o, yenə də öz aləminə qapılıb və bir müddət oradan geri qayıtmayacaq.

Sonra Eduard Viletin divarlarından kənardakı dağlara baxıb dedi:

– Əgər buranı tərk etmək istəyirsənsə, səni apara bilərəm. Gözlə, gedim bir-iki jaket və bir az pul götürüb gəlim, sonra gedək.

– Bu çox çəkməyəcək, Eduard. Bunu bilirsən.

Eduard cavab vermədi. İçəriyə gedib, dərhal sonra əlində iki jaketlə geri qayıtdı.

– Bu, əbədi sürəcək, Veronika; burada o cənnət görüntülərini unutınağa çalışmaqla keçirdiyim bir-birinə bənzər günlərdən və gecələrdən də çox sürəcək. Mən az qala onları unutmuşdum, amma deyəsən, onlar yenə də geri qayıdırlar.

– Dur gedək. Çılğın insanlar çılğın şeylər edirlər.


e-kitab.org

# 25

* * *

Həmin gecə hamı şam yeməyinə yığışanda, onlar dörd adamın orada olmadığına fikir verdilər.

Hamı bilirdi ki, Zadka uzun müddət müalicə olunduqdan sonra evə buraxılmışdı; Mari, çox güman. həmişə olduğu kimi yenə kinoteatra getmişdi; Eduard – bəlkə də elektroşok müalicəsindən hələ özünə gəlməmişdi... Bu haqda düşünəndə, hamı qorxuya düşdü və sükut içərisində şam yeməyinə başladı.

Və nəhayət, yaşıl gözlü, qəhvəyi saçlı qız da orada yox idi. Hamı bilirdi ki, o, bu həftənin sonuna kimi yaşamayacaq.

Viletdə heç kim açıq şəkildə ölümdən danışmırdı, hərçənd orada olmayanlar qeyd olunurdu, amma hamı özünü həmişə elə aparırdı ki, guya heç nə olmayıb.

Şayiə stoldan stola yayılmağa başladı. Bəziləri ağladı, çünki o qız necə də həyat eşqi ilə dolu idi və indi xəstəxananın arxasındakı kiçik meyitxanada yatırdı. Oraya yalnız gündüz vaxtları, ancaq ən cəsarətli olanlar gedirdilər. Orada üç mərmər stol var idi və adətən onların birində mələfəyə bürünmüş yeni bədən olurdu.

Hamı bilirdi ki, bu gün Veronika orada olacaqdır. Həqiqətən dəli olanlar həmin həftə ərzində bir neçə dəfə hamını piano çalmaqla narahat edən başqa bir qonağın


e-kitab.org

orada olmadığını unutmuşdular. Bəziləri bu xəbəri eşidəndə çox kədərləndilər; onların arasında Veronikanın İntensiv Terapiya Palatasında olduğu zaman onunla olan tibb bacıları da vardı. Lakin işçilərə təlimat verilmişdi ki, onlar xəstələrə çox da bağlanmasınlar, çünki onların bəziləri xəstəxanadan gedir, bəziləri vəfat edir və çoxunun vəziyyəti getdikcə pisləşirdi.

Onların qəmginliyi bir az uzun çəkdi, amma sonra o da keçdi.

Sakinlərin böyük əksəriyyəti xəbəri eşitdikdə, özlərini elə apardılar ki, guya sarsılmış və qəmgin olmuşdular, amma əslində rahatlaşdılar, çünki ölüm mələyi bir daha Viletin üzərindən keçmiş və onlara toxunmamışdı.


e-kitab.org

# 26

* * *

Şam yeməyindən sonra "Qardaşlıq" üzvləri bir yerə toplaşdıqda, qrup üzvlərindən biri onlara xəbər gətirdi: Mari kinoya getməyib, o, Vileti birdəfəlik tərk edib və ona məktub qoyub.

Heç kim məsələyə elə də mühüm əhəmiyyət vermədi: Mari həmişə hamıdan fərqli, onlardan daha çox dəlisov görsənirdi və Viletdə onların yaşadığı ideal şəraitə uyğunlaşa bilmirdi.

– Mari bizim burada nə qədər xoşbəxt olduğumuzu heç vaxt başa düşmürdü, – onlardan biri dedi. – Biz eyni maraqları olan dostlarıq, bizim rejimimiz var, bəzən birlikdə səfərlərə çıxırıq, mühüm məsələlər haqqında nitq söyləmək üçün mühazirəçilər dəvət edir və onların ideyalarını müzakirə edirik. Həyatımız buradan kənarda yaşayan çox insanın nail olmaq istədiyi mükəmməl stabilliyə malikdir.

– Bundan başqa, Viletdə işsizlik təhlükəsindən, Bosniya ilə müharibənin nəticələrindən, iqtisadi problemlərdən və zalımlıqlardan qorunuruq, – bir başqası əlavə etdi. – Biz burada harmoniya tapmışıq".

– Mari mənim üçün bu məktubu qoyub, – onlara xəbəri çatdıran oğlan əlində bağlı zərfi göstərərək dedi. – Hamıya əlvida demək əlaməti kimi, məndən bu məktubu ucadan oxumağı xahiş edib.



e-kitab.org

Qrupun ən yaşlı üzvü zərfi açıb, Marinin dediyi kimi etdi. Məktubu yarıda qoymaq istədi, amma artıq gec idi, ona görə də sonadək oxudu:

"Mən hələ gənc hüquqşünas olanda bir ingilis şairinin yazdığı şeirləri oxumuşdum və onun dediyi bir şey mənə çox təsir etmişdi: "Axıb-daşan fəvvarə kimi ol, sadəcə suyu saxlayan hovuz kimi yox". Mən həmişə onun haqsız olduğunu düşünürdüm. Axıb-daşmaq təhlükəli idi, çünki daşmaqla sevdiklərimizə məxsus əraziləri yuyub apara və onların bizim sevgi və coşqunluğumuz içində boğulmasına səbəb ola bilərdik. Bütün həyatım boyu mən hovuz olmağa çalışıb, heç vaxt öz divarlarımdan kənara çıxmadım.

Sonra heç vaxt başa düşməyəcəyim səbəb üzündən panika hücumlarından əziyyət çəkməyə başladım. Əsla olmaq istəmədiyim insana çevrildim. Axıb-daşan fəvvarə olub, ətrafımda olan hər şeyi sel-suya qərq etdim. Nəticədə, Viletə gəlib çıxdım.

Sağaldıqdan sonra o hovuza gəlib, sizinlə tanış oldum. Dostluğunuz, məhəbbətiniz, keçirdiyim o sevincli anlar üçün sizə təşəkkür edirəm. Biz akvariumdakı balıqlar kimi birlikdə yaşayıb, lazım olanda bizə çörək atdıqları üçün sevindik. İstədiyimiz an ətraf aləmə şüşələrdən baxa bilirdik.

Lakin dünən bir piano və bəlkə indi artıq dünyadan köçmüş gənc bir qızın


e-kitab.org

sayəsində çox mühüm bir şeyi anladım: Viletin içərisindəki həyat eynilə çöldə olan həyat kimidir. Həm burada, həm orada insanlar qrup halında yığışır, ətraflarına sədlər çəkir və heç bir şeyin onların adi mövcudiyyətin narahat etməsinə imkan vermirlər. Onlar alışdıqları şeyləri edir, mənasız mövzular barədə öyrənir, sadəcə, əylənməli olduqları üçün əylənir və qalan dünya onların nəzərinə belə olmur – kim nə istəyirsə, etsin. Ən yaxşı halda, televizorda xəbərləri izləyirlər – necə ki, biz tez-tez edirdik – və problem və ədalətsizliklərlə dolu olan dünyada özlərinin xoşbəxt olduqlarını təsdiq edirlər.

Demək istədiyim budur ki, "Qardaşlığ"ın həyatı eynilə Viletdən kənarda yaşayan hər bir kəsin həyatı kimidir: onlar da akvariumun şüşə divarlarından kənarda nə baş verdiyi barədə bütün bilgilərdən uzaq qalmağa çalışırlar. Uzun müddət belə yaşamaq rahat və faydalı idi, amma insanlar dəyişir və mən dəyişdim. İndi macəra axtarışına çıxmışam, baxmayaraq ki, altmış beş yaşım var və yaşla gələn məhdudiyyətlərin fərqinə varıram. Bosniyaya gedəcəyəm. Orada məni gözləyən insanlar var. Onlar məni, mən də onları hələ tanımasam belə, onlara faydalı olacağımdan əminəm. Bir günlük macəra təhlükəsi min günlük rahatlığa dəyər.

O, məktubu oxuyub qurtardıqdan sonra Qardaşlığın üzvləri öz otaqlarına və palatalarına qayıtdılar. Hamı öz-özünə



e-kitab.org

Marinin, nəhayət ki, dəli olduğunu söylədi.



e-kitab.org

# 27

* * *

Eduard və Veronika Lyublyanadakı ən bahalı restorana gedib, ən yaxşı yeməkləri sifariş etdilər və 1988-ci ilə məxsus, əsrin ən yaxşı şərab növlərindən birinin üç şüşəsini boşaldaraq, sərxoş oldular. Şam yeməyi boyunca onlar bir dəfə də olsun Vileti,keçmişi və ya gələcəyi yada salınadılar.

– İlan haqqındakı o hekayə xoşuma gəldi, – Veronikanın badəsini növbəti dəfə dolduran Eduard dedi. – Amma nənən o hekayəni şərh edə bilmək üçün çox qoca olub.

– Nənəmə bir az hörmətin olsun! – Veronika sərxoş halda bağırıb, hamının dönüb ona baxmasına səbəb oldu.

– Gəlin, qədəhləri bu gənc qızın nənəsinin sağlığına qaldıraq! – deyə Eduard ayaq üstə sıçradı. – Qarşımda oturan, şübhəsiz, Viletdən qaçan bu dəli qızın nənəsinin sağlığına qədəhləri qaldıraq!

Camaat diqqətini yeməyə çevirib, özlərini heç nə olmamış kimi apardı.

– Nənəmin sağlığına qədəhləri qaldıraq! – deyə Veronika israr etdi.

Restoran sahibi onların masasına yaxınlaşdı.

– Lütfən, özünüzü ələ alın!

Onlar bir neçə saniyəlik susdular, lakin sonra yenidən ucadan danışmağa, cəfəng-cəfəng atmacalar atmağa və özlərini yersiz



e-kitab.org

aparmağa davam etdilər. Restoran sahibi onların masasına geri qayıdıb, onlara hesabı ödəmək məcburiyyətində olmadıqlarını, lakin oranı dərhal tərk etmələrini tələb etdi.

– Təsəvvür elə, bu hədsiz dərəcədə yüksək şərabın haqqını ödəməməklə nə qədər pula qənaət edəcəyik, – Eduard dedi. – Nə qədər ki bu cənab fikrini dəyişməyib, gəl buradan gedək.

Kişi fikrini dəyişməyəcəkdi. Nəzakətli jest edib, Veronikanın stulunu çəkdi ki, o, restoranı mümkün qədər tez tərk etsin.

Onlar gəzə-gəzə şəhərin mərkəzində yerləşən kiçik meydanın ortasına gedib çıxdılar. Veronika başını qaldırıb, monastırdakı otağına baxdı və onun sərxoşluğu dərhal yox oldu. Tezliklə öləcəyi yadına düşdü.

– Gəl bir az da şərab alaq! – Eduard təklif etdi.

Yaxınlıqda bar var idi. Eduard iki şüşə aldı və ikisi də aşağı əyləşib, içməyə başladılar.

– Nənəmin o rəsmlə bağlı verdiyi şərhin nəyi pisdir ki! – Veronika dedi.

Eduard o qədər sərxoş idi ki, restoranda nə dediyini xatırlamaq üçün böyük səy göstərməli oldu, amma nəhayət, xatırlaya bildi.

– Nənən demişdi ki, o qadın ilan üzərində ona görə dayanıb ki, sevgi yaxşılıq və pisliyə başçılıq etməlidir. Bu cür izahat gözəl və romantikdir, amma onun rəsmlə heç bir əlaqəsi yoxdur. Mən o rəsmi əvvəllər


e-kitab.org

də görmüşəm, o mənim təsvir etmək istədiyim cənnət görüntülərindən biridir. Mən həmişə Müqəddəs Məryəmin niyə elə təsvir olunması haqqında düşünürdüm.

– Niyə belə təsvir olunub ki?

– Çünki Müqəddəs Məryəm qadın enerjisinin simvolu və ilanın xanımıdır ki, bu da müdriklik anlamına gəlir. Əgər Dr. İqorun taxdığı üzüyə fikir versən, görərsən ki, üzük üzərində həkim simvolu olan, çubuğa qıvrılmış iki ilan işarəsi var. Sevgi müdriklikdən də ucadır – necə ki, Müqəddəs Məryəm ilandan da ucadır. Onun üçün hər şey ilham mənbəyidir. Nəyin yaxşı, nəyin pis olmasını mühakimə etmək onu maraqlandırmır.

– Bilirsən nə var? – Veronika dedi. – Müqəddəs Məryəm insanların onun haqqında nə düşünməsinə heç vaxt əhəmiyyət vermirdi. Təsəvvür elə ki, Müqəddəs Ruh haqqındakı məsələni hamıya izah etməli olsaydı, nə olardı. O, heç bir izahat verməyib, sadəcə, demişdi: “Olan artıq olub”. Bilirsən başqaları buna cavab olaraq nə deyib?

– Əlbəttə. Deyiblər ki, o, dəli olub.

Hər ikisi güldü. Veronika qədəhi qaldırdı.

– Təbrik edirəm. O cənnət görüntülərindən eləcə danışmaqdansa, onların rəsmini çəkməlisən.

– Onda elə səndən başlayaram, – Eduard dedi.

Kiçik meydanın yanında alçaq təpə var.



e-kitab.org

O təpədə kiçik bir qala yerləşir. Veronika və Eduard dik cığırı yorğun-arğın sürünərək keçib, söyüş söyür, gülür, buz üstə sürüşüb yıxılır və yorğunluqdan şikayət edirdilər.

Qalanın yanında yekəpər və sarı rəngli kran var. Lyublyanaya ilk dəfə gələnlərə bu elə təsir bağışlayır ki, sanki qala təmir olunmaqdadır və tezliklə iş bitəcəkdir. Lakin Lyublyananın sakinləri bilirlər ki, kran artıq neçə illərdir ki, orada durur və heç kimin bunun niyə belə olduğundan xəbəri yoxdur. Veronika Eduarda dedi ki, bağça uşaqlarına qalanın rəsmini çəkmək tapşırılanda, onlar həmişə o kranı da rəsmə daxil edirlər.

– Bundan əlavə, kran qaladan daha yaxşı qalıb.

Eduard güldü.

– Sən indiyə artıq ölmüş olmalıydın, – hələ də alkoqolun təsir altında, lakin səsində qorxu hiss edilən Eduard dedi. – Sənin ürəyin bu qalanı dırmaşmağa tab gətirməməli idi.

Veronika onu astadan, uzun-uzadı öpdü.

– Mənim üzümə bax, – o dedi. – Ruhunun gözlərilə üzümü yadında saxla ki, bir gün rəsmimi çəkə biləsən. İstəyirsənsə, bu sənin başlama nöqtən ola bilər, amma rəssamlığa qayıtmalısan. Bu mənim səndən sonuncu xahişimdir. Sən Yaradanın varlığına inanırsan?

– İnanıram.

– Onda, inandığın Tanrıya and iç ki, bir



e-kitab.org

gün mənim rəsmimi çəkəcəksən.

– And içirəm.

– Və rəsınimi çəkəndən sonra rəssamlığa davam edəcəksən.

– Onu edə biləcəyimdən əmin deyiləm.

– Bilərsən, – Veronika dedi. – Eduard, həyatıma məna verdiyin üçün sənə təşəkkür etmək istəyirəm. Bu dünyaya bütün yaşadıqlarımı yaşamaq üçün gəldim: intihara cəhd etmək, ürəyimin məhvinə səbəb olmaq, səninlə tanış olmaq, bu qalaya gəlmək, üzümü ruhunun yaddaşına həkk etmək. Dünyaya gəlməyimin yeganə səbəbi tərk etdiyin yola səni geri qaytarmaq idi. Lütfən, həyatının boşa getdiyini düşünməyə məni məcbur etmə.

– Bunun gec və ya tez olduğunu bilməsəm də, sənin mənə dediyin kimi, mən də sənə səni sevdiyimi söyləmək istəyirəm. Buna inanmaya bilərsən, bəlkə də bu ağılsızlıqdır, mənim fantaziyamdır.

Veronika qollarını Eduardın boynuna sarıb, inanmadığı Tanrıya yalvardı ki, onun həyatına elə həmin andaca son qoysun.

O, gözlərini yumdu və Eduardın da gözünü yumduğunu hiss etdi. Və dərin, röyasız yuxuya daldı. Ölüm şirin idi; o şərab dadı verir və onun saçlarını sığallayırdı.



e-kitab.org

## 28

* * *

Eduard kiminsə onun çiynini dürtmələdiyini hiss etdi.

– İstəsəniz, gedib hökumət binasına sığına bilərsiniz, – polis işçisi dedi. – Burda qalsanız, donacaqsınız.

Bir saniyə ərzində Eduard keçən gecə nələrin baş verdiyini xatırladı. Bir qız onun qollarında qıvrılıb uzanmışdı.

– O... o ölüb.

Amma qız tərpənib gözlərini açdı.

– Nə baş verib? – deyə Veronika soruşdu.

– Heç nə, – Eduard cavab verib, ona ayağa qalxmaqda kömək etdi. – Və ya möcüzə baş verib: ömrə yeni gün əlavə olunub.



e-kitab.org